# Journal of Baku Engineering University

ISSN 2521-6341

## ECONOMICS AND ADMINISTRATION

Volume 3
Number 1

2019

Journal is published twice a year
*Number-1. June, Number-2. December*

*An International Journal*

http://journal.beu.edu.az

**Founder**

*Havar Mammadov*

**Editor-in-chief**

*Elchin Suleymanov*

**Editor**

*Mayis Azizov*

*Farid Jabiyev*

**Editorial board**

*Altay Ismayilov (Azerbaijan, Azerbaijan State University of Economics)*
*Samir Guliyev (Azerbaijan,Baku Engineering University)*
*Firudin Sultanov (Azerbaijan, Baku Engineering University)*
*Hazi Eynalov (Azerbaijan, Baku Engineering University)*
*Murad Isgandarov (Azerbaijan,Baku Engineering University)*
*Nasimi Kamalov (Azerbaijan,Baku Engineering University*
*Elsever Ibadov (Azerbaijan,Baku Engineering University)*
*Tarbiz Aliyev (ANAS, Institute of Economy)*
*Tayyar Mustafayev (Azerbaijan,Baku Engineering University)*
*Vilayat Valiyev (Azerbaijan, Institute for Scientific Research on Economic Reforms)*
*Khanlar Haydarov (Azerbaijan, Baku Engineering University)*
*Shahriyar Muhtarov (Azerbaijan, Baku Engineering University)*
*Yadullah Hasanli (Azerbaijan, Azerbaijan State University of Economics)*

**International Advisory board**

*Alina Danilowska (Poland, Warsaw University of Life Sciences)*
*Alp Malazgirt (Rep. of Korea, So lBridge International School of Business)*
*Anthony Adamthwaite (USA, University of California Berkeley)*
*Frederick Joutz (USA, George Washington University)*
*Gregory R. Quinet (USA, Southern Polytechnic State University*
*James Dingley (UK, Francis Hutcheson Institute)*
*Mark S. Hiatt (USA, Southern Polytechnic State University)*
*Manuela Tvaronaviciene (Litva,Vilnius Gediminas Technical University)*
*Nalan Basturk (Netherland, Erasmus University Rotterdam)*
*Robert Powell (USA, University of California Berkeley)*
*Ronny L. Richardson (USA, Southern Polytechnic State University)*
*Tara Sinclair (USA, George Washington University)*
*William Patrick Leonard (Rep.of Korea, SolBridge Inter. School of Business*

**Executive Editors**

*Shafag Alizade*

**Assistant Editors**

*Rufat Mammadov*

**Design**

*Ilham Aliyev*

**Contact address**

*Journal of Baku Engineering University*
*AZ0101, Khirdalan city, Hasan Aliyev str. 120, Absheron, Baku, Azerbaijan*
***Tel:*** *00 994 12 - 349 99 66/78* ***Fax:*** *00 994 12 349-99-90/91*

**e-mail:** *jr-eco.adm@beu.edu.az*
**web:** *http://journal.beu.edu.az*
**facebook:** *Journal Of Baku Engineering University*

*Copyright* © Baku Engineering University

ISSN 2521-6341

ISSN 2521-6341

BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

# Journal of Baku Engineering University

## ECONOMICS AND ADMINISTRATION

Baku - AZERBAIJAN

# Journal of Baku Engineering University

## ECONOMICS AND ADMINISTRATION

**2019. Volume 3, Number 1**

# CONTENTS

**ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ AKADEMİK HEYƏTİN TƏDRİS FƏALİYYƏTİNİN TƏHSİLALANLAR TƏRƏFİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ MEYARLARININ MÜƏYYƏN OLUNMASINA DAİR ARAŞDIRMA**

*Xəqani Bəşirov, Kamal Mirzəyev* ____ 3

**İQTİSADİ ƏMƏKDAŞLIQ T018FŞKİLATININ ƏSAS STATİSTİK GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ ANALİZİ (2000 - 2015-Cİ İLLƏR)**

*Cahid Məmmədov* ____ 15

**GREEN SHADOWS, OR HOW INFORMAL ECONOMIES AFFECT SUSTAINABLE DEVELOPMENT ON NATIONAL LEVEL**

*Gunel J. Amrahova* ____ 25

**OPTİMAL VERGİ YÜKÜ VƏ AZƏRBAYCAN NÜMUNƏSİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

*Xubanova Afət, Süleymanov Elçin* ____ 40

**NEFT YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİNİN İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

*Yusifzadə Pərvanə* ____ 62

**RABİTƏ XİDMƏTLƏRİ BAZARININ KOMPLEKS TƏDQİQATI PROBLEMLƏRİ**

*Həşimova A.Ç.* ____ 69

**DEVALVASİYANIN AZƏRBAYCANDA REAL SEKTORUN İNKİŞAFINA TƏSİRİ**

*Füzuli Əliyev, Üzeyir Bayramlı* ____ 76

**KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İQTİSADİ İNKİŞAFA TƏSİRİ İLƏ BAĞLI MÜASİR YANAŞMALAR**

*Samir Orucov, Həzi Eynalov* ____ 81

**EĞİTİMDE PROJE TABANLI ÖĞRENME YAKLAŞIMININ ÜNİVERSİTE-SANAYİ İŞBİRLİĞİNİN GELİŞMESİNDEKİ ROLÜ**

*İsa Qasımov, Ensar Lokmanoğlu* ____ 87

**MÜƏSİSƏNİN STRATEJİ PLANLAŞDIRILMASINDA İNFORMASİYA TƏMİNATI**

*Gökan Özkundakçı* ____ 95

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2019. Volume 3, Number 1* *Pages 3-14*

*UOT: 658.5*

# ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ AKADEMİK HEYƏTİN TƏDRİS FƏALİYYƏTİNİN TƏHSİLALANLAR TƏRƏFİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ MEYARLARININ MÜƏYYƏN OLUNMASINA DAİR ARAŞDIRMA

**i.f.d., b/m. Xəqani BƏŞİROV**
Bakı MühəndislikUniversiteti
*xbashirov@beu.edu.az*

**Kamal MİRZƏYEV**
Azərbaycan Dövlət İqtisad Universiteti
*kmirzeyev@hotmail.com*

**XÜLASƏ**

Ali və orta ixtisas təhsili müəssisələrində işçi heyətinin böyük bir hissəsini professor-müəllim heyəti təşkil edir. Bu kateqoriyadan olan müəssisələrin əsas fəaliyyəti elmi-pedaqoji və elmi-tədqiqat fəaliyyətlərindən ibarət olduğuna görə onların fəaliyyətinin səmərəliliyinə və məhsuldarlığına orada işləyən akademik heyətin təsiri olduqca böyükdür. Çünki bu qəbildən olan müəssisələrin əsas müştəriləri təhsilalanlar hesab edilir. Təhsil müəssisələrinin rentabelliyi təhsilalanların müştəri kimi məmnuniyyətindən çox asılıdır. Buna baxımdan ali və orta ixtisas təhsili müəssisələrində insan resursları performansının idarə edilməsi sisteminin qurulması böyük əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq araşdırmada bu tip təhsil müəssisələrində çalışan akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi meyarlarının müəyyən olunması öz əksini tapmışdır. Məqsəd, akademik heyətin əmək fəaliyyətinin (performansının) qiymətləndirilməsi prosesinə həmin heyətin tədris apardığı qruplarda təhsil alan şəxslərin də cəlb edilməsidir. Bununla ali və orta ixtisas təhsili müəssisələri akademik heyətin tədris fəaliyyətinin keyfiyyətini ölçmək üçün elmi şəkildə hazırlanmış və etibarlılığı, uyğunluğu test edilmiş anket sorğusundan istifadə etmək imkanı əldə edəcəklər.Bu da akademik heyətin performansının düzgün qiymətləndirilməsinə şərait yaradaraqeyni zamanda müştərilərin təklif və iradlarının nəzərə alınması yolu ilə müəssisə performansının yüksəldilməsinə kömək edəcəkdir.

**Açar sözlər:** ali və orta ixtisas təhsili müəssisələri, akademik heyət, tədris fəaliyyəti, qiymətləndirmə.

## RESEARCH ON STUDENT ASSESSMENT CRITERIASUSİNG FOR EVALUATING ACADEMIC STAFF TEACHING PERFORMANCEIN COLLEGES AND HIGHER EDUCATIONAL INSTITUTIONS

**ABSTRACT**

The majority of the staffs in the colleges and higher educational institutionsare the academic staff. As the main activities of this category based on the scientific-pedagogical and scientific-research activities, the effectiveness of their activities and the efficiency of their academic staff is very significant. Because the main clients of these type of enterprises are students. The profitability of educational institutions depends on the students' satisfaction as customers. In this regard, the establishment of a human resources performance management system in the colleges and higher educational institutionshas a great importance. Thus, the study found the criteria for assessing students' academic performance by their academic staff working in this type of educational institutions. The aim is to involve students who were taught by academic staff in this group to the process of evaluation of academic staff's performance. In this way, colleges and higher educational institutionswill have the opportunity to use a research questionnaire designed to measure the quality of the academic performance of the academic staff and test it for its reliability and consistency. This will also contribute to the proper evaluation of academic performance, and will help to improve enterprise performance by taking into account clients' suggestions and comments.

**Key words:** higher education enterprises, academic staff, educational activities, evaluation.

## ИССЛЕДОВАНИЕ ОПРЕДЕЛЕНИЯ КРИТЕРИЕВ ОЦЕНКИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ АКАДЕМИЧЕСКОГО ПЕРСОНАЛА СО СТОРОНЫ ПОЛУЧАЮЩИХ ОБРАЗОВАНИЕ В ВЫСШИХ И СРЕДНИХ СПЕЦИАЛЬНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**РЕЗЮМЕ**

В высших и средних специальных учебных заведениях большую часть персонала составляют профессорско-преподавательский состав. В связи с тем, что основная деятельность предприятий этой категории состоит из

научно-педагогической и научно-исследовательской деятельности, влияние академического персонала на эффективность и производительность их деятельности чрезвычайно велика. Так как основными клиентами предприятий этой категории считаются обучающиеся. Рентабельность учебных заведений сильно зависит от удовлетворенности обучающихся как клиентов. С этой точки зрения большое значение имеет построение системы управления эффективностью человеческих ресурсов в высших и средних специальных учебных заведениях. Учитывая это, в исследовании отражено определение критериев оценки обучающимися учебной деятельности академического персонала, работающего в учебных заведениях данного типа. Цель состоит в том, чтобы привлечь к процессу оценки трудовой деятельности (производительности) академического персонала и лиц, обучающихся в группах, в которых обучается данный персонал.Тем самым высшие и средние специальные учебные заведения будут иметь возможность использовать научно подготовленный и проверенный на надежность анкетный опрос для оценки качества учебной деятельности академического персонала. Это также поможет повысить производительность предприятия, создав условия для правильной оценки работы академического персонала, а также учитывать предложения и волю клиентов.

**Ключевые слова:** предприятие высшего образования, академический состав сотрудников, образовательные мероприятия, оценивание.

## GİRİŞ

Ali və orta ixtisas təhsili müəssisələri peşə-ixtisas təhsilini həyata keçirən təhsil müəssisələri kateqoriyasına daxildir. Bu kateqoriyaya daxil olan təhsil müəssisələrində həyata keçirilən fəaliyyətin əsas hissəsini tədris prosesi təşkil edir və bu prosesinin həyata keçirilməsində akademik heyət müstəsna rol oynayır. Ali və orta ixtisas təhsili müəssisələrində tədris sahəsində qarşıya qoyulan məqsəd və hədəflərə nail olunması akademik heyətin tədris fəaliyyətinin nəticələrindən asılıdır. Bu baxımdan akademik heyətin əmək fəaliyyətinin (performansının) qiymətləndirilməsi zamanı onların tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi də xüsusi əhəmiyyət daşıyır, çünki tədris fəaliyyəti bilavasitə təhsilalanlara ünvanlanır. Buna görə də akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsinin təhsilalanlar tərəfindən həyata keçirilməsi daha doğru bir yanaşmadır. Bu qiymətləndirmənin aparılmasında korkoranə deyil, elmi şəkildə hazırlanmış, uyğunluq və etibarlılıq analizləri vasitəsilə təsdiq edilmiş anketlərin tətbiqi akademik heyətin qiymətləndirilməsinin düzgün həyata keçirilməsinə şərait yaradacaqdır. Bu baxımdan hazırlanan anket akademik heyətin tədris fəaliyyətinin elmi şəkildə qiymətləndirilməsini təmin etmək məqsədilə hazırlanmışdır.

## 1. ARAŞDIRMANIN MƏQSƏDİ VƏ ƏHƏMİYYƏTİ

Araşdırmanın əsas məqsədi a) ali və orta ixtisas təhsili müəssisələrində tədrisin keyfiyyətini yüksəltmək üçün professor-müəllim heyətinin tədris fəaliyyəti barədə təhsilalanların fikir və düşüncələrini tam şəkildə öyrənmək; b) əldə olunan nəticələrdən professor-müəllim heyətinin əmək fəaliyyətinin qiymətləndirilməsində istifadə etmək; c) mükəmməl bir elmi anket hazırlamaqla bunu Respublikamızda fəaliyyət göstərən bütün ali və orta ixtisas təhsili müəssisələrinin istifadəsinə təqdim etməkdən ibarətdir.

Akademik heyətin əmək fəaliyyəti elmi və pedaqoji hissələrdən ibarət olduğuna görə bu sahədə işləyən işçilərin performansının ölçülməsi və qiymətləndirilməsi zamanı onların fəaliyyətinin həm elmi, həm də pedaqoji tərəflərinin qiymətləndirməyə cəlb edilməsi zəruridir. Tədris fəaliyyəti birbaşa təhsilalanlara istiqamətləndiyi üçün akademik heyətin pedaqoji fəaliyyətindən ən çox təsirlənən qrup da onlar hesab edilir. Belə olduğuna görə akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsində əsas tərəf kimi təhsilalanların iştirak etməsi zəruri hal alır. Hazırda təhsilalanların hüquq və azadlıqlarının getdikcə daha böyük əhəmiyyət kəsb etməsi, eyni zamanda təhsil müəssisələrinin getdikcə publik hüquqi şəxs statusu al-

ması onların təhsilalanları müştəri kimi qəbul edib məmnun olmaları üçün müxtəlif istiqamətlərdə tədbirlər görməyəvadar edir.Bəhs edilən tədbirlərin görülməsi üçün müəyyənedici faktor kimi akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi nəticələri çıxış edir. Bu baxımdan akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsinə dair aparılan bu araşdırma praktiki baxımdan böyük əhəmiyyət daşıyır. Təhsil müəssisələri hər semestrin sonunda bu qiymətləndirməni aparmaqla akademik heyətin tədris fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə, təhsilalanların məmnuniyyətinin yüksəldilməsinə, bunun nəticəsi olaraq da qəbul plan yerlərinin maksimum dərəcədə doldurulmasına, müştəri sədaqətinin yüksəldilməsinə, təhsil müəssisəsinin cəmiyyətdə nüfuzunun artırılmasına nail ola bilərlər.

## 2. ARAŞDIRMANIN HİPOTEZLƏRİ

Araşdırmanın ana hipotezi aşağıdakı kimi müəyyən edilmişdir:

**Ana hipotez:** Akademik heyətin tədris fəaliyyətinin keyfiyyəti ona təsir göstərən faktorlardan asılı olaraq fərqlilik göstərir.

Araşdırmanın törəmə hipotezləri isə aşağıdakı kimi müəyyən edilmişdir:

**H1:** Fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**H2:** Tədris prosesində akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatları tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**H3:** Akademik heyətin pedaqoji ustalığı tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**H4:**Professor-müəllim heyətinin akademik göstəriciləri (elmi dərəcəsi,elmi adı və vəzifəsi) tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**H5:** Akademik heyətin yaşı tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**H6:** Akademik heyətin cinsiyyəti tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

## 3. ARAŞDIRMANIN ƏHATƏ DAİRƏSİ VƏ EHTİMALLARI

Araşdırmanın Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və mülkiyyət formasından asılı olmayaraq bütün ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan təhsilalanlar arasında aparılması qərara alınmışdır. Araşdırma qrupuna ali və orta ixtisas təhsilinin bütün pillələrində təhsil alan təhsilalanlar daxil edilmişdir. Tədqiqatın pilot mərhələsində araşdırma qrupunda 73 nəfər təhsilalan iştirak etmişdir. Cavablandırılan anketlərin hamısı yararlı olmuşdur.

Bu araşdırma akademik heyətin tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərən faktorları ehtimal edərək aparılmışdır.

## 4. ARAŞDIRMANDAKI MƏHDUDİYYƏTLƏR

Araşdırma xidmət sektoruna aid olub təhsil sektorunda aparılmışdır. Araşdırma vaxt və maddi imkanlar nəzərə alınaraq ali və orta ixtisas təhsili müəssisələri ilə məhdudlaşdırılmışdır.

Araşdırmanın ana kütləsini Azərbaycan Respublikasının sərhədləri daxilində fəaliyyət göstərən və mülkiyyət formasından asılı olmayaraq bütün ali və orta ixtisas təhsili müəssisələri təşkil edir. Lakin anketin praktiki baxımdan tətbiqində istər vaxt, istər resurs, istərsə də respondentlərlə əlaqə saxlamağın çətinliyinə görə sorğu bu sektorda fəaliyyət göstərən 3 (üç) Universitetin təhsilalanları arasında reallaşdırılmışdır.

Toplanan məlumatlar və aparılan təhlillər sadəcə araşdırmanın aparıldığı vaxtı və bu 3 Universiteti təmsil edir. Bunun bütün ali və orta ixtisas təhsili müəssisələrini təmsil etdiyi qəbul edilir.

Eyni zamanda araşdırma təhsil sektorunda fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri ilə mədudlaşır.

## 5. ARAŞDIRMA MODELİ VƏ DƏYİŞƏNLƏRİ

Problemə baxış tərzinə görə araşdırma tətbiqi araşdırma hesab edilir. Buna görə də səbəb-nəticə əlaqəli araşdırmamodelindən istifadə edilmişdir. Bu araşdırma modeli vasitəsilə tədris prosesinin keyfiyyətinə təsir göstərən faktorlardan asılı olaraq təhsilalanların fikir və düşüncələrinə görə tədris fəaliyyətinin qiymətləndirilməsinə təsir göstərən faktorlar müəyyən edilməyə çalışılmışdır.

Tərtib edilən araşdırma modeli aşağıda qeyd edilmişdir. Burada akademik heyətin tədris fəaliyyəti sərbəst dəyişən, ona təsir göstərən faktorlar isə asılı dəyişənlər kimi qəbul edilmişdir.

**AKADEMİK HEYƏTİN TƏDRİS FƏALİYYƏTİNƏ TƏSİR GÖSTƏRƏN FAKTORLAR** → **AKADEMİK HEYƏTİN TƏDRİS FƏALİYYƏTİ**

## 6. ARAŞDIRMANIN BAŞVƏ SEÇMƏ TOPLUSU

Araşdırmanın tədqiqat obyektini mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün ali və orta ixtisas təhsili müəssisələri təşkil edir. Bunlardan 51-iali təhsil müəssisəsi (o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələri 20 [10],digər nazirlik və komitələrin tabeliyində olan ali təhsil müəssisələri 12 [11], özəl ali təhsil müəssisələri 12 [12], xüsusi təyinatlı ali təhsil müəssisələri 7 [13], 51-i isə orta ixtisas təhsili müəssisələridir [14].

Araşdırma nəticəsində əldə edilən məlumatlar təhsil müəssisələri və təhsilalanlar baxımından iki yerə ayrılır. Bunlardan təhsil müəssisələri baxımından biri orta ixtisas təhsili müəssisələri, digəri isə ali təhsil müəssisələridir. Təhsilalanlar baxımından isə hər iki kateqoriya daxil olan təhsil müəssisələrində orta ixtisas, bakalavr və ali təhsildən sonrakı təhsili alan təhsilalanlardır.

Araşdırmanın baş toplusuna Azərbaycanın təhsil sektorunda fəaliyyət göstərən 102 ali və orta ixtisas təhsili müəssisəsində 2017-2018-ci tədris ilinin əvvəlinə təhsil alan 215079 təhsilalan təşkil edir. Bunlardan 47402 nəfəri orta ixtisas təhsili müəssisələrində, qalan 167677 nəfəri isə ali təhsil müəssisələrində təhsil alan şəxslərdir [15]. Təsadüfi seçmə üsulu ilə seçilmiş 3 təhsil müəssisəsində təhsil alan 74 təhsilalan təşkil edir. Araşdırma anketinin hamısı anonim şəkildə elektron formada doldurulmuşdur.

## 7. MƏLUMATLAR, ONLARIN ÖLÇÜLMƏSİ VƏ TOPLANMASI

Araşdırmada istifadə olunan məlumatlar subyektiv rəylərə əsaslanan məlumatlardır. Bu məlumatlar anketi cavablandıran təhsilalanların mövzu ilə bağlı subyektiv fikirlərini əks etdirir.

Pilot mərhələdə məlumatların mənbəyini 3 (üç) təhsil müəssisəsində müxtəlif təhsil proqramları üzrə təhsil alan 74 təhsilalan təşkil edir. Məlumat mənbəyi kimi bu şəxslərin seçilmə-

sinin əsas məqsədi bütün təhsil proqramlarında təhsil alantəhsilalanların anketin cavablandırılmasında iştirakının təmin edilməsi olmuşdur.

Araşdırma zamanı istifadə olunan bütün məlumatlar dolayımühakimə metodu vasitəsilə ilk mənbədən əldə edilmişdir. Məlumatların toplanması üçün beş şkalalı Likərt anket sorğusundan istifadə edilmişdir. Anket sorğusu hazırlanarkən sualların həm asan və sürətli şəkildə cavablandırılmasına, həm də dolayı ölçmə metodu istifadə edildiyinə görə real təhlil zamanı doğru nəticələr əldə etmək üçün dəyişənləri müəyyənləşdirərkən lazımi səy göstərilmişdir.

Tədqiqat anketi 5 (beş) hissədən ibarətdir. Birinci hissədə tədris fəaliyyəti qiymətləndirilən müəllim haqqındakı məlumatları əks etdirən suallara yer verilmişdir. Buraya tədris fəaliyyəti qiymətləndirilən müəllimin adı, soyadı, atasının adı, işlədiyi təhsil müəssisənin adı, müəllimin elmi dərəcəsi, elmi adı, təhsil müəssisəsində tutduğu vəzifə, müəllimin yaşı, cinsiyyəti, tədris etdiyi fənnlər, qiymətləndirmənin aparıldığı tədris ili və qiymətləndirmədövrü ilə bağlı suallar aiddir.İkinci hissədə təhsilalanlar haqqındakı məlumatlaryer almışdır. Buraya təhsilalanın təhsil səviyyəsi, təhsil aldığı fakültə (şöbə, mərkəz və ya institut) adı, ixtisası, qrupu, yaşı, cinsiyyəti və ailə vəziyyəti ilə bağlı suallar daxil edilmişdir. Üçüncü hissə akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edən tədris fənni üzrə proqramın qiymətləndirilməsi ilə bağlı sualları əhatə edir. Buraya daxil olan suallar tədris olunan fənn üzrə tədris proqramı ilə bağlı bütün məsələləri özündə ehtiva edir. Dördüncü hissəyə tədris vəsaitləri və ləvazimatlarının qiymətləndirilməsi ilə bağlı suallar daxildir. Beşinci hissəyə isə akademik heyətin pedaqoji fəaliyyətinin qiymətləndirilməsinə dair suallar daxil edilmişdir. Bu hissədə yer alan suallar da professor-müəllim heyətinin pedaqoji fəaliyyətinin bütün tərəflərini özündə əks etdirir.

## 8. MƏLUMATLARIN İŞLƏNİLMƏSİ VƏ EMALI

Araşdırma nəticəsində toplanan məlumatlar redaktə edilmiş, kodlaşdıırlmış, məlumatların düzgünlüyü yoxlanılmış və səhvlər düzəldilərək bilgisayara daxil edilmişdir.

Bilgisayara daxil edilmiş məlumatlar araşdırmanın məqsədləri çərçivəsində SPSS 23 (Statistical Package for the Social Sciences) programıvasitəsilə emal edilmişdir. Məlumatların emalı zamanı araşdırmada Frekans, Faktor, Cronbach's alpha, Parametrik hipotez testleri, T-Testi (Independent-Sample T-Test), Tək tərəfli anova analizi (One Way Anova Analise), Ki-Kare Testi, Mann-Whitney U Testi, Kruskal-Wallis H Testi, Spearman’s Rank Order Korrelasiyası, Shapiro-Wilks Normality Testi kimi təhlil metodlarından istifadə edilmişdir. Əldə olunan məlumatlar “Nəticələrin təsviri və izahı”bölməsində geniş şərh edilmişdir. Araşdırmadaki bütün tapıntılar $p < 1$ və $p < 0,05$əhəmiyyətlilik dərəcəsində və ikitərəfli yoxlanılmışdır.

## 9. NƏTİCƏLƏRİN TƏSVİRİ VƏ İZAHI

Anketdə tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin və respondentlərin demoqrafik xüsusiyyətlərinə diqqət yetirsək, sorğuda iştirak edən repondentlərin 5(7%) nəfərinin Azərbaycan Dillər Unversitetində, 18 (26%) nəfərinin Azərbaycan Dövlət İqtisad Unversitetində, 45 (64%) nəfərinin Bakı Mühəndislik Unversitetində, 2(3%) nəfərin isə Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil aldığınıgörərik. Anketdə tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin yaş aralıqlarına diqqət yetirsək, akademik heyətin 6 (8%) nəfərinin 25-30 yaş arasında, 53 (75%) nəfərinin 31-35 yaş arasında, 2 (3%) nəfərinin 36-40 yaş arasında, 4 (6%) nəfərinin 41-45 yaş arasında, 1 (1%) nəfərinin 46-50 yaş arasında,

3(4%) nəfərinin 51-55 yaş arasında, 2 (3%) nəfərinin isə 60 və daha çox yaşda olduğunu görərik. Hazırda fəaliyyət göstərən professor-müəllim heyətində 31-35 yaş arasında gənc kadrların çoxluq təşkil etdiyi analiz nəticəsində müəyyən olunmuşdur.

Anketdə tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin cinsiyyətinə nəzər salsaq, 66 (93%) nəfərinin kişi, 5 (7%) nəfərinin isə qadın olduğunu görərik. Bundan başqa, tədris fəaliyyətiqiymətləndirilən professor-müəllim heyətinin elmi adı da müəyyənləşdirilmiş və 10 (14%) nəfərindosent, 5 (7%) nəfərinprofessor, 56 (79%) nəfərin isə elmi dərəcəyə sahib olmadığı aşkar olunmuşdur. Həmçinintədris fəaliyyəti qiymətləndirilən akademik heyətin elmi dərəcəsinin analizi zamanı 49 (70%) nəfərinfəlsəfə doktoru, 12 (17%) nəfərin elmlər doktoru, 9 (13%) nəfərinisə magistr elmi dərəcəsinə malik olduğu müəyyən edilmişdir.

**Cədvəl 9.1:** Demoqrafik göstəricilərin analizi

| Demoqrafik göstəricilər | Alt qruplar | Sayı (işçi sayı) | % (Ümumi işçi sayında çəkisi) |
|---|---|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dillər Unversiteti | 5 | 7 % |
| | Azərbaycan Dövlər İqtisad Unversiteti | 18 | 26% |
| | Azərbaycan Dövlət Dəniz Akademiyası | 2 | 3% |
| | Bakı Mühəndislik Unversiteti | 45 | 64% |
| Müəllimin elmi dərəcəsi | Fəlsəfə doktoru | 49 | 70% |
| | Elmlər doktoru | 12 | 17% |
| | Magistr | 9 | 13% |
| Müəllimin elmi adı | Dosent | 10 | 14% |
| | Professor | 5 | 7% |
| | Yoxdur | 56 | 79% |
| Müəllimin yaşı | 25-30 | 6 | 8% |
| | 31-35 | 53 | 75% |
| | 36-40 | 2 | 3% |
| | 41-45 | 4 | 6% |
| | 46-50 | 1 | 1% |
| | 51-55 | 3 | 4% |
| | 60 və daha çox | 2 | 3% |
| Müəllimin tədris etdiyi fənn(lər) | Mədəniyyət romanı fenemologiyası | 1 | 1,2% |
| | Diskret riyaziyyat | 1 | 1,2% |
| | Ekonometriya | 2 | 2,4% |
| | Ədəbiyyatda psixoanaliz | 5 | 6% |
| | Hüquq | 1 | 1,2% |
| | İctimaiyyətlə əlaqələr | 1 | 1,2% |
| | İdarəetmə nəzəriyyələri | 18 | 21,5% |
| | İqtisadi təlimlər tarixi | 1 | 1,2% |
| | İnsan resurslarının idarə edilməsi | 5 | 6% |
| | İnvestisiya analizi | 1 | 1,2% |
| | Marketing menecmenti | 1 | 1,2% |
| | Menecment | 9 | 10,7% |
| | Mikroiqtisafiyyat | 1 | 1,2% |
| | Milli muhasibat uçotu | 1 | 1,2% |
| | Müasir ədəbiyyatda mif | 3 | 3,6% |
| | Mühəndis qrafikası | 1 | 1,2% |
| | Riyaziyyat | 1 | 1,2% |
| | Təşkilatlarda davranış | 30 | 35,7% |
| | Vergi | 1 | 1,2% |
| Müəllimin cinsiyyəti | Kişi | 66 | 93% |
| | Qadın | 5 | 7% |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmənin aparıldığı tədris ili** | 2015-2016 | 3 | 4% |
| | 2016-2017 | 68 | 96% |
| **Qiymətləndirmənin aparıldığı dövr** | Payız semestri | 66 | 93% |
| | Yaz semestri | 5 | 7% |
| **Respondentlərin təhsil səviyyəsi** | Orta ixtisas təhsili | 1 | 1,4% |
| | Ali təhsil (bakalavriatura) | 35 | 49,3% |
| | Diplomdan sonrakı hazırlıq (stajkeçmə, ordinatura, magistratura, doktorantura) | 35 | 49,3% |
| **Respondentlərin oxuduğu kurs** | I kurs | 29 | 40% |
| | II kurs | 26 | 37% |
| | III kurs | 4 | 6% |
| | IV kurs | 4 | 6% |
| | V kurs | 8 | 11% |
| **Respondentlərin cinsiyyəti** | Kişi | 40 | 56% |
| | Qadın | 31 | 44% |
| **Respondentlərin ailə vəziyyəti** | Evli | 5 | 7% |
| | Subay | 66 | 93% |

Anketin etibarlılığı etibarlılıq analizi vasitəsilə sınanmışdır. Analiz nəticəsində anketin etibarlılığı 0 ilə 1 rəqəmi arasında qiymətləndirilir və bu **Cronbach's Alpha** əmsalı adlandırılır. **Cronbach's Alpha** əmsalındanasılı olaraq anketin etibarlılığı aşağıdakı kimi şərh oluna bilər:

- $0,00 \leq \alpha < 0,40$ arası anket etibarlı deyil;
- $0,40 \leq \alpha < 0,60$ arası anketin etibarlılığı aşağıdır;
- $0,60 \leq \alpha < 0,80$ arası anket olduqca etibarlıdır;
- $0,80 \leq \alpha < 1,00$ arası anket çox etibarlıdır.

Anketin **Cronbach's Alpha** əmsalı analiz nəticəsində 0,992 qiymətləndirilmişdir. Bu da anketin çox etibarlı bir anket olduğunu sübut edir.

**Cədvəl 9.2:** Anketin etibarlılıq analizi

| Cronbach's Alpha | Cronbach's Alpha Based on Standardized Items | N of Items |
|---|---|---|
| ,992 | ,993 | 86 |

### Normal paylanmaanalizi (Test of Normality)

Statistik analizlər aparılarkən dəyişənlər normal paylandığı təqdirdə parametrik testlər, normal paylanmadığıtəqdirdə isə parametrik olmayan testlər tətbiq edilir. Bu məqsədlə ilk növbədə toplanan bütün məlumatların normal paylanıb-paylanmadığını ölçmək üçün hipozetdən istifadə edilmişdir.

- Akademik heyətin tədris fəaliyyətinin keyfiyyətini analiz etmək ücün qurulan hipotez:

$H_0$: 95% əminliklə dəyişənlər normal paylanmışdır;
$H_1$: 95% əminliklə dəyişənlər normal paylanmamışdır.

Cədvəl 9.3-dəndə göründüyü kimi burada iki fərqli testin nəticələri əldə edilmişdir. Bunlardan biri "Kolmogorov-Smirnov", digəri isə "Shapiro-Wilk" testidir. Statistik analizlər aparılan zaman daha çox "Shapiro-Wilk" testi tətbiq edildiyinə görə bu araşdırmada da adı çəkilən testdən istifadə olunmuşdur. Burada "Shapiro-Wilk" testinin əhəmiyyətlilik dərəcəsi "**Sig.Level**" 0,05-dən kiçik olduğu üçün bütün qruplar üçün $H_0$ hipotezi qəbul edilmişdir, yəni bütün gruplar üçün 95% əminliklə normal paylanma müşahidə edildiyi təsdiq edilmişdir.

**Cədvəl 9.3:** Dəyişənlərin normallıq testi (Tests of Normality)

| | Kolmogorov-Smirnov[a] | | | Shapiro-Wilk | | |
|---|---|---|---|---|---|---|
| | **Statistic** | **df** | **Sig.** | **Statistic** | **df** | **Sig.** |
| | ,387 | 71 | ,000 | ,632 | 71 | ,000 |

a. **Lilliefors Significance Correction, Sig Level P< 0,05**

Cədvəl9.4-də fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktorların dəyəribaxımından "Mann Whitney U" testi aparılması zamanı fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdanəhəmiyyətli bir fərqlilik göstərdiyi müşahidə edilmişdir (U=1,700; z=-2,548; p=0,040).

"Mann Whitney U" testi əsasında əldə olunmuş nəticəyə əsasənfənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimistatistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə dəfənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi anlamlı bir fərqlilik əmələ gətirmişdir.

**Cədvəl9.4:** Fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəaliyyətinin keyfiyyətinə təsiri"Mann Whitney U" Testi

| Mann-Whitney U | Wilcoxon W | Z | Asymp. Sig. (2-tailed) |
|---|---|---|---|
| 1,700 | 31,500 | -2,548 | 0,040 |

Cədvəl 9.5-dən göründüyükimi"Kruskal-Wallis" testi əsasında əldə olunmuş nəticəyə əsasən fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi bir fərqlilik əmələ gətirmişdir [SD=29,242, p= 0, 00015485].

**Cədvəl 9.5:** Fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Kruskal-Wallis" Testi

| Tədris fəaliyyətinin keyfiyyətinə təsiri | SD | $X^2$ | P |
|---|---|---|---|
| Syllabusun tədris fəaliyyətinin keyfiyyətinə təsiri | 29,242 | 4 | 0,00015485 |

Cədvəl 9.6-dan göründüyü kimi "Kruskal-Wallis" testi əsasında əldə olunmuş nəticəyə əsasən tədris prosesində akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatlar tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də akademik heyətin tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [SD=27,801; p=0,002].

**Cədvəl 9.6:** Tədris prosesində akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatlarının tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Kruskal-Wallis" Testi

| Tədris fəaliyyətinin keyfiyyətinə təsiri | SD | $X^2$ | P |
|---|---|---|---|
| Tədris prosesində akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatları | 27,801 | 3 | 0,002 |

Cədvəl 9.7-dən göründüyü kimi "Kruskal-Wallis" testi əsasında əldə olunmuş nəticəyə əsasən akademik heyətin pedaqoji ustalığı tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də akademik heyətin tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [SD=34,173; p=0, 00011].

**Cədvəl 9.7:** Akademik heyətin pedaqoji ustalığının tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Kruskal-Wallis" Testi

| **Tədris fəaliyyətinin keyfiyyətinə təsiri** | **SD** | **$X^2$** | **P** |
|---|---|---|---|
| Akademik heyətin pedaqoji ustalığı | 34,173 | 4 | 0,00011 |

Cədvəl 9.8-dəngöründüyü kimi"Kruskal-Wallis" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin elmi dərəcəsinin tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktorlar statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də müəllimin elmi dərəcəsi tədris fəalliyətinin keyfiyyətinətəsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [SD=15,847, p=0,016].

**Cədvəl 9.8:** Müəllimin elmi dərəcəsinin tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Kruskal-Wallis" Testi

| **Tədris fəaliyyətinin keyfiyyəti** | **SD** | **X2** | **P** |
|---|---|---|---|
| Müəllimin elmi dərəcəsi | 15,847 | 3 | 0,016 |

Cədvəl 9.9-dan göründüyü kimi "Anova" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin elmi dərəcəsi tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də müəllimin elmi dərəcəsi tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [F=8,908; P=0,014].

**Cədvəl 9.9:** Müəllimin elmi dərəcəsinin tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Anova" TestiPP

| **Tədris fəaliyyətinin keyfiyyəti** | | **SS** | **SD** | **F Dəyəri** | **P** |
|---|---|---|---|---|---|
| Müəllimin elmi dərəcəsi | Qrup içi | 14,036 | 3 | 8,908 | 0,014 |
| | Qruplar arası | 39,420 | 66 | | |

Cədvəl 9.10-dan göründüyü kimi "Anova" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin elmi adı tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərməmişdir (p>0,05). Buna görə də müəllimin elmi adı tədris fəaliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirməmişdir [F=2,348; P=0,272].

**Cədvəl 9.10:** Müəllimin elmi adının tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Anova" Testi

| **Tədris fəaliyyətinin keyfiyyəti** | | **SS** | **SD** | **F Dəyəri** | **P** |
|---|---|---|---|---|---|
| Müəllimin elmi adı | Qrup içi | 3,289 | 2 | 2,348 | 0,272 |
| | Qruplar arası | 50,463 | 68 | | |

Cədvəl 9.11-dən göründüyü kimi "Anova" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin vəzifəsi tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərməmişdir (p>0,05). Buna görə də müəllimin vəzifəsi tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirməmişdir [F=2,429; P=0,073].

**Cədvəl 9.11:** Müəllimin vəzifəsinin tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Anova" Testi

| **Tədris fəaliyyətinin keyfiyyəti** | | **SS** | **SD** | **F Dəyəri** | **P** |
|---|---|---|---|---|---|
| Müəllimin vəzifəsi | Qrup içi | 29.838 | 3 | 2.429 | 0,073 |
| | Qruplar arası | 3.245 | 67 | | |

Cədvəl 9.12-dən göründüyü kimi"Kruskal-Wallis" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin yaşının tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də müəllimin yaşı tədris fə-

alliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [SD =19,221, p=0,035].

**Cədvəl 9.12:** Müəllimin yaşının tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Kruskal-Wallis" Testi

| Tədris fəaliyyətinin keyfiyyəti | SD | X2 | p |
|---|---|---|---|
| Müəllimin yaşı | 19,221 | 6 | 0,035 |

Cədvəl 9.13-dən göründüyü kimi"Anova" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin yaşı tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də müəllimin yaşı tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [F=5,749; P=0,028].

**Cədvəl 9.13:** Müəllimin yaşının tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Anova" Testi

| Tədris fəaliyyətinin keyfiyyəti | | SS | SD | F Dəyəri | P |
|---|---|---|---|---|---|
| Müəllimin yaşı | Qrup içi | 19,036 | 7 | 5,749 | 0,028 |
| | Qruplar arası | 34,716 | 63 | | |

Cədvəl 9.14-dəngöründüyü kimi"Anova" testi əsasında əldə olunmuş nəticəyə əsasən müəllimin cinsiyyətinin tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Buna görə də müəllimin cinsiyyəti tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi əhəmiyyətli bir fərqlilik əmələ gətirmişdir [F=8, 872; P=0,014].

**Cədvəl9.14:** Müəllimin cinsiyyətinin tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Anova" Testi

| Tədris fəaliyyətinin keyfiyyəti | | SS | SD | F Dəyəri | P |
|---|---|---|---|---|---|
| Müəllimin cinsiyyəti | Qrup içi | 13,827 | 3 | 8,872 | 0,014 |
| | Qruplar arası | 39,390 | 66 | | |

## TƏDQİQAT İŞİNİN MÜZAKİRƏSİ VƏ ONUN NƏTİCƏLƏRİ

SPSS proqramı vasitəsilə aparılan təhlillər sübut edir ki, ali və orta ixtisas təhsili müəssisələrində akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi üçün təklif edilən anket problemi ölçmək üçün uyğun və etibarlı bir anketdir.

Araşdırma nəticəsində məlum olmuşdur ki, fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir, çünki fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Bununla H1 hipotezinin doğruluğu öz təsdiqini tapmışdır. Bu nəticələrə əsaslanaraq deyə bilərik ki, ali və orta ixtisas təhsili müəssisələri tədrisin keyfiyyətini artırmaq istəyirsə, mütləq şəkildə akademik heyət tərəfindən hazırlanan və tədris prosesində istifadə edilən fənn üzrə tədris proqramlarının keyfiyyətinə xüsusi diqqət yetirməlidir.

Araşdırma zamanı məlum olmuşdur ki, tədris prosesində akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatları da tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir, çünki akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatlarınıntədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir (p<0,05). Bununla H2 hipotezinin də doğruluğu öz təsdiqini tapmışdır. Bu nəticələrə əsaslanaraq deyə bilərik ki, ali və orta ixtisas təhsili müəssisələrində tədrisin keyfiyyətinin artırılması zamanı akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatlarına da diqqət yetirmək lazımdır.

Araşdırmada akademik heyətin pedaqoji ustalığının da tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərdiyi məlum olmuşdur, çünki akademik heyətin pedaqoji ustalığınıntədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir($p<0,05$). Bununla H3 hipotezinindoğruluğu öz təsdiqini tapmışdır. Bu nəticələrə əsaslanaraq deyə bilərik ki, ali və orta ixtisas təhsili müəssisələri akademik heyətin pedaqoji ustalığının artırılması üçün insan resurslarının təliminə xüsusi diqqət ayırmalıdır.

Araşdırma zamanıprofessor-müəllim heyətinin elmi dərəcəsinin tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərdiyi də məlum olmuşdur, çünki akademik heyətin elmidərəcəsinintədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir($p<0,05$). Lakin müəllimin elmi adına nəzər yetirdiyimiz zaman müəllimin elmi adının və vəzifəsinintədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərməmişdir($p>0,05$). Bununla H4 hipotezinin birinci hissəsinin (elmi dərəcəsi) doğruluğu öz təsdiqini tapmış, ikinci hissəsinin (elmi adı və vəzifəsi) doğruluğu isə öz təsdiqini tapmamışdır.Bu nəticələrə əsaslanaraq deyə bilərik ki, ali və orta ixtisas təhsili müəssisələrində tədris prosesinə cəlb edilən əməkdaşların elmi dərəcəsinin olması xüsusi əhəmiyyət kəsb edir və təhsil müəssisələri bu amilə ciddi fikir verməlidirlər.

Araşdırma zamanı məlum olmuşdur ki, akademik heyətin yaşı da tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir, çünki akademik heyətin yaşınıntədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir($p<0,05$). Bununla H5 hipotezinin doğruluğu öz təsdiqini tapmışdır. Buradan belə bir nəticəyə gələ bilərik ki, yaşlı müəllimlərin tədris performansı cavan müəllimlərin tədris performansı ilə müqayisədə daha aşağı səviyyədə olur. Beləliklə, ali və orta ixtisas təhsili müəssisələri akademik heyətin yaşlanan üzvlərini daha çox elmi-tədqiqat işlərinə cəlb edib cavan üzvlərini isə daha çox tədris fəaliyyətinə cəlb etsələr, daha səmərəli olar.

Araşdırma zamanı akademik heyətin cinsiyyətinin də tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərdiyi müəyyən edilmişdir,çünki akademik heyətin cinsiyyətinin tədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir($p>0,05$). Bununla H6 hipotezinin də doğruluğu öz təsdiqini tapmışdır. Bu, qadın çalışanların ailə-məişət qayğılarını daha çox çəkməsi ilə izah oluan bilər. Görünür ailə-məişət qayğıları qadın cinsinə mənsub akademik heyətin bütün enerjisini tədris prosesinə sərf etməsinə müəyyən mənada mane olur. Bu problemi aradan qaldırmaq üçün təhsil müəssisələri ailə dostu məşğulluq siyasətlərinin hazırlanması və həyata keçirilməsi sahəsində ciddi tədbirlər görə bilərlər. Çünki elmi araşdırmalar nəticəsində sübut olunmuşdur ki, kişi və qadınlar arasında problem həll etmə, analitik düşünmə, mübarizə aparma, motivasiya, sosiallaşma və öyrənmə bacarıqları baxımından bir fərq yoxdur. Deməli, cinsiyyət faktorunun tədris fəaliyyətinin keyfiyyətinə təsiri ailə-məişət problemləri üzündən meydana gələ bilər.

Yuxarıda qeyd olunan nəticələrdən də göründüyü kimi tədqiqat zamanı ali və orta ixtisas təhsili müəssisələrində akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi meyarları düzgün müəyyən olunmuş və onların uyğunluğu və etibarlılığı təsdiq edilmişdir. Bu araşdırmanın elmi yeniliyi ondan ibarətdir ki, ali və orta ixtisas təhsili müəssisələri akademik heyətin tədris fəaliyyətinin keyfiyyətini ölçmək üçün elmi şəkildə hazırlanmış və etibarlılığı, uyğunluğu test edilmiş anket sorğusundan istifadə etmək imkanı əldə edəcəklər. Bununla hər semestrin sonunda təhsilalanlar arasında aparılan anket sorğusu vasitəsilə onlara tədris edilən fənnlərin nə dərəcədə keyfiyyətli tədris olunub-olunmadığı aşkar oluna-

caq və tədris ilinin sonunda bu məlumatlar əsasında dərs yükünün bölgüsü zamanı fənnlər üzrə ən uyğun akademik heyətin o fənnlərin tədrisinə cəlb edilməsi imkanı yaranacaq. Nəticədə təhsilalanların tədrisin keyfiyyətindən məmnuniyyət səviyyəsinin yüksəldilməsinə nail olunacaq ki, bu da qəbul imtahanlarında ali və orta ixtisas təhsili müəssisələrinin plan yerlərinin maksimum səviyyədə dolmasına gətirib çıxaracaq, sözügedən təhsil müəssisələrinin maliyyə imkanlarını artıracaq. Həmçinin akademik heyətin tədris fəaliyyətinin keyfiyyətini elmi şəkildə hazırlanmış anket sorğuları vasitəsilə ölçməyən digər ali və orta ixtisas təhsili müəssisələri ilə rəqabətdə bunu tətbiq edən təhsil müəssiələri üstünlük əldə edəcəklər. Çünki tədris fəaliyyətinin keyfiyyətini yalnız elmi şəkildə hazırlanmış və praktiki baxımdan istifadəyə yararlılığı təsdiq edilmiş anketlər vasitəsilə müəyyən etmək olar. Bu durum təhsil müəssisələri arasında rəqabətin də güclənməsinə şərait yaradacaqdır.

Hazırda Azərbaycan Respublikasında Azərbaycan Dövlət İqtisad Universitetində, Bakı Mühəndislik Universitetində və digər müəssisələrdə bu tip sorğular aparılır, lakin həmin sorğuların aparıldığı anketlər elmi şəkildə hazırlanmamışdır. Həmçinin anket sorğuları nəticəsində əldə olunan məlumatlar SPSS proqramının imkanlarından istifadə edilərək geniş şəkildə təhlil edilmir. Nəticədə akademik heyətin tədris fəaliyyətinin keyfiyyəti barədə əsaslı informasiyalar toplamaq mümkün olmur. Bu tədqiqat nəticəsində hazırlanan anket sorğusu bu kimi problemlərin aradan qaldırılmasına öz töhvəsini verəcəkdir.

**İSTİNAD ƏDƏBİYYATI**

1. Beril Durmuş, Murat Çinko, E. Serra Yurtkoru, **Sosyal Bilimlerde SPSS`le Veri Analizi,** 6. Baskı, Beta Yayınları, İstanbul, 2016.
2. Kemal Kurtuluş, **Araştırma Yöntemleri,** 1, Baskı, Türkmen Kitabevi, İstanbul, 2010.
3. Nizayi Karasar, **Araştırmalarda Rapor Hazırlama,** 18, Baskı, Nobel Akademik Yayıncılık Eğitim Danışmanlık Tic, Ltd, Şti,, İstanbul, 2014.
4. Nizayi Karasar, **Bilimsel Araştırma Yöntemleri,** 26, Baskı, Nobel Akademik Yayıncılık Eğitim Danışmanlık Tic, Ltd, Şti,, İstanbul, 2014.
5. Rauf Arıkan, **Anketler ve Anket Soruları,** 1, Baskı, Nobel Akademik Yayıncılık Eğitim Danışmanlık Tic, Ltd, Şti,, İstanbul, 2013.
6. Robert A, Day, **How to Write and Publish a Scientific Paper,** 4th Edition, Cambridge University Press, UK, 1994.
7. Rüfət Quliyev, **Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası,** 1-ci nəşr, Siyasət nəşriyyatı, Bakı, 1995.
8. Sabine Landau and Brian S. Everitt, **A Handbook of Statistical Analyses using SPSS,** 1st Edition,Chapman & Hall/CRC Press LLC, UK, 2004.
9. Türker Baş, **Anket: Nazıl Hazırlanır? Nasıl Uygulanır? Nasıl Değerlendirilir?** 7, Baskı, Seçkin yayıncılık San, Ve Tic, A,Ş,, Ankara, 2013.
10. http://edu,gov,az/az/page/339/613 (31.03.2018)
11. http://edu,gov,az/az/page/339/13465 (31.03.2018)
12. http://edu,gov,az/az/page/339/13466 (31.03.2018)
13. http://edu,gov,az/az/page/339/13467 (31.03.2018)
14. http://edu,gov,az/upload/file/Ali-ve-orta-ixtisas/orta-ixtisas-tm-siyahi,pdf (31.03.2018)
15. https://www.stat.gov.az/source/education/az/001_8_4-6.xls

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2019. Volume 3, Number 1* *Pages 15-24*

*UOT: 658.01.46*

# İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ƏSAS STATİSTİK GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ ANALİZİ (2000 - 2015-Cİ İLLƏR)

**Cahid MƏMMƏDOV**
Bakı Mühəndislik Universiteti
*cmammadov@beu.edu.az*

**XÜLASƏ**

İqtisadi Əməkdaşlıq Təşkilatı 1985-ci ildə Türkiyyə, İran və Pakistan tərəfindən regionun əhalisi üçün davamlı sosial-iqtisadi inkişafı təmin etmək məqsədi ilə qurulmuşdur. SSSR-nin süqutundan sonra bu təşkilata Azərbaycan daxil yeddi post sovet respublikası da qoşulmuş və üzv sayısı ona yüksəlmişdir. Regional iqtisadi bir təşkilatı dəyərləndirmək üçün onun əsas iqtisadi göstəricilərinə baxmaq kifayətdir. Bu məqsədlə məqalədə təşkilatın əsasən 2000 və 2015-ci illər ərzində olan əhalisi, ÜDM, adambaşına düşən ÜDM, əmək bazarı və işsizlik, tədiyyə balansı, birbaşa xarici investisiya, xarici borc və insan inkişafı indeksi müqayisəli təhlil edilmişdir.

**Açar sözlər:** İqtisadi Əməkdaşlıq Təşkilatı, ECO ÜDM, ECO Xarici Borc, ECO insan inkişafı indeksi.

**COMPARATIVE ANALYSIS OF THE KEY STATISTICAL INDICATORS OF THE ECONOMIC COOPERATION ORGANIZATION (2000-2015)**

**ABSTRACT**

The Economic Cooperation Organization was established in 1985 by Turkey, Iran and Pakistan to ensure sustainable socio-economic development for the region's population.Following the collapse of the USSR, seven post-Soviet republics, including Azerbaijan, joined the organization and its membership increased up to 10 members.To evaluate a regional economic organization, it is enough to look at its key economic indicators.For this purpose, the article comparatively analyze the organization's population, GDP and GDP per capita, labor market and unemployment, trade balance, foreign direct investment, foreign debt and human development index for the period of 2000 and 2015.

**Keywords**: Economic Cooperation Organization, ECO GDP, ECO Foreign Debt, ECO Human Development Index.

**СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ОСНОВНЫХ СТАТИСТИЧЕСКИХ ПОКАЗАТЕЛЕЙ ОРГАНИЗАЦИИ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА (2000-2015)**

**АННОТАЦИЯ**

Организация экономического сотрудничества была основана в 1985 году Турцией, Ираном и Пакистаном для обеспечения устойчивого социально-экономического развития населения региона. После распада СССР к этой организации присоединились семь постсоветских республик, включая Азербайджан, и ее членский состав увеличился до 10 . Чтобы оценить региональную экономическую организацию, достаточно взглянуть на ее ключевые экономические показатели. С этой целью в статье проведен сравнительный анализ численности населения организации, ВВП и ВВП на душу населения, рынка труда и безработицы, торгового баланса, прямых иностранных инвестиций, внешнего долга и индекса человеческого развития за период 2000 и 2015 годов.

**Ключевые слова**: Организация экономического сотрудничества, ВВП ОЭС, внешний долг ОЭС, Индекс человеческого развития ОЭС.

## Giriş

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) 460 milyondan çox əhalisi və 8 milyon kvadrat kilometrdən çox ərazisi olan Rusiyanı Fars körfəzi, Çini Avropaya birləşdirən Avropa, Qafqaz, Orta Asiya, Yaxın Şərq və Cənubi Asiya ölkələrini əhatə edən hökumətlərarası regional bir təşkilatdır. Təşkilatın əsas məqsədi üzv ölkələrin və bütövlükdə bölgənin davamlı iqtisadi inkişafıdır.

1964-cü ildə ilk olaraq İran, Pakistan və Türkiyə tərəfindən İnkişaf üçün Regional Əməkdaşlıq (RCD) təşkilatıolaraq qurulsa da, 1985-ci ildə adı "ECO" olaraq dəyişdirilmişdir.1992-ci ildəyəni Sovet İttifaqının dağılmasından sonra Əfqanıstan İslam Respublikası və altı keçmiş Sovet respublikaları -Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Tacikistan Respublikası, Türkmənistan və Özbəkistan Respublikası da- təşkilata üzv olmaqla təşkilat Asiyada və dünyada ən böyük regional bloklardan birini təşkil etmişdir.

Son üç onillikdə ECO-ya üzv dövlətlər ümumi səyləri ilə regional inkişaf tempini sürətləndirmək üçün əməkdaşlıq edirlər. [1, səh.5]

Azərbaycanın da üzv olduğu bu təşkilat haqqında əsas sosial-iqtisadi məlumata sahib olmaq üçün məqalədə təşkilatın demoqrafik profili, ümumi daxili məhsulu (ÜDM), adambaşına düşən ÜDM, əmək bazarı və işsizlik, tədiyyə balansı, birbaşa xarici investisiya (BXİ), xarici borc, insan inkişafı indeksi (İİİ) haqqında cədvəllər tərtib edilərək, müqayisəli təhlil aparılmışdır. Məqalədə əsasən internet resurslarından, xüsusilə Dünya Bankının məlumat bazasından istifadə edilmişdir.

Aşağıdakı cədvəldə təşkilat haqqında 2000 və 2015-ci illəri əhatə edən ümumi məlumat verilmişdir.

| **Göstərici** | **2000** | **2015** | **Qeyd** |
|---|---|---|---|
| **Təşkilat haqqında** | | | |
| Üzv dövlətlərin sayı | 10 | 10 | |
| Ərazisi (mln km²) | 8 (təxmini) | 8 (təxmini) | |
| Əhalisi (mln nəfər) | 350 | 458 | İllik 1,8 faiz artım |
| Dünya əhalisindəki payı (%) | 5,73 | 6,23 | 0,50 faizlik artım |
| **İqtisadi göstəricilər** | | | |
| **ÜDM** | | | |
| Nominal (ABŞ mln $) | 495,033 | 1,795,266 | İllik 8,97 faiz artım |
| Alıcılıq qabiliyyəti pariteti (ABŞ mln $) | 2,401,581 | 4,604,084 | İllik 4,43 faiz artım |
Still, while assessing informal economy many scientists often tend to resort to comparative research methodology, such as calculation of relationship and share of two marginal values (GDP produced vs taxes paid), or using Foreign Direct Investment (FDI) indicators, "tax morale". As per the report of Schneider, informal economy accounted for critical share 52% in GDP, the biggest half of the overall domestic production and mostly took place by double accounting and tax evasion. [19]

Population growth and natality are also important factors to identification acceptable level of informal economy in the country. For more real prognosis, share of youth in overall labor force can be used in report. For this, years, in which population is doubled needs to be calculated and according to this amount and possibility to create jobs should be considered. In case the number of jobs forecasted is less than the natural population growth, mechanisms supporting informal economy should be implemented to overcome youth unemployment challenges.

Often, data obtained from national or regional reports compiled by Transparency International are also used to identify reasons and root cause of informal activities. The most popular ones are assessment of informal economy by using Cash outside the banking system, Gross Domestic Product, Inflation rate, different Tax Variables (Taxes on Products, Taxes onServices).

Within the current research quantitative data is based on marginal analysis and public reports from ILO and World Bank and statistics of other international organizations, however there was an attempt to identify impact of informal economy to social, environmental and economic conditions, which being collected together predetermine sustainable development.

A petite survey was held within a group of ten people with the purpose to identify main characteristics of informal economy and reasons people are taking informal activities.

Main purpose of the survey was to obtain answers to the following questions:

1. Is informal economy a barrier for sustainable development of country's economy
2. Should it be suppressed or encouraged

The surveyors were not limited by sexual or national characteristics, as well as age range, however, geographical limitation was to a group living in urbanised Baku (capital of Azerbaijan) and involved into legal informal activities and had comparatively normal life conditions.

The majority were employed without any contractual documents, with good working conditions, majority had permit to work and every person had at least secondary education.

However, when it comes to social guarantee and benefits parts, none of respondents had any social or medical insurance provided by the employer.

Some employees were involved into projects and therefore didn't receive any remuneration; others acknowledged they have being received salary 10 times higher than minimal and 3 times higher than average salary in Azerbaijan.[20]

Most of the respondents were involved in provision of services, - retailers, teachers, and babysitters, however there were people who created projects and ran businesses and social enterprises. Among surveyors the majority belonged to two age ranges – 22-25 aged and older than 48. Due to the type of job related to provision of services rather than production of goods, their activities do not carry any danger to the environment.

The last question given to the respondents was in order to identify the reason and motivation to involvement into shadow activities. For those, who were hired on informal circumstances, the main purpose was to earn money and reduce poverty. For those, who ran their own business, besides earning money, it was an opportunity to get real working experience or additional activity to involve oneself.

According to their interview, the main reasons for avoiding formal jobs were labour rigidities, time-consuming procedures, high costs of operating formally, burden of administrative duties and regulatory afflictions, institutional quality (lack of reliability to govern structures and conviction the market segments are occupied by monopolies or oligopolies), which by the way accounts for the largest share of cause variables to the size of the informal economy.[21]

In fact, What does it take to start a business in Azerbaijan? According to data collected by Doing Business, starting a business there requires 3.0 procedures, takes 5.0 days, costs 3.1% of income per capita and requires paid-in minimum capital of 0.0% of income per capita.

So, it means that all of the respondents, who owned business, either:

- Didn't know about the terms of starting business in Azerbaijan – evidence of lack of knowledge and training in economic sphere, or
- Procedures differ from reality and there is no trust to govern structures-proof of corruption and non-transparency

Taking into account that at least 30 per cent of labour force in our country as per statistical data from 2011 is occupied in informal economy, we can say that either these people don't rely on the government or advantages of their occupation in informal economy is higher than disadvantages.

So, current survey results showed informal economy as an additional channel supporting formal economy to convey poverty reduction strategies and reach socio-economic equity, however the efforts should be applied to strengthen social and health guarantees for these jobs. Informal legitimate economy doesn't differ from formal economy in means of environmental pollution.

Proposal regarding informal economy policies for sustainable growth

As stated in previous section, there are many methods used to estimate informal economy and, also, informal economy identification requires consideration of many factors under

which national economy can develop. There is no a single formula for a model of economy with ideal share of informal economy which would support sustainable development.

Depending on level of development, political and administrative system, population growth and level nation adolescence, wealth by natural resources and other factors, best models of informal economies differ from country to country. Deep analysis should be undertaken on reasons caused informal economy and results brought by it in order to suggest clear-cut state programs.

Theory of games and probability theory can be used to choose proposals which balance formal and informal activities in the society – in this case priority is given to formal activities until full capacity of formal labour market, after that unemployed economically active population can be involved into reported informal activities with support of government.

To find best model, we need carefully set up the priorities for sustainable development in each particular country, because, as already mentioned, sometimes some goals (even Millennium Development Goals) may contradict each other and we need to make a decision regarding alternative choice.

Govern measures should include support of informal economy; restriction of illegitimate informal sector, international partnership in this sphere and informative actions on sharing news, providing awareness sessions etc.

Increased governance and policy framework development, skill development and business support; technology improvement and support of innovative green projects, green jobs promotion and support of environmental clean-up, climate change mitigation and adaptation activities; green industry-led initiatives; financial incentives and social benefits play a substantial part for sustainable development with permissible share of informal economy with required guarantees and given values.

All the activities, taken by government in this direction, can be grouped by:

1. Increase of Formal Labour Market

a. In green sectors by:

i. Creating green jobs

ii. Encouraging people by awareness sessions and promotional events and actions

iii. Providing tax exemptions for green workers

Calls for subsidies for green producers and depreciation or tax free policy for the enterprises with low income

b. In other sectors by:

Reconsidering minimal wage as per the basket of goods and that amount should be exempted from taxation

Increase number of jobs in formal sector and diversify labour market by adding new jobs (desirably, green jobs)

Increase motivation of employees in getting formal jobs as well as freedom to tell about right vigilance

2. Support Legitimate Informal Sector

a. Legislative framework to support grey economies

b. Financial incentives for registered informal economies under certain circumstances

c. Help with provision of social guarantees

d. Setting minimum for working conditions and social security are important

3. Suppress Illegitimate Informal Sector:

a. Set a clear list of illegal actions and strictly differentiate illegal informal activities from legal shadow economies.

b. Set sanctions for illegal activities

Infrastructural, marketing and technological barriers of informal economy should be overcome. We need to remember that in the society with lack of transparency formal jobs can give no more guarantees than informal and here is the challenge to restrict the system to more transparent and acquire reputation by following transparency and anti-corruption principles and strategies. Simultaneously, environmental protection and clean production systems control and management should be strengthened by relevant state agencies. The transparency of the economy very much determines successfulness of results of green project implementation in the country. Wisely developed institutional framework increases belief in the justice in the country and brings to interest to green production, and support of green producers and consumers can be a driving force for naturally formalization and reporting of the producers. There should be provided some motivation and benefits for people to apply formalization into live as at this moment legislation issues mean for business extra work, extra time, extra monitoring and audit, extra money.

Another key factor for building strong infrastructure and achieving long-term development goals is partnership building. Public administrations have to establish strong partnerships with SMEs, private sector, as well as different international organizations for bilateral support and share.

International cooperation is one of the main resources to get support and help for guarantees to informal economy. For the last two decades, due to efforts of trade union movement, development agencies, different non-governmental organizations and other institutions ILO recognized labour laws and rights for informal workers as well. And, most important is that informal workers themselves are becoming more organised, visible and vocal in claiming their rights, good working conditions and revenues. Some examples of such unions might be SEWA (Self-Employed Women's Association, India), ICFTU, AIW (Indian Waste pickers), KKPKK, SWaCH (Solid Waste Collection and Handling), MNCR (BrasilianWastepickers), etc. Nowadays, informal workers are arranged in different forms, such as trade unions, membership-based organizations or MBOs, co-operatives, self-help groups and other forms of organisation. Informal workers' organisations are also varied by geographical position, ranging from small local organisations, to national organisations, alliances, regional networks and associations, and different international organisational forms. An organized informal economy can be used as a development driver to fulfil sustainable goals like Millennium Development Goals, Poverty Reduction Strategies, and Green Economy. There are widely spread member-based organizations, or MBOs, which as per definition[1] "of the workers, by the workers, for the workers, and run, managed and

[1] Definition, given by SEWA

owned by the workers", MBOs focus on democracy, transparency, self-sustainability, "unity, solidarity and friendliness" of the members. MBOs include trade unions, cooperatives, and other forms of workers' associations.

In Azerbaijan – Confederation of Azerbaijan's Entrepreneurs had several projects with support of ILO in 2008, but the main aims of the confederation projects is to transfer informal sector to formal by using the entrepreneurs class.

National trade unions play a significant role in organising and representing informal economy workers. There are lots of unions and associations organized in informal economy in Africa and South and South-East Asia. Such a close cooperation between national union centres and informal workers' organisations significantly enhances informal workers' effectiveness in representation, defence of workers' rights, and international visibility and support, including

Public-Private Partnerships (PPPs) might have also a very important part in infrastructure development, by increasing trust and partnership between state agencies and SMEs, take off the barriers on the path towards sustainable development

Practice shows that educational background says its word with regard to work conditions and formal status of the employees, therefore educational improvement, skill development and professional training should be supported by relevant administrative units.

As already mentioned above, informal activities account for 31.5% of GDP. This means that Azerbaijan needs to be pushed to the soft way of development in order to be flexible to changes and proactive in case of unanticipated incidents.

Best model for sustainable growth and liquidation drawback of informal economy would be to fulfil living standards to the maximally possible capacity of labour market and work on making results of getting results of informal economy reported by supporting IE (informal economy). For a quite significant number of people government cannot satisfy people with jobs, there should be allowance to work on grey legitimate projects without harsh restrictions in order people can accept and see benefits of becoming formal.

Green economy can be exactly that area which can serve as the best field to apply these changes as it is already under close attention and support by local authorities in each country. So, green employment can be very supportive for formalization of informal activities by using support mechanisms without real drawbacks and barriers for all actors of economic transactions.

So, the main challenge for Azerbaijan today is to increase green economy and limit informal economy which leads economic and social life to crush. However, in case the state regulations support green economy, the system will automatically drive itself to increase of formal and limitation of informal economy activities.

Taking into account best examples of resource-efficient production a lot of financial, environmental and social tools can and should be used in Azeri economy. These include technology instruments, such as pollution control, waste and recycling management, cleaner production strategies, creation of Environmental Management Systems (EMSs), Green Supply Chain Management, life-cycle thinking and closed-loop production, synergies through Environmental Partnerships and eco-industrial parks; economical tools, including market-based instruments, taxes, eco-labelling, green subsidies and investments and use of

other financial tools, support of green research programs and implementation of innovative resource efficient technologies for new green industries and greening existing business units and other privileges to "green" producers and consumers.

In addition to strategic goals, there should be implemented tactic measures to achieve short-term goals in sustainable development by supporting informal economy as an additional source of occupation of unemployed people. Periodic review and monitoring can identify how far we are from prognoses.

As mentioned above, global cooperation is the key principle to be followed to achieve sustainable development. Being oil exporter and part of UN, World Bank and other international organizations, Azerbaijan is very dependent on international market as well as itself forms a ring of international trade chain, consequently actions in Azerbaijan and worldwide should be aimed on reaching common goals and targets.

Taking into account all above-mentioned, there is a very strong need in establishment of non-governmental organizations (NGO), independently created at the territory of Azerbaijan and accountable for control and monitoring of alternative energy development in Azerbaijan. The key objectives should include informal economy awareness and development of green workforce, as well as support of eco-innovations in Azerbaijan.

One major drawback of informal economy on sustainable development is the difficulty of reporting data which would reflect real situation regarding environmental situation, poverty extensiveness, and living standards.

However, development of green sector could provide a great support to reduction of informal activities in case of proper promotion of new green industries, especially in case of SMEs. Green industries do not need to be in shadow in order to economically sustain – international and national policy-making statements support producers of green goods and services using different tools and mechanisms, such as financial, social, informational etc. If government focus on developing and promoting green projects, these missions will become formal naturally for their own efficiency. Advantages and govern appreciation of green projects makes green producers transparent and open in their reports.

However, periodical (quarterly, mid-year, and annual) review is still required for proactive response on any demographic, economic, social, environmental, political changes.

So, in order to illustrate best model of formal and informal economy proportion for Azerbaijan in the coming years, the following figure can be used.




**Table1**. Govern Actions towards Informal Economy for Sustainable Development – Green Shadow Balance

## *Conclusion*

To conclude, Azerbaijan is a country with immense energy resources, however up to date oil and gas have been used for 97% of total energy production for internal consumption and export to international markets. Due to inappropriate technology use while oil mining processes ecological situation worsened a lot. Even though, there are still broad perspectives for Azerbaijan to overcome these environmental problems and become less dependent on oil and gas production by using renewable energy. This action is double beneficial for the economy and helps to reach two main goals: first, decrease dependency of Azeri economy from oil and gas production and trading and give opportunity for other sectors to develop, and on the other hand, helps to save few reservoirs untouched and improve environmental situation in Caspian ecosystem. However, at the same time a large share of informal activities in Azerbaijan does not allow to capture real economic and social, as well as environmental situation in the country. There are different reasons of informal economy with regard to the economic and political situation in the country. Also, consequences of informal economy vary from one country to another. Therefore detailed analysis is required in order to measure informal economy and propose optimal solutions with informal economy in state programs of sustainable development. When it comes to Azerbaijan, strict and rigid actions against informal economy in the country at this moment are not acceptable as due to a significant share of informal activities in the economy of Azerbaijan, this decision might lead to the crush of financial stability and increase poverty in the country. Increase of formal jobs, support of informal economy with social guarantees, strong infrastructure and capacity building, provision of legislative support as well as internal and international cooperation is vital for sustainable growth of Azerbaijan. If we look at these goals in time frame, we can select short-term and long-term objectives. Short-term aims include mainly scientific and market research and participation in communities for gathering, collecting, collaborating and sharing data and information. The actions are directed on mainly promotion and increase of awareness of informal economy among people. In terms of extended period goals relevant NGOs and organizations should be founded, and these would mainly be involved into support of informal workers, legislation basis and support for development, by using different encouraging tools for loan organizations and business structures. They should be linked to the related global organizations, dealing with similar issues in order to get and share experience and add Azerbaijan to the global market. Part of NGO activities should include report to relevant people and, I would like to specially mention, arrangement of trainings (through interconnection and negotiations with financial formations and educational centres, universities, sciences academy etc.) for advising sides of interest about informal economy legislation and sustainable development, tactics and strategy updates and affirming current status for Azerbaijan. Reforms with informal economy could be performed by several ways:

1. Creating new jobs in formal economy

2. Supporting informal economies politically, financially, socially and by other means, especially the ones, related to development of green economy by using different trainings, legislative acts and other encouraging tools.

Innovative techniques in face of economic and legislative tools can and should be implemented for these purposes. All of these require specialists, specially formed and developed

organizations and prepared materials, collected on basis of global experience. This requires global & domestic situation analysis, review of global challenges and investigation of possibility of their successful implementation in our republic. So, informal economy is under close attention of national and international organizations. Despite partial policy development and initial regulatory initiatives, important preparation and actions are required for making this transformation and improve future economic and ecological situation in Azerbaijan, and consequently, increase life quality of people. These actions include building and developing institutional background, industry-led initiatives, supporting eco-innovations and technological research, providing appropriate awareness and educational sessions and direct support of informal economy by using different economic, technological and social tools. To achieve resource efficiency by well-organized production and consumption, policy streams including industry, environmental and regional development policies encompassing technology development, resource conservation measures and provision of efficient local infrastructures, should be implemented. Appropriate research development, energy education and workforce are also important for achieving long-term sustainable development strategies.

**REFERENCES**


1. Journal: The Business Year, “Azerbaijan: On the Rise”, 2012
2. Article: East Invest, “Azerbaijan Alternative Energy”, 2012
3. Conference paper: AZERBAIJAN:Alternative and Renewable Energy – A Business Perspective Sponsored byECOTRADE S.A. May 2013
4. Book: The Global Outlook on SCP Policies UNEP (2012), Global Outlook on SCP Policies: taking action together. Page 162.
5. Book: Renewable energy strategy J.Malikov “2012 State Agency of Alternative and Renewable Energy Sources (ABEMDA)”
6. Conference paper: CASE (Civic Action for Security and Environment) Small Grants Programme CASE-AZERBAIJAN NATIONAL STRATEGY, December 2009, OSCE
7. Conference paper: In-Depth Review of the Energy Efficiency Policy of Azerbaijan ENERGY CHARTER SECRETARIAT 2013
8. Legal Act: Administrative Department of the President of the Republic of Azerbaijan PRESIDENTIAL Library - National Environmental Action Plan (NEAP) 1995
9. Article: http://www.az.undp.org/content/azerbaijan/en/home/operations/projects/sustain_development/renewable_energy/
10. Article: Resource efficiency Gains and Green Growth Perspectives in Azerbaijan, Naila Aliyeva October 2012
11. Article: http://www.azerbaijans.com/content_1706_ru.html
12. Article: http://www.oxfordbibliographies.com/view/document/obo-9780199874002/obo-9780199874002-0051.xml
13. Article: http://mospi.nic.in/informal_paper_04.htm
14. Book:RC-44 (Labor Movements) “Organising across the Formal-Informal Divide” XVII World Congress of Sociology, 11-17 July 2010, Gothenburg, Sweden.
15. Report:World Commission on Environment and Development’s (the Brundtland Commission) report Our Common Future (Oxford: Oxford University Press, 1987)
16. Book: Red Book of Azerbaijan Republic, First Edition was published in 1989: Plants:Buxushyrcana; Parrotia; Quércuscastaneifólia; Pyrushyrcana; Gleditsiacaspica; Acacia saligna; Álnuscordáta; Danaeracemosa; Ruscushyrcanus; Pinuseldarica; Rhododendron caucasicum; Hederapastuchowii; Gentianalagodechiana; Cladochaetacandidissima; Táxus; Platanusorientalis; Galanthuscaucasicus; Euonymus velutina; Astragalusnachitschevanicus; Quercussuber; Crocus caspius; Nymphaéa ; Parrotiapersica. Animals: Pheasant Talysh; black stork; Pelican; the Eagle; Cerna; argali sheep Caucasus; Eagle prairie; falcon; Borodach; Pelican pink; Flamingo; Forest cote; leopard; Transcaucasia mountain sheep; Transcaucasia fauna; Transcaucasia goose; fur

animals; steppes ordinary; Southern gophers; Triton ordinary; Triton comb; Caucasus Talha; Mediterranean tortoise; Boom-snake; Turov; argali sheep Caucasus; mountain goat

17. Journal: Modern African Studies, vol. 11, No. 1 (Mar 1973), pages 61-89
18. Research Paper: Caucasus and Central Asia (CCA), IMF Paper, 2008
19. Research Paper: Development in Eastern Europe and the South Caucasus, OECD 2011
20. Legal Act: Minimum Wage in Azerbaijan Republic as per Azerbaijan State Statistical Committee and Report of ILO (2011, Global Wage Report 2010/2011) is 105 AZN, or 100 USD
21. Research Paper: Measuring the Informal Economy in the Caucasus and Central Asia, Yasser Abdih and Leandro Medina, IMF Working Paper 2013

*2019. Volume 3, Number 1* *Pages 40-61*

*UOT: 336.1*

# OPTIMAL VERGI YÜKÜ VƏ AZƏRBAYCAN NÜMUNƏSINDƏ QIYMƏTLƏNDIRILMƏSI

**XUBANOVA Afət Sabir qızı, SÜLEYMANOV Elçin Bəhman oğlu**

Bakı Mühəndislik Universiteti
Bakı / AZƏRBAYCAN
*afet_xubanova@hotmail.com, elsuleymanov@beu.edu.az*

**XÜLASƏ**

Vergi gəlirləri fərdi ödəniş olaraq fərqli dövlət yetkililəri tərəfindən müxtəlif xidmətləri və fəaliyyətləri maliyyələşdirmək üçün fiziki və hüquqi şəxslərdən alınan əvəzsiz ödəmələrdir. Vergilərin qəbulu prosesi mövcud olan vergi qanunvericiliyi ilə tənzimlənir. Vergilərin ümumi həcmi onların formaları, metodları və prinsipləri, tətbiqi, dəyişdirilməsi və ləğvi prosesləri birlikdə dövlətin vergi sistemini əmələ gətirir. Vergi sisteminin eyni zamanda vergi siyasətinin yerinə yetirilməsi çox mürəkkəb bir sistemdir. Ümumiyyətlə vergilərdən qaynaqlanan yük biznes strukturlarına müsbət və mənfi təsir göstərə bilər. Dövlət müxtəlif səbəblərdən dolayı vergilər tətbiq edə bilər: bu insanların gəlirlərinin yenidən bölüşdürlməsi prosesi olduğu kimi eyni zamanda xarici iqtisadi təsirlərin qarşısının alınması da ola bilər. Vergi yükünün vergi ödəyicilərinə təsiri istər mikro, istərsə də makro səviyyədə nəzərdən keçirməsi actual bir mövzudur. Bu məqalənin məqsədi vergi yükü və onun konseptual məzmununun öyrənilməsi, həmçinin Azərbaycan nümunəsində tədqiqindən ibarətdir. Məqalədə Azərbaycanda vergi sistemində optimal vergi yükünün formalaşması, optimal vergi yükünün müəyyən edilməsi siyasəti və bu istiqamətdəki islahatlar öyrənilmişdir.

**Açar sözlər**. Vergi yükü, Optimal Vergi yükü, Azərbaycan Vergi Sistemi.

**АННОТАЦИЯ**

Налоговые поступления - это платежи от физических и юридических лиц для оплаты разнообразных услуг и видов деятельности различными государственными должностными лицами в виде индивидуального платежа. Процесс налогообложения регулируется действующим налоговым законодательством. Общий объем налогов, формы, методы и принципы, процессы применения, изменения и ликвидации образуют государственную налоговую систему.Одновременно осуществление налоговой политики является очень сложной системой. Как правило, налогооблажение может оказать как положительное, так и отрицательное влияние на бизнес-структуры. В силу различных причин государство может применить косвенные налоги: это может быть как новый процесс перераспределения доходов граждан, так и возможность предотвращения внешнеэкономических влияний. Влияние налогооблажения на налогоплательщиков является актуальной темой как на микро, так и на макроуровне.Основная цель данной статья– это изучение налогового бремени и его концептуального содержания, на основе его применения в Азербайджане.

**Ключевые слова**. Налоговая нагрузка, Оптимальная налоговая нагрузка, Налоговая система Азербайджана.

**ABSTRACT**

Tax is important and individually enforced contribution which is paid by people and organizations to government authorities from different levels in order to finance various activities of government. The process of receiving taxes is regulated by tax legislation. The total of taxes, also the forms, methods, and principles which are applied and rejected them form the tax system of government. The implementation of tax system and tax policy is very difficult process. Generally, tax burden possess positive and negative effects on business. Actually, government is able to impose taxes for different reasons: it can be redistribution of people's income and also elimination of external economic effects. The tax burden can be considered on micro and macroeconomic levels. The purpose of this article was to analyze tax burden and its conceptual contest, also to research on example of Azerbaijan.

**Key words.** Tax burden, Optimal Tax burden, Azerbaijan Taxation System.

## Giriş

Dövlət büdcəsi gəlirlərinin 85-90 %-ni təşkil edən vergilər dövlətin əsas gəlir mənbəyidir. Bazar iqtisadiyyatı şəraitində vergi sisteminin tənzimlənməsində normativ-hüquqi baza mühüm rol oynayır. Vergi sisteminin normativ-hüquqi bazası dedikdə, qanunların və bu qanunlara uyğun olaraq qəbul edilmiş normativ-hüquqi aktların məcmusu başa düşülür. Vergi sistemində mühüm əhəmiyyət kəsb edən ünsürlərdən biri də normativ-hüquqi bazanın sabitliyidir ki, bu da öz növbəsində sahibkarlığın inkişafına və xarici investorların fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına imkan verir. Vergi dövlət və digər orqanların ictimai xidmətlərin maliyyələşdirilməsini təmin etmək üçün şəxslərdən məcburi şəkildə aldığı pullardır. Çünki vergi qanunvericilikdə yer alan və iqtisadi fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin ödəmə gücünə görə təyin edilən bir vəzifədir. Məlumdur ki, iqtisadi fəaliyyətə başlayan hər bir şəxs, müəssisə, təşkilat, o cümlədən dövlətin başlıca məqsədi gəlir əldə etməkdir. Dövlətin xərc istiqamətləri çoxşaxəli olduğundan gəlir mənbələri də müxtəlif və çoxsaylıdır. Bu mənbələrin bir qismi qədim tarixə malik olsa da, əksər hissəsi isə iqtisadiyyatın inkişafı ilə əlaqədar meydana gələn yeni sahələrdir. Bu baxımdan dövlət daha çox gəlir gətirən sahələrin inkişafını stimullaşdırır, həmin sahələrə yönələn investisiya miqdarını artırır. Beləliklə, vergi həm iqtisadi, həm təsərrüfat və həm də siyasi bir kateqoriya kimi maliyyə sisteminin ən mühüm ünsürlərindən biridir. Vergitutma nəzəriyyəsi inkişaf etdikcə vergiyə olan baxışlar da dəyişmiş, yeni fikirlər meydana gəlmişdir. A.Smit vergini həcminin və ödənilmə qaydasının qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən təyin olunan bir yük kimi müəyyən etmişdir. Azərbaycan Respublikasının iqtisadiyyatında baş verən inkişaf və yeniliklər müvafiq olaraq vergi sistemində dəyişikliklərin aparılmasına, vergi sisteminin effektivliyinin artırılmasına, yeni islahatların tətbiq edilməsinə və iqtisadi sistemə uyğun çevik vergi sisteminə keçilməsini tələb edir. Bu baxımdan vergi yükünün müəyyən edilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi dərəcələrinin artırılması və ya azaldılması ilə vergi yükünün optimal səviyyəsinin təyin olunması kimi məsələlərin gündəmə gətirilməsi zəruridir. Dövlətin maliyyə resurslarının getdikcə artması və bu kimi prioritet istiqamətlər vergi qanunvericiliyinin dünya standartlarına uyğunlaşdırılmasının yüksək sürətlə aparılmasına imkan yaradır. Bu məqsədlə Azərbaycanda vergi sisteminin inkişaf istiqamətləri də nəzərə alınmaqla dünyada, xüsusilə də Avropa İttifaqının və başqa inkişaf etmiş ölkələrin vergi siyasəti üzrə təcrübəsi öyrənilməli və buna müvafiq olaraq vergi dərəcələrinin optimallaşdırılması təmin olunmalıdır. 2018-ci ildə qəbul edilmiş və 2019-cu ilin 1 yanvar tarixindən icra olunan Azərbaycan Respublikasının Vergi Məcəlləsində tətbiq olunan dəyişikliklər vergi qanunvericiliyinin dəyişdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətin təkmilləşdirilməsi, vergi inzibatçılığında müasir texnoloji yeniliklərin tətbiq edilməsi, inzibati idarəetmənin keyfiyyətinin avtomatlaşdırılması qısa müddət ərzində müsbət təsirini göstərmişdir. Vergi yükünün ümumi iqtisadiyyata və onun ayrı-ayrı sahələrinə təsirinin müəyyən edilməsinin zəruriliyi baxımından iqtisadi inkişafın səviyyəsinə uyğun olaraq vergi yükü və onun optimal səviyyəsinin təyin edilməsi üzrə problemlərin mövcudluğu tədqiqatın seçilməsində əsas rol oynamışdır. Məqalənin nəzəri və metodoloji əsaslarını klassik iqtisadçıların, həmçinin xarici ölkələrin iqtisadçılarının və eyni zamanda Azərbaycan iqtisadçılarının vergi sistemi və vergi siyasəti, ümumilikdə vergitutma təcrübəsinin əks olunduğu əsərləri, bu sahədə mövcud məqalələr, Azərbaycan Respublikasının vergi qanunvericiliyini əhatə edən Vergi Məcəlləsi, bununla əlaqədar qanunlar, normativ-hüquqi aktlar və sərəncamlar təşkil edir.Məqalədə elmi optimal vergi yükü kompleks şəkildə öyrənilmiş və Azərbaycanda cari ildə aparılan vergi islahatları təhlil edilmişdir. Eyni zamanda vergi yükünün optimallaşdırılması istiqamətləri müəyyən edilmiş və bununla əlaqədar təkliflər verilmişdir.

## Vergi yükü anlayışı və onun mahiyyəti.

Vergi yükü anlayışına bir sıra ədəbiyyatlarda fərqli şəkildə tərif verilmişdir. A.B. Borisovun "Böyük iqtisadi lüğət" kitabında vergi yükünə – vəsaitlərin vergilərin ödənilməsinə yönəldilməsi, onların digər mümkün istifadə imkanlarından yayındırılması hesabına yaranan iqtisadi məhdudiyyətlər səviyyəsi kimi tərif verilmişdir. İqtisadi ədəbiyyatlarda vergi yükü ilə yanaşı "vergi ağırlığı", "vergi yansıması" kimi ifadələrə də rast gəlinmişdir. Vergitutma nəzəriyyələrində "vergi yükü" və "vergiyə cəlb olunma" ifadələri fərqləndirilir. Vergiyə cəlb olunma ( tax incidence) vergilərin firma və alıcılar, başqa sözlə istehsalçı və istehlakçılar arasında necə bölüşdürülməsini ifadə edir. Burada istehsalçı ve istehlakçı yükü anlayışları da meydana gəlir. İstehsalçı yükü (producer burden) vergilərin artması ilə istehsalçı şirkətin itkisini nəzərdə tutur. İstehlakçı yükü (consumer burden) dedikdə isə bazar qiymətinin artması ilə istehlakçının əlavə ödədiyi məbləğ başa düşülür. Ümumiyyətlə vergiyə cəlb olunma istehsalçıya daha çox təsir göstərir, istehlakçı yalnız az bir hissə ödəmiş olur [20]. İqtisadiyyatda hər şeyin yolunda getdiyi zamanlarda çox da diqqət cəlb etməyən vergi yükü xüsusilə iqtisadi dalğalanma və böhran dövrlərində əsas mövzuya çevrilir. Bunun əsas səbəbi isə vergi yükündə ani dəyişimlər olduğu kimi, bir tərəfdən də "vergi təzyiqi" anlayışının ağırlığı var. Vergi yükü bəsit mənada müəyyən zaman kəsimində gəlirinə və ya qazancına görə şəxslərin və ya şirkətlərin hansı dərəcədə vergi ödədiyinin ifadəsidir. Digər tərəfdən daha da dərinə baş vurduğumuzda işin təbiəti dəyişir, vergi yükünün iqtisadi mənası ilə yanaşı həm də psixoloji təsirləri meydana çıxır. Büdcə kəsirinin artdığı, maliyyə balansının pozulduğu və özəlliklə də inkişafın ləngidiyi dövrlərdə, həmçinin istehsal gücü olmayan cəmiyyətlərdə vergi təzyiqi də artır ki, bu da cəmiyyətin psixologiyasını pozur.

Vergitutma nəzəriyyələrində istifadə olunan anlayışlardan bəhs edərkən "vergi ağırlığı" ifadəsindən də söz açmaq yerinə düşər. Müasir iqtisadi ədəbiyyatlarda vergi ağırlığı və vergi yükü anlayışları yanaşı istifadə olunmuş, bir sıra iqtisadçıların onların fərqini izah etmişdir. V.Q. Panskov "vergi ağırlığı"na aşağıdakı kimi tərif vermişdir: "Vergi ağırlığı həm bütövlükdə ölkə iqtisadiyyatının, həm də ayrı-ayrı təsərrüfat subyektlərinin və digər ödəyicilərin gəlirlərində vergilər və vergi xarakterli bütün ödənişlərin dövlətə ödənilən pay formasında vergilərin məcmu təsir göstəricisini ifadə edir." A. N. Tsıqıçko isə vergi ağırlığını müəssisənin inkişafını ləngidən və resursları məhdudlaşdıran maliyyə ağırlığının bir hissəsi kimi qeyd etmişdir. O həmçinin bildirmişdir ki, vergi ağırlığının azaldılması qiymətlər, inflyasiya, amortizasiya, daxili və xarici gömrük rüsumları kimi maliyyə ağırlığına təsir göstərən iqtisadi anlayışlarla birlikdə və qarşılıqlı surətdə araşdırılmalıdır. [3] Rus iqtisadçısı A. B. Paskaçov da bu iki anlayışı bir birindən fərqləndirmiş və belə nəticəyə gəlmişdir ki, vergi yükü anlayışı makrosəviyyədə, vergi ağırlığı isə mikrosəviyyədə konkret təsərrüfat subyektinə düşən vergi və yığımların tutulma payını xarakterizə edir. D.V.Lazutina isə qeyd etmişdir ki, "Vergi ağırlığı –bir tərəfdən təsərrüfatçılıq subyektləri ilə dövlət arasında vergilərin ödnilməsi üzrə yaranan münasibətlərdir, digər tərəfdən isə dövlətin vergi mexanizmlərindən istifadə etməklə iqtisadiyyata təsir vasitəsidir. Bu anlamda vergi yükü isə dövlətin iqtisadiyyata təsirinin ölçüsünü xarakterizə edir." İ.A. Mayburov isə bu iki anlayışı makro və mikro səviyyədə təhlil etmiş və vacib fiskal göstərici kimi qeyd etmişdir. Onun fikrincə, "vergi yükü – ayrı-ayrı təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətini xarakterizə edən və məcmu təsir göstərən, həmçinin onların gəlirlərinin vergi və vergi ödənişləri şəklində dövlətə pay kimi ayrılmış hissəsini ifadə edir."

Ümumi şəkildə qeyd etsək, vergi yükü verginin ödənməsi nəticəsində vergi ödəyicilərinin gəlirlərində və ya sərvətlərində bir azalmaya səbəb olmasıdır. Vergi yükünün ölçülən hissəsi obyektiv, ölçülə bilməyən hissəsinə isə subyektiv vergi yükündür. Vergi yükünün bəzi növləri mövcuddur:

1. *Ümumi vergi yükü*: İqtisadiyyatda müəyyən dövr ərzində toplanan vergilərin məcmusudur.
2. *Fərdi vergi yükü*: Fərdlərin ödədiyi vergi məbləğlərinin cəminin əldə etdiyi gəlirlərə nisbətini ifadə edir.
3. *Xalis vergi yükü*: Müəyyən bir dövr ərzində ödənilən ümumi vergilərdən, təqdim olunan xidmətlərdən əldə olunan faydanın azalması və bunun ümumi gəlirlərə nisbəti ilə ifadə olunur.
4. *Real vergi yükü*: Xalis vergi yükünün genişləndirilmiş formasıdır.
5. *Regional vergi yükü*: Hər hansı regionda ödənilən vergilərin əldə olunan gəlirlərə nisbətini ifadə edir.
6. *Sektoral vergi yükü*: Müəyyən bir sektorda ödənilən vergilərin əldə olunan gəlirlərə nisbətidir. [18]

Mütləq vergi yükü bir göstərici kimi vergi öhdəliklərini tam şəkildə xarakterizə etmədiyindən onları daha düzgün müqayisə etməküçün nisbi vergi yükü göstəricisi istifadə olunur. Nisbi vergi yükü dedikdə, verginin mütləq kəmiyyətdə ifadəsinin yeni yaradılmış dəyərə nisbətini xarakterizə edir, başqa sözlə, nisbi vergi yükü müəyyən vaxt müddəti ərzində hesablanmış vergilərin və sosial sığorta ayırmalarının cəmi məbləğinin yeni yaradılmış dəyərdə xüsusi çəkisini ifadə edir. [8]

Vergi yükünün artması nəticəsində əvvəlcə vergi sisteminin səmərəliliyi yüksəlir, öz maksimumuna çatır və müəyyən səviyyədən sonra azalmağa doğru meyl edir. Bu zaman büdcə sistemində itkilər meydana gəlir, hansı ki onların yerini doldurmaq çətinləşir. Belə ki, vergi dərəcələrinin artması ilə vergi ödəyicilərinin bir qismi ya ümumiyyətlə fəaliyyətini dondurur, yaxud da qeyri-qanuni yollarla vergi ödənişlərini azaltmağa cəhd edir. Sonradan istehsalın dirçəldilməsi üçün dövlət bir sıra addımlar atsa da, bunun üçün uzun zaman tələb olunur. Çünki təcrübə göstərmişdir ki, vergi dərəcələrinin kəskin artmasından sonra yaranmış olan mənfi təsirlərin aradan qaldırılması üçün vergi yükünün azaldılması tədbiri də öz nəticəsini uzunmüddətli dövrdə göstərə bilir, qısamüddətli dövr ərzində isə dövlət tərəfindən vergi yükü azaldılsa belə, vergi ödəyiciləri vergi ödənişlərini tam həcmd ödəməkdən imtina edirlər və ya yayınırlar. Bu baxımdan iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlərin iqtisadi siyasəti qarşısında duran prioritet sayılan vacib məsələlərdən biri də optimal vergi yükünün formalaşdırılmasıdır.

Vergi dərəcələri ilə vergi gəlirləri arasındakı əlaqəni XX əsrin ikinci yarısında professor A. Laffer vermişdir ki, bu da iqtisadi ədəbiyyatda "Laffer əyrisi" olaraq öyrənilmişdir. Laffer əyrisi yüksək vergi dərəcələrinin vergi gəlirlərində bir azaldıcı təsir formalaşdığını ən yaxşı şəkildə göstərir. Lakin əyri üzərində çox aşağılarda yer alan vergi dərəcələri vergiyə cəlb olunan gəlirləri dəyişdirərək vergi gəlirlərində bir azalmaya səbəb olmuşdur. Siyasətçilər Laffer əyrisinin hər iki istiqamətini araşdırırlar.

Laffer əyrisi dinamik qiymətləndirmə metodunun vizual şəklidir. Ronald Reqana məsləhətçilik etmiş iqtisadçı Art Lafferin adını almış olan Laffer əyrisi vergi dərəcələrində meydana gələn bir dəyişikliyin vergiyə cəlb olunan gəlirlərə təsirini müəyyənləşdirmişdir.

Laffer əyrisinin müəyyən bir nöqtəsində vergi dərəcələrindəki yüksək artımlar səbəbilə vergiyə cəlb olunan gəlirlərdə azalmalar olmuşdur. Əyri üzərində bu vəziyyət vergi dərəcələrinin maksimum vergi gəlirlərini aşdığı nöqtədə gerçəkləşir.




**Şəkil 1.** Statistik qiymətləndirmə.




**Şəkil 2.** Dinamik qiymətləndirmə.

Şəkil 1 və 2 də vergi dərəcələrinin dəyişməsi ilə vergiyə cəlb olunan gəlirlər arasındakı əlaqəni qarşılaşdırır.

Laffer əyrisi 1970-ci illərdə maliyyə siyasətində bir mübahisə mövzusuna çevrilmişdir. Çünki yüksək federal vergi dərəcələri (70 faiz və yuxarı) insanların işləmə və vergi ödəmə istəyini azaldaraq əldə etdikləri gəlirləri vergi orqanlarından gizlətmələrinə səbəb olmaqdaydı. Laffer əyrisi tərəfdarlarının açıqlamalarına görə dövlətin aşağı vergi dərəcələri tətbiq etməsi daha çox vergili gəlirlər əldə etməsini təmin edəcəkdir. Çünki belə halda insanlar həm gəlir əldə etməyə, həm də əldə etdikləri gəlirləri vergi orqanlarından saxlamayaraq vergi ödəməyə könüllü olacaqlar. Başqa sözlə 70% kimi vergi dərəcəsi təqbiq edən Amerika Laffer əyrisinin səhv tərəfində olmuşdur. Bu vəziyyət Şəkil 3-də B və C nöqtələri arasındakı yeri əks etdirir. Şəkil 3-də göstərildiyi kimi aşağı vergi dərəcələri ilə yüksək vergi gəlirləri toplamaq mümkündür. Belə bir misal göstərə bilərik ki, tutaq ki, vergi dərəcələrinin 70% olduğu vəziyyətdə insanlar vergiyə cəlb olunan gəlirlərini 100 milyon manat olduğunu göstərdiyi halda, vergi dərəcəsinin 28% olduğu halda 300 milyon manat olduöunu göstərməkdən çəkinməyəcəklər. İkinci halda vergi gəliri də daha yüksək olacaq ki, bu vəziyyətdə həm iqtisadi subyekt, həm də dövlət daha çox qazanmış olacaqdır.[19]




**Şəkil 3.** Laffer əyrisi.

Vergi yükünün hesablanmasına dair müxtəlif yanaşmalar mövcuddur. Məsələn, vergi potensialının, əhaliyə düşən vergi yükünün səviyyəsinin, makro səviyyədə vergi yükünü və onun dinamikasını müəyyən edən və ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəriciləri arasında təyin olunan vergilərin Ümumi Daxili Məhsulda (ÜDM) xüsusi çəkisinin hesablanması metodikaları məlumdur.[9] Vergi yükü göstəricisinin təyin edilməsində milli gəlir göstəricisindən də istifadə etmək olar. Milli gəlir il ərzində yaradılmış yeni dəyərdir. Bu göstəricinin həcmi ümumi daxili məhsulun həcmindən amortizasiya məbləğlərini, dolayı vergiləri və dövlət subsidiyalarını çıxmaqla alınır.

Vergi yükünün hesablanmasının ən geniş yayılmış metodlarından biri vergi daxilolmalarının cəminin ümumi daxili məhsula nisbətinin faizlə ifadəsi kimi təyin olunur.

Başqa sözlə,

$$K = \frac{V}{ÜDM} \times 100\%$$

Burada K simvolu – vergi yükünü

ÜDM – ümumi daxili məhsulu

V – vergi daxilolmalarının həcmini ifadə edir.

Lakin vergi yükünün bu şəkildə hesablanması həm də özündə bir sıra çatışmazlıqları ehtiva edir. Belə ki, o, vergi ödəyiciləri üzrə ayrı-ayrılıqda fərdi xüsusiyyətləri nəzərə almadan orta statistik vergi ödəyicisinin üzərinə düşən vergi yükünün səviyyəsini təyin edir. Lakin buna baxmayaraq bu göstərici mühüm əhəmiyyət kəsb edir. Belə ki, dövlət vergi siyasətində mühüm qərarlar qəbul edərkən, vergi dərəcələrinin dəyişdirilməsi və vergi güzəştlərinin ləğv edilməsi, vergi imtiyazlarını təyin edilməsi zamanı bu orta göstərici nəzərə alınmalıdır. Bu göstərici olmadan dövlətin vergi qanunvericiliyində hər hansı dəyişikliklərin aparılmasında həddini müəyyən etmək çətindir. Vergi həddi həm vergi ödəyiciləri, həm də dövlət üçün vergi yükünün optimal həddini müəyyən edir.Qeyd edilən çatışmazlıqların aradan qaldırılması üçün praktikada yeni dəyər və ya əlavə yaradılmış dəyər anlayışından istifadə edilir. Əlavə dəyər müəssisədə məhsul istehsalı zamanı çəkilən real xidməti, həmçinin əmək haqqı, amortizasiya ayırmaları və s. da əks etdirir. Milli hesablar sistemində əlavə dəyərin tərkibinə əmək haqqı və amortizasiya ayırmaları ilə yanaşı, müəssisənin mənfəəti, renta, borc kapitalının faizləri və dolayı vergiləri də daxildir.

Makroiqtisadiyyatda vergi daxilolmalarının həcminə təsir göstərən müxtəlif iqtisadi amillərin təsirini nəzərə almaq üçün vergilərin elastiklik əmsalından istifadə olunur. Bu əmsalın hesablanmasında aşağıda göstərilən düsturdan istifadə olunur:

$$E = \frac{\Delta X}{\mathrm{X}} * \frac{\Delta Y}{\mathrm{Y}}$$

Burada E – elastiklik əmsalı,

X – vergi gəlirlərinin ilkin səviyyəsi,

ΔX – vergi gəlirlərinin artımı,

Y – təsiri ölçülən amilin kəmiyyəti,

ΔY – təsiri ölçülən amilin artımını əks etdirir.

Vergilərin elastiklik əmsalı götürülmüş amilin 1% dəyişməsi ilə vergi daxilolmalarının hansı şəkildə dəyişməsini öyrənir. Əmsalın qiyməti vahidə bərabər, ondan böyük və ya ondan kiçik ola bilər. Əgər əmsalın qiyməti vahidə bərabərdirsə, bu o deməkdir ki, vergi daxilolmalarının payı sabit qalır, vahiddən böyükdürsə, təsiri öyrənilən kəmiyyətə nəzərən vergi gəlirləri sürətlə artır, vahiddən kiçikdirsə vergi gəlirlərinin xüsusi çəkisi azalır deməkdir.

Vergitutmanın elastiklik alman iqtisadçısı A. Vaqner tərəfindən irəli sürülmüşdür. İctimai maraqların şəxsi maraqlardan üstünlüyünü müdafiə edən Vaqner qeyd edirdi ki, vergilər dövlətin obyektiv ehtiyaclarından asılı olaraq artırıla və ya azaldıla bilər.

Vergi yükünün hesablanmasının iqtisadi ədəbiyyatlarda müxtəlif üsulları mövcuddur. Bu üsullar aşağıdakılardan ibarətdir:

1. İqtisadi subyektin vergi yükünün ödənilmiş vergilərin həcminin satışdan əldə olunan gəlirlərə nisbəti kimi təyin edilməsi:

$$K = \frac{V}{W} x\ 100\%$$

Burada K – vergi yükü,

V – vergilərin ümumi məbləği,

W – satışdan daxil olan ümumi vəsait.

2. Vergi yükünün ödənilmiş vergilərin vergi mənbəyinə nisbəti şəklində müəyyən edilməsi:

$$K = \frac{W - Z - M}{\Delta M} x\ 100\%$$

Burada Z – dolayı vergilər çıxılmaqla satışa təqdim edilən məhsulun istehsalına çəkilmiş xərclər,

M – vergilər ödənildikdən sonra iqtisadi subyektin sərəncamında qalan xalis mənfəət,

ΔM – iqtisadi subyektin balans mənfəəti.

İqtisadi subyektin maliyyə vəziyyətinə vergilərin təsiri mexanizmi məhz bu üsul vasitəsilə daha dəqiq öyrənilir, lakin bu üsulun çatışmazlığı ondan ibarətdir ki, burada dolayı vergilərin təsiri nəzərə alınmır. Məlumdur ki, dolayı vergi ödəyicisi olan iqtisadi subyekt bu vergiləri tamamilə məhsulun qiymətinə daxil edərək istehsalçıların üzərinə qoyur. Lakin məhsulun qiyməti ona olan tələb nəzərə alınaraq müəyyən həddə qədər arta bilər. Buradan da bəlli olur ki, dolayı vergilər məhsul qiymətinə və ona olan tələbə birbaşa təsir göstərir.

3. Vergi yükünün ödənilən vergilərin iqtisadi subyektin yaratdığı əlavə dəyərə nisbəti kimi təyin edilməsi:

$$D = W - S + Q - G$$

Burada S – mal-material xərcləri,

Q – satışdankənar əməliyyatlardan əldə olunan vəsait,

G – qeyri-satış əməliyyatlarına sərf olunan xərclər.

Bu zaman vergi yükü aşağıdakı düsturla təyin olunur:

$$K = \frac{V}{D} x100\%$$

Bu qayda ilə hesablanan vergi yükü iqtisadi subyektin əlavə dəyərinin dövlət büdcəsinə köçürülən hissəsini müəyyən etməyə imkan verir.

Vergi yükünün qiymətləndirilməsindən sonra müəssisə aşağıdakı metodlardan istifadə etməklə vergitutmanın optimallaşdırılmasını həyata keçirə bilər:

- Vergi subyektinin dəyişdirilməsi metodu;
- Vergi subyektinin fəaliyyət növünün dəyişdirilməsi metodu;
- Vergi yurisdiksiyasının dəyişdirilməsi metodu;
- Qanunvericilik çərçivəsində müəssisənin uçot siyasətinin qəbul edilməsi;
- Müqavilə münasibətləri vasitəsilə optimallaşdırma;
- Müxtəlif güzəşt və vergi imtiyazlarından istifadə. [16]

## Azərbaycan Respublikasının vergi sistemi və müstəqillik sonrası həyata keçirilən vergi siyasəti

Azərbaycanın müasir vergi sistemi 1991-1992-ci illərdə bazar iqtisadiyyatına keçid dövründən etibarən inkişaf etməyə başlamışdır. Sovet İttifaqının tərkibindən çıxdıqdan sonra yenicə müstəqillik əldə edən Azərbaycan Respublikasında vergi sisteminin qurulması məqsədilə bir sıra vergilərin - əlavə dəyər vergisi, mənfəət vergisi, aksizlər və s. haqqında qanunlar qəbul edilməsi zərurəti yaranmışdır. Bu məqsədlə 1992-ci il 21 iyul tarixində " Dövlət vergi xidməti haqqında" qanun qəbul edilmişdir. Bu qanunla dövlət vergi xidməti orqanlarının strukturunu, hüquq və vəzifələrini müəyyən etmişdir.Azərbaycanda yeni vergi sisteminin formalaşmasında xarici ölkələrin təcrübəsindən geniş istifadə edilmişdir. Yeni üsul və metodların tətbiq edilməsinə baxmayaraq, vergi sisteminin inkişafında bir sıra çətinliklər və problemlər də yaranmışdır. Bu problemləri analiz edərkən əvvəlcə səbəblərini nəzərdən keçirmək lazımdır. Azərbaycanda müasir vergi sisteminə keçid zamanı yaşanan çatışmazlıqların ilkin səbəbi ölkəmizin Sovet İttifaqından ayrılaraq müstəqil respublikaya çevrilməsidir. Sovet İttifaqının tabeliyində olan digər ölkələr kimi, Azərbaycanda da iqtisadi sistem alt-üst olmuş, vergi sisteminin qurulması və inkişafına bir çox maneələr yaratmışdı. İkinci səbəb torpaqlarımız işğalı nəticəsində ölkəni bürüyən müharibə vəziyyəti idi. Belə bir vəziyyətdə dövlət bütün diqqətini müharibəyə yönəltmiş və iqtisadiyyatın inkişafına kifayət qədər diqqət edilmirdi. Nəticədə vergi sisteminin inkişafından söhbət gedə bilməzdi. Vergi sisteminin inkişafına əngəl yaradan səbəblərdən biri də ölkədə 1991-1993-cü illərdə iki dəfə prezident dəyişikliyi ilə müşayiət olunan siyasi gərginliyin yaranmasl idi. Bu gərginlik 1993-cü ildə Heydər Əliyevin dövlət başçısı seçilməsi ilə aradan qalxmışdır.

Bazar iqtisadiyyatına keçid şəraitində vergi sisteminin inkişafını axsadan səbəblər təkcə siyasi xarakter daşımırdı. Bundan başqa vergi savadlılığının azlığı da nəzərə alınması zəruri

olan səbəblərdən biri idi. Vergi savadlılığının az olması bilavasitə 71 illik sovet əsarətindən irəli gəlirdi. Çünki Sovet İttifaqı ölkələrində vergi sistemi çox inkişaf etməmişdi. Digər bir səbəb isə vergi əxlaqının aşağı, vergi qaçaqçılığının yüksək səviyyədə olması ilə bağlıdır. Vergi dərəcələrinin çox da yüksək olmamasına baxmayaraq, ölkədə vergi qaçaqçılığı və vergidən yayınma halları hökm sürürdü. Bunun da əsas səbəbi kimi vergi nəzarətinin zəifliyi, vergi müfəttişliyi və vergi ödəyiciləri arasında münasibətlərin yaranmamasını göstərmək olar. Daha bir səbəb kimi vergi qanunvericiliyinin kifayət qədər dəqiq işlənməməsi idi. Vergi qanunu haqda qanun 1992-ci ildə qəbul edilsə də, ölkəmizdə Vergilər Nazirliyi 2001-ci ildə yaradılmışdır ki, bu da öz növbəsində sistemin inkişafına əks təsir göstərirdi.

Müstəqillik əldə etdikdən sonra vergi qanunvericiliyinin işlənib hazırlanması zəruriliyi ondan irəli gəlirdi ki, ölkədə hələ də sovet rejimində əsası qoyulan vergi sistemi tətbiq olunurdu ki, bu da bazar münasibətlərinə keçid şəraitində vergi münasibətlərinin inkişafına əngəl yaradırdı. Bu məqsədlə, 1999-cu ilin iyul ayında ölkə prezidenti Vergi Məcəlləsinin layihəsinin hazırlanması göstərişi verdi. Yeni vergi sisteminin layihəsinin hazırlanması məqsədilə inkişaf etmiş ölkələrin təcrübəsi öyrənildi, yüksək iqtisadi inkişafa nail olmuş ölkələrin vergi sistemində tətbiq olunan metod və üsullar tətbiq edilməyə başlandı. Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sisteminin, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən şikayət edilməsi qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasında tətbiq edilən vergilər üç yerə bölünür:

1. Ümumrespublika vergiləri;
2. Muxtar Respublika vergiləri;
3. Yerli vergilər (bələdiyyə vergiləri).

Ümumrespublika vergiləri Azərbaycan Respublikasında Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilən və ölkənin bütün ərazisində ödənilməli olan vergilər nəzərdə tutur. Azərbaycan Respublikasında tətbiq olunan dövlət vergilərinə aşağıdakılar aiddir:

- fiziki şəxslərin gəlir vergisi;
- hüquqi şəxslərin mənfəət vergisi;
- əlavə dəyər vergisi;
- aksizlər;
- hüquqi şəxslərin əmlak vergisi;
- hüquqi şəxslərin torpaq vergisi;
- yol vergisi;
- mədən vergisi;
- sadələşdirilmiş vergi. [1]

Muxtar Respublika vergiləri Naxçıvan Muxtar Respublikası ərazisində tətbiq olunan və ödənilməsi zəruri olan vergilərdir. Vergi Məcəlləsinə əsasən MR vergilərinə yuxarıda qeyd olunan dövlət vergiləri aiddir.

Yerli vergilər isə Vergi Məcəlləsi və Azərbaycan Respublikasının vergi və vergi münasibətləri haqqında qanunlarına və yerli idarəetmə orqanlarının qərarlarına əsasən müəyyən

edilən və bələdiyyələrin ərazisində ödənilməsi nəzərdə tutulan vergilərdir. Yerli vergilərə aşağıdakılar aiddir:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Fiziki şəxslərin gəlir vergisi Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq fiziki şəxslər tərəfindən ödənilən vergilərdən biridir. 1992-ci ilin 1 Yanvar tarixində "Gəlir Vergisi haqqında Qanun" qəbul edilmişdir. 2001-ci ilə qədər bu qanuna bir sıra dəyişiklik və əlavələr edilmişdir. Bu qanuna əsasən gəlir vergisi sisteminin əsas prinsipi sosial mənşəyindən asılı olmayaraq vergi ödəyicilərinin bərabərliyi prinsipidir.

Dövlət fiskal siyasət vasitəsilə iqtisadi artıma həm makroiqtisadi, həm də mikroiqtisadi kanallarla təsir göstərir. Fiskal siyasətin makroiqtisadi alət kimi əsas çatışmazlığı onun kifayət qədər mövcud strukturdakı dəyişikliklərə çevik reaksiya verməməsidir. Makroiqtisadi sabitliyin və iqtisadi artımın əldə olunması baxımından dövlət fiskal və monetar siyasətləri qarşılıqlı əlaqələndirməlidir. Belə bir qarşılıqlı əlaqə iqtisadi siyasətin icrası zamanı deyil, hələ qərarların qəbulu və hədəflərin planlaşdırılması dövründə baş tutmalıdır, əks halda müəyyən ziddiyyətlər ortaya çıxa bilər. Məsələn, fiskal siyasət zamanı iqtisadi artımın yüksəlməsi məqsədilə görülən tədbirlər inflyasiya, monetar siyasət vasitəsilə qiymətlərin sabit saxlanmasına istiqamətlənən tədbirlər iqtisadi artımın məhdudlaşması ilə nəticələnirsə, belə hal iqtisadiyyatda resursların səmərəsiz istifadəsinə gətirib çıxaracaqdır.

Qeyd edilənlərlə yanaşı, neftə əsaslanan iqtisadiyyatda sərəncamda qalan gəlirlərin əsas hissəsinindövlətin sərəncamında olması şəraitində dövlət büdcəsi qeyri-neft sektoruna əlavə resursların cəlb edilməsi vasitəsinə çevrilir. Bu baxımdan, neft gəlirlərinin dövlət büdcəsi vasitəsilə qeyri-neft sektoruna yönəldilən hissəsinin həcminin artım tempi iqtisadi artımda mühüm rol oynaya bilər. Son illərdə Azərbaycanda tələbin həcminin formalaşmasında dövlət büdcəsinin xərclərinin rolu artmış vəonun iqtisadi artımda rolu yüksəlmişdir. Bununla yanaşı, büdcə gəlirlərinin dinamikası və strukturu onun iqtisadi parametrlərə təsirinin məhdud olduğunu göstərir. Belə ki, qeyri-neft büdcə gəlirlərinin həcminin qeyri-neft dövlət büdcəsində payının az olması büdcənin «qurulmuş stabilləşdirici» funksiyasını məhdudlaşdırır. Azərbaycanda 2000-2013-cü illər üzrə büdcənin qeyri-neft gəlirləri vəqeyri-neft ÜDM-i əsasında Peçman indikatoru 0,19-a, Vergilər Nazirliyinin topladığı qeyri-neft vergiləri üzrə isə 0,13-ə bərabər olmuşdur. Bu onu göstərir ki, qeyri-neft ÜDM-nin artımı ilə vergigəlirlərinin artımı arasında əlaqə zəif olmuşdur. Belə hal ölkədə dövlət büdcəsinin tsiklik kənarlaşmalardaməhdud stabilləşdirici rola malik oluduğunu göstərir. 2000-2013-cü illərin məlumatları əsasında aparılmış hesablamalar göstərir ki, qeyri-neft ÜDM-inin 1 manat artması vergi gəlirlərinin təqribən 0,2 manat artmasına səbəb olur ki, bu da dövlət büdcəsinin iqtisadiyyatda tsiklik kənarlaşmalara təsirini məhdudlaşdırır. Bundan başqa, qeyri-neft ÜDM-nin artımı ilə dövlət büdcəsininqeyri-neft gəlirlərinin artımı arasında əlaqə illər üzrə dəyişkən olmuşdur. [1]

## Azərbaycan vergi sistemində optimal vergi yükünün formalaşması

Son dövrlərdə vergi sisteminin effektivliyini qiymətləndirmək üçün onun digər ölkələrin vergi sistemləri ilə qarşılıqlı şəkildə öyrənmək, inkişaf dinamikalarını təhlil etmək vergi sisteminin iqtisadiyyata təsirini ölçməyə imkan verir. Məlumdur ki, vergi sisteminin effektiv-

liyini qiymətləndirmək üçün elastiklik və dayanıqlıq əmsallarından istifadə olunur. Bu əmsallar ümumi daxili məhsulun 1 faiz dəyişməsilə vergi daxilolmalarının həcminin nə qədər dəyişdiyini xarakterizə edir. Elastiklik əmsalı vergi siyasətinin sabit olduğu dövrlərdə, yəni vergi dərəcələrinin təxminən sabit qaldığı sistemlərdə tətbiq olunur. Son dövrlərdə Azərbaycanda vergi kəmiyyətlərinin dəyişkən olması bu əmsalın ölçülməsinə əngəl törədir. Ona görə də, vergi sisteminin effektivliyini xarakterizə etmək üçün vergi sisteminin dayanıqlıq əmsalından istifadə edilir.

Bu məqsədlə Azərbaycanda 2011-2018-ci illər üzrə ÜDM və vergi daxilolmaları arasındakı əlaqə təhlil edilmişdir. Qeyd olunan asılılıq üstlü funksiya şəkildədir:

$$y = a * xb$$

burada, $y$ – vergi daxilolmalarının məbləği, $x$ isə ÜDM-un həcmini göstərir. Tənliyinin xəttiloqorifmik analoqu

$$\ln y = \ln a + b \cdot \ln x$$

şəklindədir.$lny=y'$, $lna=a'$və $lnx=x'$işarələrini qəbul edək və onları tənliyində yerinə yazmaqla

$$y' - a' + bx'$$

xətti reqressiya təhlilini alırıq.

Nəticədə ölkəmizdə vergi sisteminin dayanıqlıq əmsalı 0,91 olaraq qiymətləndirilmişdir. Hər hansı ölkədə bu əmsalın 0,5-dən aşağı olması vergi sisteminin qeyri-effektiv olmasını və sistemdə zəruri dəyişikliklərin aparılmasını əks etdirir.

Müstəqillik əldə etdikdən sonra vergi daxilolmaların həcmində müntəzəm olaraq artım müşahidə olunmuşdur. Buna görə də vergi sisteminin qarşısındakiən başlıca vəzifələrdən biri fiskal tələbatın təmin olunması məqsədilə dövlət öhdəliklərinin yerinə yetirilməsidir. Təhlil olunan dövr ərzində ölkənin vergi sisteminin dayanıqlıq əmsalının 0,91-ə bərabər olması vergi daxilolmalarının həcminin artım tempinin ÜDM-un həcminin artım tempindən 0,9 dəfə kiçik olmasını göstərir. Müasir iqtisadi vəziyyətdə bu hal respublikamız üçün kifayət qədər məqbul nəticə hesab etmək olar. Dayanıqlıq əmsalını ayrı-ayrı vergilər üzrə, məsələn və əlavə dəyər vergisi üzrəvə fiziki şəxslərin gəlir vergisi üzrə də müəyyən etmək olar.

Azərbaycanda vergi yükünün optimal səviyyədə olması qəbul ediləndir. Ölkəmizdə vergi yükünün səviyyəsi xarici ölkələrlə müqayisədə yüksək deyildir,buna görə də onun aşağı Salınması məqbul hesab edilə bilməz. Son illərin vergi yükügöstəricisini aşağıdakı cədvəldən daha aydın görmək olar:

| **Göstəricilər** | **İllər** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
| **ÜDM (mln manat)** | 52082.0 | 54743.7 | 58182.0 | 59014.1 | 54380.0 | 60425.2 | 70337.8 | 79797.3 |
| **Vergidaxilolmaları (mln manat)** | 5475.1 | 6025.4 | 6663.7 | 7113.7 | 7118.2 | 7015.2 | 6971.7 | 7415.5 |
| **Vergi daxilolmaları-nın ÜDM-də xüsusi çəkisi, %** | 10.51 | 11.01 | 11.45 | 12.05 | 13.09 | 11.61 | 9.91 | 9.29 |

**Cədvəl 2.** Azərbaycan Respublikasında 2011-2018-ci illərdə vergi yükünün dinamikası. [2]

Əksər dünya ölkələrində vergi daxilolmalarının ümumi çəkisində əlavə dəyər vergisi daha yüksək paya malikdir. Beynəlxalq təcrübədən müəyyən olur ki, kiçik sahibkarlıq subyektlərinin əlavə dəyər vergisinə cəlb olunması həm vergidən yayınma hallarının azalmasına, həm də nağdsız hesablaşmaların artmasına səbəb ola bilər. Əlavə dəyər vergisində vergidən yayınma imkanları digər vergilərə nisbətən olduqca məhduddur. Aşağıda son on ildə Azərbaycan Respublikasında əlavə dəyər vergisinin dəyişim tempinin diaqramı qeyd olunmuşdur:

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2018-ci il 26 sentyabr tarixində imzalanmış sərəncamla təsdiqlənmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı"na əsasən təsərrüfat subyektlərinin sadələşdirilmiş vergi sistemindən əlavə dəyər vergisinə nəzərdə tutulmuşdur. Bu proqrama əsasən müxtəlif sektorlar üzrə mərhələli keçid planının hazırlanması, bu keçiddən sonra ƏDV-nin differensiallaşdırılmış vergi dərəcəsinin tətbiq olunması öz əksini tapmışdır.

Vergi sisteminin səmərəliliyinin artırılması, iqtisadi artım tempinə mənfi təsir göstərən amillərin vaxtında aradan qaldırılması üçün bir sıra tədbir və islahatlar aparılmalıdır. Ümumiyyətlə, dünya iqtisadiyyatından müəyyən edilmişdir ki, inkişaf etmiş ölkələrdə 5-7 ildən bir vergi sahəsində yeni islahatlar aparılır, 2-3 ildən bir isə mövcud vergi yükünün müqayisəli şəkildə təhlili aparılmaqla yenidən qiymətləndirilir.Azərbaycan Respublikasının vergi sisteminin dövlətin əsas gəlir mənbəyini formalaşdıran orqan kimi möhkəmlənməsi, ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi, informasiya və kommunikasiya sistemlərinin inkişafı ilə məlumat çevik məlumat mübadiləsinin təmin edilməsi, vergi siyasətində qarşıya çıxan problemlərin operativ şəkildə aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən 2013-cü ildə "2013-2020-ci illərdə vergi sisteminin inkişaf strategiyası" qəbul edilmişdir. Proqramın əsas missiyasını aşağıdakı şəkildə sadalamaq mümkündür:

- Azərbaycanın iqtisadi inkişaf hədəflərinə nail olmaq üçün mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sisteminin formalaşması;
- Qeyri-neft sektorunun inkişafının daha da stimullaşdırılması, vergi gəlirlərinin həcminin artırılması, innovasiyaya söykənən iqtisadiyyatın inkişafını təmin edən və qeyri-neft sektorunun ixrac potensialını daha da gücləndirən vergi siyasətinin formalaşdırılması;
- Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prinsiplərinə əsaslanan keyfiyyətcə yeni əməkdaşlıq prinsiplərinin yaradılması;
- Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, vergi ödəmə vərdişlərinin cəmiyyətin normasına çevrilməsinə nail olunması.

## Azərbaycanda optimal vergi yükünün müəyyən edilməsi siyasəti.

Ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsində dövlətin həyata keçirdiyi iqtisadi və hüquqi tədbirlər içərisində vergi siyasəti əsas yer tutur. Vergi müasir iqtisadiyyatda dövlətin iqtisadiyyata müdaxiləsinin hüquqi forması olub, iqtisadi artım və sosial inkişafa birbaşa təsir göstərir. Vergilər vasitəsilə dövlət iqtisadiyyata maliyyə vəsaitlərini cəlb edir, müəyyən tədbirlər görməklə, məsələn vergi dərəcələrinin dəyişdirilməsi, vergi güzəştlərinin tətbiq edilməsi ilə iqtisadiyyatın tənzimlənməsi addımları atır. Son on il ərzində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələri içərisində yer almağı bacarmışdır. Buna əsas səbəb ölkədə aparılan iqtisadi və siyasi islahatların biri-birilə əlaqələndirilməsidir. İqtisadi inkişafın əldə

edilməsində innovasiyalar, yeni texnika və texnologiyaların tətbiqindən əlavə, iqtisadi münasibətərin davamlılığını dəstəkləyən, sosial münasibətlərin həll edilməsində ən effektiv hüquqi tədbirlər də diqqətəlayiqdir. Bu baxımdan həmin tədbirlər içərisində xüsusi əhəmiyyət daşıyan vergi güzəştləri elmi və praktiki cəhətdən araşdırılır. Azərbaycan Respublikasının vergi qanunvericiliyində vergi güzəştlərinin də əks olunması bu məsələnin vacibliyini gündəmə gətirir. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununa əsasən elmi texniki tərəqqinin yeniliklərinin iqtisadiyyata tətbiq olunması innovasiya fəaliyyətinin həyata keçirilməsi şəklində baş verməlidir. İnnovasiya fəaliyyəti aşağıdakıları əhatə edir:

- Daha uzun dövrləri əhatə edən elmi-texniki layihələrin tətbiq olunması;
- İqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə yönəldilmiş fundamental tədqiqatların dövlət tərəfindən maliyyələşdirilməsi;
- Texnologiyaların nailiyyətləri içərisində daha az maliyyətə səbəb olan prinsiplərin aşkarlanması və öyrənilməsi.

Beynəlxalq təcrübədən məlum olur ki, ölkənin inkişafı üçün innovasiya texnologiyalarından istifadə zəruridir. Belə ki, bu texnologiyalardan istifadə etməklə nəinki cəmiyyətdə mövcud sosial münaqişələrin həll yolları tapılır, eləcə də yoxsulluq probleminin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. Ölkəmizdə iqtisadi strategiyanın müəyyən edilməsində insan kapitalının öyrənilməsi, bilik və nanotexnologiyaların innovasiya vasitələri kimi qiymətləndirilməsi aparılmışdır. Hər hansı bir ölkədə innovasiya fəaliyyəti aparılarkən ilk öncə, ölkədəki innovasiya potensialı öyrənilir. İnnovasiya potensialı dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Elmi-kadr potensialı;
- Elmi-texniki potensial;
- İqtisadi potensial;
- İnvestisiya potensialı;
- Beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi imkanları. [14, 26 s.]

İnnovasiya fəaliyyətinin həyata keçirilməsində vergi güzəştlərinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etdik. Bundan əlavə ölkəmizdə qanunvericilikdə vergi güzəştlərinin geniş siyahıda öz əksini tapması vergi güzəştlərinin sistemli şəkildə təsnifatına imkan yaradır. Azərbaycan Respublikasında vergi güzəştlərinin sinifləndirilməsi aşağıdakı əsaslarla aparılır:




**Şəkil 3.** Azərbaycanda vergi güzəştlərinin təsnifatı

Vergi güzəştləri aşağıdakı məqsədlərlə tətbiq olunur:

- hər hansı regionda iqtisadi fəaliyyətin potensial növlərinin inkişaf etdirilməsində iqtisadi marağınyaradılması;
- regionun sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə maliyyə resurslarının daha vacib olan məhsulların istehsalına ötürülməsi;
- investisiya axınını təmin etmək və innovasiya fəaliyyətini inkişaf etdirmək üçün iqtisadi şəraitin təmin edilməsi;
- yeni iş yerləri yaradaraq məşğulluğun artırılmasına kömək edən müəssisələrin fəaliyyətini stimullaşdırmaq;
- konkretsahə üçün sosial-iqtisadi vəzifələri yerinə yetirən vergi ödəyicilərinə kömək

**Azərbaycanda vergi yükünün optimallaşdırılması istiqamətindəki reformlar**

Hər bir ölkədə vergi siyasəti işlənib hazırlanarkən ölkənin sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq qarşıda duran ən ümdə məsələ optimal vergi yükünün müəyyənləşdirilməsidir. Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq təcrübənin öyrənilməsi, geniş təhlili və elmi əsaslandırılması ilə Azərbaycan Respublikasının vergi sisteminə müvafiq optimallaşdırma üsul və metodları tətbiq edilməyə başlanılmışdır.

Azərbaycan vergi sisteminin effektivliyini qiymətləndirmək üçün yaradılmış model Azərbaycan Ümumi Tarazlıq Modelidir. "AzMod" bütün digər modellərin və özündən əvvəlki nəzəriyyələrin sintez edilməsi ilə ortaya çıxan proqram təminatı paketidir. "AzMod" modeli ekonometrik model hesab edilmir, çünki orada uyğunlaşdırılmış davranış tənlikləri yoxdur. Model makroiqtisadi eyniliklərlə yanaşı, faydalılıq və istehsal funksiyalarından büdcə məhdudiyyəti və sıfır mənfəət şərtlərindən istifadəni nəzərə aldığından bir növ neoklassik sintez nəzəriyyəsinə söykənir. Modelin Varlas tipli olmasına baxmayaraq, burada həm Kobb-Duqlas, həm Leontyev tipli istehsal funksiyaları, həm də Arminqton faydalılıq funksiyasından istifadə edilərək bütün sahələrarası əlaqələr nəzərə alınır. Modeldən alınmış nəticələr 19 sahə üzrə ayrılıqda qiymətləndirməyə imkan verir. Modelin işlənib hazırlanaraq başa çatdırılması çox zəhmət tələb edən mürəkkəb elmi-praktik fəaliyyət tələb etmişdir. [13]

Azərbaycan Respublikasının vergi sistemində yeni dəyişiklikləri nəzərdə tutan islahatlar həyata keçirilir. 2018-ci ildə qəbul edilmiş Vergi Məcəlləsinə dəyişikliklər vergi sistemində keçid ili kimi xarakterizə olunur. Bu yeniliklər dünya təcrübəsi ilə uzlaşdırılaraq Azərbaycanın vergi sisteminə uyğunlaşdırılmışdır. Qəbul edilən yeni qərarlar vergi sisteminin 5 əsas istiqamətini özündə əks etdirir:

- sahibkarlığa dövlət dəstəyi;
- vergidən yayınma halları və kölgə iqtisadiyyatının qarşısının alınması;
- vergitutma bazasının genişləndirilməsi;
- vergi inzibatçılığının təkmilləşdirilməsi;
- qəbul edilmiş vergi güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi.

Kölgə iqtisadiyyatının miqyasının azaldılması məqsədilə qəbul edilmiş yeni qərarlarla xüsusən özəl sektorda işləyənlərin gəlir vergilərinin gözləgörünür şəkildə azalması, xərclərin rəsmiləşdirilməməsi və sənədlərin qeyri-rəsmi dövriyyəsinə görə cərimə və sanksiyaların tətbiqi və artırılması nəzərdə tutulmuşdur.

Vergi Məcəlləsinə edilən yeniliklər vergi sisteminin bütün sahələrini, vergi yükü, vergitutma bazası, vergi inzibatçılığı, vergi növləri və eləcə də, maliyyə sanksiyalarında dəyişik-

liklər edilməsini nəzərdə tutmuşdur. Qeyd etmək lazımdır ki, bu dəyişikliklər mövcud qanunlar çərçivəsində fəaliyyət göstərən vergi ödəyicilərinə heç bir şəkildə mənfi təsir göstərmir, onların fəaliyyətini çətinləşdirmək və ya hər hansı bir şəkildə onların vəziyyətinin pisləşməsinə yönəlməmişdir. Aparılan islahatlarda əsas məqsəd heç də kiminsə cəzalandırılması və ya dövlətin mənafeyi naminə ictimai maraqların tapdalanması deyil, əksinə bu tədbirlər sayəsində qanunvericiliyə əməl olunan, vergidən yayınma hallarının minimuma endirildiyi, kölgə iqtisadiyyatının olmadığı və ya yox sayılacaq qədər miqyasının kiçildiyi bir şərait yaradılmasıdır.

Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən hesablaşmaların qeyri-rəsmi aparılması, pul vəsaitlərinin uçotdankənar qeydiyyatı, işçilərin əmək müqaviləsi olmadan işə cəlb olunmasına görə tətbiq olunan maliyyə sanksiyaları artırılmışdır. Belə ki, dəyişikliklərdən əvvəlki Vergi Məcəlləsinə əsasən vergilərin hesablanmış dövrdə təqdim edilməməsi və ya bilərəkdən təhrif olunmuş şəkildə təqdim edilməsinə, mühasibat uçotu sənədlərinin 5 il müddətində saxlanılmamasına görə vergi ödəyiciləri 100 manat məbləğində cərimə olunurdusa, 2019-cu il 1 yanvar tarixindən sanksiyanın məbləği 1000 manat olaraq müəyyən edilmişdir. Nağd pul hesablaşmalarında qanun pozuntusuna yol verdikdə dəyişikliklərə qədərki dövrdə 1200 manat məbləğində cərimə müəyyən edilmişdisə, yeni dövrdə birinci dəfə üçün 1000 manat, ikinci dəfə üçün 2000, üçüncü dəfə üçün 4000 manat cərimə tətbiq olunur. Pul vəsaitlərinin uçotdan kənar aparılmasına görə cərimələr 2019-cu ilə qədər 1000 manatdan çox olan hissənin 5 faizi, təkrar hala yol verdikdə 10 faiz idisə, yeni dövrdən etibarən faizlər ikiqat artırılmışdır. İşçilərin əmək müqaviləsi olmadan işə cəlb olunması görə hər bir işçi üzrə 1000 manat məbləğində olan cərimələr artıq yeni dövrdə ilk dəfə üçün 2000, ikinci dəfə 4000, üçüncü dəfə təkrarlanan hal üçün 6000 manata qaldırılmışdır.

Bundan əlavə Vergi Məcəlləsinə maliyyə sanksiyaları ilə bağlı yeni əlavələr də artırılmışdır. Bunlar aşağıdakılardır:

- Elektron vergi hesab-fakturası verilmədən mallarını təqdim edən şəxslərə təqvim ili ərzində əgər bu hal birinci dəfə baş verisə, malın satış qiymətinin 10%, ikinci dəfə 20%, üçüncü və daha çox təkrarlandıqda isə 40% həcmində maliyyə sanksiyası tətbiq edilir.
- Gəlir və xərclərin uçotu qanunvericiliyə uyğun olaraq aparılmadıqda bu hal təqvim ili ərzində ilk dəfə baş verirsə, rəsmiləşdirilməmiş xərclərin 10%, ikinci dəfə 20%, üçüncü və daha çox baş verdikdə isə 40% miqdarında sanksiya tətbiq edilir.
- Aksiz markası və məcburi nişanlanma ilə satılması nəzərdə tutulan malların aksiz markasız və məcburi nişanlanma olmadan satılmasına görə təqvim ili ərzində yol verilən ilk hala görə məhsulun satış qiymətinin bir misli, iki və daha çox halların aşkar edildiyi təqdirdə isə 2 misli məbləğində sanksiya nəzərdə tutulmuşdur.
- Vergidən azad edilmiş gəlirin azaldılması və bəyan edilməməsinə görə vergidən yayınmış hissənin6% miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası nəzərdə tutulur.
- Kənd təsərrüfatına yararlı torpaqlara sahib olan fiziki şəxslər "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan hesabatı və arayışı əsassız olaraq müəyyən edilmiş müddətdə təqdim etmədikdə –təqvim ili ərzində birinci dəfə aşkarlandıqda minimum aylıq əmək haqqının 3%-i, iki və daha çoxbaş verdikdə 6%-imiqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur. Bu dəyişiklik 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

- Mühasibat uçotunu elektron formada aparması vacib olan şəxslərin vergini azaltması, hesabat təqdim etməmək yolu ilə vergi məbləğiniyayındırmasıaşkar edildikdə vergi ödəyicilərinə vergidən yayındırılmış vergi məbləğinin 25%-i həcmində sanksiya tətbiq edilir. [10]

Aparılan yeni islahatlara əsasən gəlir vergisinin hesablanma metodikasında radikal dəyişikliklər qəbul edilmişdir. Dəyişikliklərə qədərki dövrdə gəlir vergisini 2500 manatadək 14% vergi dərəcəsi il, 2500 manatdan çox olduqda isə əlavə olaraq artıq olan hissənin 25 faizi miqdarında hesablanırdı. Yeni dövrdə qeyri-neft və qeyri-dövlət sektorunda vergiyə cəlb olunan gəlirlər 8000 manatadək olduqda sıfır faiz dərəcə ilə, 8000 manatdan çox olduqda 14% dərəcə ilə hesablanacaqdır. Qeyd edək ki, gəlir vergisində aparılan bu dəyişiklik yalnız 7 il müddətində və qeyri neft və qaz sahələri, həmçinin özəl sektorda çalışan işçilərə aid edilir. Dövlət sektorunda çalışanlar əvvəlki qayda ilə vergiyə cəlb olunurlar. Dəyişikliklərdən sonra qeyri-sahibkarlıq fəaliyyətində əldə olunan gəlirlər 14 % vergi dərəcəsi ilə vergiyə cəlb olunurlar. Yeni dəyişikliklərə əsasən fiziki şəxslərin muzdlu fəaliyyətdən əldə etdiyi aylıq gəlirlər 2500 manatadək olduqda 200 manat məbləğində olan hissəsi vergidən azad olunur.

Vergi Məcəlləsinə edilən yeniliklərə əsasən mənfəət vergisinə aid bir sıra əlavələr qəbul edilmişdir. İlk növbədə mənfəət anlayışı daha geniş şərh olunmuşdur. Belə ki, "mənfəətdedikdə, vergi ödəyicisininbütün gəlirləri, o cümlədən Azərbaycan Respublikası hüdudlarındankənarda daimi nümayəndəlik vasitəsilə əldə etdiyi gəlirlər və ölkədən kənarda əldə edilən dividend, faiz və royaltigəlirləri ilə gəlirdən çıxılan xərc (vergidən azad edilən gəlirlər üzrə çəkilən xərclərdən başqa) arasındakı fərq kimi nəzərə alınacaq"dır. Bundan sonra rezident və qeyri-rezidentlərlə yanaşı bütün qeyri-kommersiya təşkilatları mənfəət vergisinə cəlb olunacaqdır.

Qanunlayihəsinə əsasən artıq aşağıdakıfəaliyyət növlərini həyata keçirən şəxslərdən başqa bütün vergi ödəyiciləriyalnız elektron qaimə-fakturaburaxmalıdır:

a) müştərilərin hesabları üzrə bank əməliyyatlarını həyata keçirən şəxslər tərəfindən xidmətlərin göstərilməsi;
b) dövlət hakimiyyəti, yerli özünüidarəetmə orqanları və büdcə təşkilatları tərəfindən işlərin və xidmətlərin təqdim edilməsi;
c) xüsusi notariuslar tərəfindən (notariat hərəkətlərinin aparılmasınavə notariat hərəkətləri ilə əlaqədar) xidmətlərin göstərilməsi. [1]

Mənfəət vergisi ilə bağlı yeni qanunda bir sıra güzəşt və azadolmalar da yer almışdır. Belə ki, nağdsız hesablaşmalar aparan vergi ödəyicilərinin vergiləri Pos-terminal vasitəsilə aparılan ödənişlərin ümumi gəlirdə xüsusi çəkisinə müvafiq olaraq 25% miqdarda 3 il müddətində azaldılır. Mənfəətinin 10 %-dən çox olmayan hissəsini təhsil, səhiyyə, mədəniyyət və idman təşkilatlarına ayıran müəssisələrin ayırdıqları həmin məbləğ 10 il müddətinə vergidən azaddır. ƏDV məqsədləri üçün uçota alınmayan və ardıcıl 12 aylıq dövrdə hər hansı ayda 200000 manatlıq dövriyyəsi olan rezident müəssisələrin səhmdarlarının divident gəlirləri mənfəət vergisindən azaddır.

Qəbul edilmiş yeni qərarlara əsasən, əlavə dəyər vergisində də bir sıra dəyişikliklər edilmişdir. Belə ki, yeni qanuna əsasən aşağıdakı şərtlərə cavab verən vergi ödəyiciləri ƏDV ödəyicisi kimi qeydiyyatdan keçə bilər:

- Göstərdiyi əməliyyatların dəyərini nağdsız şəkildə almalı;

- Xidmətlərin göstərilməsindən əldə olunan gəlirlər və çəkilən xərcləri elektron-qaimə ilə rəsmiləşdirməli;
- Göstərilən xidmətlər üzrə əməliyyatların uçotunu vahid elektron vergi sistemi üzərindən aparmalı.

Bu şərtləri ödəyənlər ƏDV məqsədləri üzrə qeydiyyatda olduğu ərazidən vergi orqanlarında qeydiyyatdan keçə bilər. Qeyd etmək lazımdır ki, yeni qanuna əsasən ƏDV məqsədləri üzrə qeydiyyatdan keçən vergi ödəyiciləri qeydiyyatı 3 ildən tez müddətə ləğv edə bilməzlər.

Sadələşdirilmiş vergi ödəyiciləri üçün də bir sıra dəyişikliklər nəzərdə tutulmuşdur. İlk olaraq onu qeyd edək ki, əvvəlki Məcəlləyə əsasən Bakı şəhəri üzrə sadələşdirilmiş vergi dərəcəsi 4 %, regionlar üzrə 2% olduğu halda, yeniliklərə əsasən bütün şəhər və regionlar üzrə vahid qaydada 2% vergi dərəcəsi təyin edilmişdir. Yeniliklərə əsasən ardıcıl 12 ay ərzində hər hansı bir ayda 200000 manatlıq dövriyyəsi olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan məhrum ediləcəkdir. Bununla yanaşı, tabeliyində 5-dən çox işçi olan istehsalla məşğul olan şəxslər, tikinti fəaliyyəti istisna olmaqla, lisenziya tələb olunan fəaliyyətlə məşğul olan şəxslər, xəz-dəri, zərgərlik məmulatlarının satışı ilə məşğul olan şəxslər, topdan-satış şəklində mallarının satışını həyata keçirənlər də sadələşdirilmiş vergi ödəyicisi olmaq haqqından məhrum edilir.

Yeni qanunla ofisiant və dərzilər aylıq 10 manat, bərbərlər 20 manat məbləğində sabit sadələşdirilmiş vergi ödəyicisi olacaqlar.

Məlumdur ki, vergilər təkcə büdcənin əsas gəlir mənbəyini formalaşdırmır, həm də dövlətin əsas tənzimləyici vasitəsi rolunu oynayır. Bu baxımdan dövlət istənilən vaxt vergi yükünün azalması və ya artırılması siyasətindən istifadə etməklə iqtisadi siyasətin qarşısına qoyulan məqsədlərə çatmağa çalışır. 2019-cu ilin büdcə sistemi özündə bir sıra islahatları əks etdirir. Dövlət büdcəsi təsdiq olunarkən özündə ehtiva etdiyi sənədlər dövlətin 2019-cu il üçün iqtisadi siyasətini müəyyən etməyə imkan verir. İlk növbədə sahibkarlığa göstərilən güzəştlər kiçik və orta sahibkarlığı inkişaf etdirməklə, iqtisadi mühitin yaxşılaşdırılmasına səbəb olacaqdır. Sadələşdirilmiş və əlavə dəyər vergilərində nəzərdə tutulan dəyişikliklər də bu məqsədə xidmət edir.

Dövlət 2019-cu il büdcə-vergi siyasətini təsdiq edərkən təkcə öz maraqlarını deyil, həm də hüquqi şəxslərin və bizneslə məşğul olan şəxslərin də mənafeyini güdür. Beynəlxalq təcrübədən əldə olunan nəticələrə görə vergi yükünün azaldılması bir tərəfdən büdcəni lazımi vəsaitlərlə təmin edir, digər tərəfdən iqtisadi subyektlərin fəaliyyətini stimullaşdırmaqla vergidən yayınma hallarının və eləcə də, kölgə iqtisadiyyatının qarşısını alır. Bu baxımdan 2019-cu ildə nəzərdə tutulan büdcə-vergi siyasətində vergi yükünün azaldılması və güzəşt və azadolmaların tətbiqi sırf bu məqsədi daşıyır. Fərdi maraqlardan çıxış edərək qeyd edə bilərik ki, iqtisadi subyektlər leqal şəkildə fəaliyyət göstərməyə maraqlıdır. Vergi yükünün azaldılması ilə dövlət iqtisadi fəaliyyətlərin tam leqallaşmasına da nail olmuş olur.

2019-cu ilin büdcəsi hazırlanarkən neftin qiyməti bir barel 60 dollar olaraq qəbul edilmişdir. İndiki mövcud şəraitdə İran iqtisadiyyatına qoyulan məhdudiyyətləri nəzərə alaraq neftin qiymətinin 100-120 dollar arasında dəyişəcəyi ehtimalı da gözardı edilmir. Lakin siyasi məsələlərin öncədən dəqiq qiymətləndirilməsi çətin olduğundan və həmçinin, Azərbaycan Respublikasında büdcədə neft qiymətlərinin dəyişməsi ilə hər hansı dəyişiklik edilməsi üçün yenidən parlamentə qaldırlmasının mümkünlüyü neftin götürülən qiymətinin münasib olması qənaətini əks etdirir.

2019-cu il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin 59.8 % - i və ya 13700.3 milyon manatı neft sektorunun, 40.2 % - i və ya 9217.2 milyon manatı qeyri-neft sektorunun payına düşür. 2018-ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri 354.3 milyon manat və ya 2.7 % çox, qeyri-neft sektorunun gəlirləri isə 414.2 milyon manat və ya 4.7 % çoxdur.

Vergi yükünün azaldılması ilə büdcə gəlirlərinin artması zidd və mübahisəli məsələ olsa da, 2019-cu ilin birinci rübünün göstəricilərinə müvafiq olaraq deyə bilərik ki, yürüdülən siyasət öz gözlənilən nəticəsini vermişdir.Dövlət Gömrük Komitəsinin hesabatına görə bu ilin yanvar-mart aylarında DGK xətti ilə dövlət büdcəsinə 1 milyard 14 milyon 70 min manat həcmində vergi və rüsumlar daxil olub ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 287 milyon 80 min manat və ya 39,5% çoxdur.

Vergilər Nazirliyi tərəfindən verilən məlumata görə, bu ilin büdcə planı ilk rübdən etibarən özünü doğruldub. Baxmayaraq ki, adətən birinci rübdə gözlənilən nəticələr tam şəkildə əldə olunmur və ya gözləntilərdən daha aşağı olma ehtimalı qəbuledilən olur, 2019-cu il yanvar-mart ayları ərzində 2018-ci ilin müvafiq dövrünə əsasən 10.4 % artım müşahidə olunmuşdur.

Yekun olaraq qeyd edək ki, 2019-cu ilin I rübündə Vergilər Nazirliyi tərəfdən dövlət büdcəsinə 1672,9 milyon manat vəsait daxil edilib ki, bu isə 2018-ci ilin birinci rübü ilə müqayisədə 236,4 milyon manat və ya 16,5% çoxdu. Bu vəsaitin 70%-ə yaxın hissəsi, yaxud 1155,4 milyon manatı qeyri-neft sektorunun payına düşüb.

## NƏTİCƏ və TƏKLİFLƏR

Vergi qanunvericiliyində edilmiş və 1 yanvar 2019-ci il tarixdən qüvvəyə minmiş dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və onlara göstərilən xidmətlərin səviyyəsinin artırılması ilə yanaşı, vergi yükünün azaldılmasını da nəzərdə tutur. Bu da təbiidir, çünki Azərbaycanda həyata keçirilən vergi siyasətinin əsas hədəflərindən biri vergi yükünün optimallaşdırılması və vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsinin təmin edilməsidir. Vergi yükünün optimallaşdırılması məqsədilə bir sıra mallar və xidmətlər üzrə vergilərin dərəcələri tam və ya qismən azaldılmış, bir sıra vergi güzəştləri tətbiq olunmuşdur ki, bu da vergi ödəyiciləri üçün əlverişli vergi mühitinin yaranmasına şərait yaratmışdır. Vergi ödəyicilərinin müəyyən dövr ərzində həyata keçirdikləri təsərrüfat fəaliyyəti ilə bağlı ödədikləri vergilərin məcmusu vergi yükü hesab olunur və bu göstəricinin səviyyəsi vergi ödəyicisinin ödədiyi vergilərin onun əldə etdiyi gəlirlərə nisbəti kimi müəyyən edilir. Bir sıra beynəlxalq təşkilat və qurumlar dünya ölkələrinin müxtəlif metodologiyalar əsasında hesablanmış illik vergi yükü barədə məlumatları mütəmadi olaraq dərc etdirirlər. Dünya Bankının «Doing business» hesabatı (ümumi vergi dərəcəsi), Heritage Fondunun «İqtisadi azadlıq indeksi» kimi məlumatlar da bu qəbildəndir. «Doing business 2017» hesabatının Vergilərin ödənilməsi (Paying Taxes) indikatoru üzrə Azərbaycanın ümumi vergi dərəcəsi (o cümlədən sosial sığorta ödəmələri daxil olmaqla) 39,8% göstərilmişdir. Heritage Fondunun 2017-ci il üzrə dərc etdirdiyi rəsmi «İqtisadi azadlıq indeksi»ndə isə Azərbaycanın vergi yükü (sosial sığorta ödəmələri nəzərə alınmadan) 14,2% olmaqla 28-ci yerdə göstərilmişdir. Bu sıralamada vergi yükünün səviyyəsinə görə Azərbaycan bir çox ölkələrdən daha əlverişli mövqeyə malikdir.Dünya Bankı (DB) və "PricewaterhouseCoopers" (PwC) beynəlxalq audit şirkəti tərəfindən hazırlanan "Paying Taxes 2018" adlı icmalda Azərbaycan 35-ci yeri tutub. Azərbaycanın vergi yükü 39,8% təşkil edərək ötən illə müqayisədə dəyişməyib. "Bu göstərici

Mərkəzi Asiya və Şərqi Avropa üzrə orta göstərici olan 33,4%-dən yüksəkdir, lakin dünya üzrə orta göstərici olan 40,5%-dən azdır. Vergi yükünün böyük bir hissəsini (67%) əlavə dəyə vergisi və sosial ödənişlər təşkil edir", - deyə icmalda qeyd edilib. [23] Vergi siyasətinin və vergi inzibatçılığının tətbiqi zamanı vergi ödəyiciləri ilə dövlət arasında yeni mədəniyyətin sürətlə formalaşdırılması, şəffaf münasibətlər sisteminin qurulması 2018-ci ildə vergi orqanlarının qarşısında duran əsas vəzifələrdən biri idi. Lakin bu transformasiya dərhal baş verə bilməzdi, bunun üçün müəyyən vaxt tələb olunurdu və buna görə 2018-ci il vergi sahəsində dövlət-biznes münasibətlərində keçid dövrü kimi qəbul edildi.

Bu baxımdan 2018-ci il vergi orqanlarının fəaliyyətində ciddi dəyişikliklərlə müşayiət olundu. Vergi orqanlarının strukturu yenidən quruldu, kadr heyətində əsaslı dəyişikliklər aparıldı. Vergi orqanlarında əvvəllər mövcud olmuş bəzi neqativ təcrübələr aradan qaldırıldı. Vergi ödəyicilərinin rastlaşdıqları problemlərin operativ həlli üçün apelyasiya sistemi quruldu. Beləliklə, vergi islahatlarının əsas istiqaməti vergi orqanları və sahibkalar arasındakı münasibətlərin şəffaf və aydın qurulmasını əhatə edir.

Vergi islahatlarında müəyyən olunmuş ikinci istiqamət vergi inzibatçılığında ədaləti və rəqabəti təmin edəcək yanaşmadır. Vergi inzibatçılığının konseptual əsasını təşkil edən bu prinsiplər hamı üçün bərabər şərtlər, vicdanlı və intizamlı ödəyicilərin hüquqlarının qorunması, maksimal rəqəmsallıq, minimal müdaxilədir.

"Kölgə iqtisadiyyatı", uçot sisteminin iflic olması nəticə etibarilə vergi potensialının gizlədilməsinə, bazarın qeyri-sabitliyinə, neqativ hallar üçün münbit şəraitə imkan yaradırdı. Bu problemin həllində ciddi irəliləyiş əldə edilsə də, biz bu istiqamətdə öz səylərimizi davam etdirməliyik. Bu səbəbdən, 2018-ci ildə "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması vergi xidmətinin başlıca istiqaməti oldu. Uçot sisteminin bərpası üçün sahibkarlara vaxt verildi, geniş maarifləndirmə işi aparıldı. Bəzi sektorlarda, xüsusilə aksizli malların istehsalı və satışı, tibbi xidmətlər sektoru, şəbəkə ticarəti kimi sahələrdə nəzarət tədbirlərini artırmalı olduq. Müxtəlif vergi sxemlərindən istifadə etməklə, xüsusən biznesin bölünməsi, birgünlük şirkətlərin yaradılması praktikalarını geniş tətbiq edən bazar iştirakçıları ilə qarşılaşdıq. Bütün bunları analiz edərək bu sxemlərin qarşısını almaq üçün qanunvericilik və inzibatçılıq çərçivəsində gərəkli addımlar atıldı.

2018-ci ildə vergi sistemində aparılmış islahatların mühüm bir istiqaməti vergi qanunvericiliyinin liberallaşdırılması və əsaslı şəkildə yenidən işlənilməsi ilə bağlıdır. Vergilər Nazirliyinin qarşısında bu istiqamətdə iki mümkün ssenari vardı: birincisi, vergi yükünün artırılması yolu ilə gedərək daxilolmaların artımına çalışmaq, ikincisi isə vergi yükünü azaltmaqla "kölgə"yə çəkilmiş bütün biznes strukturlarını və vergi ödəyicilərini geniş və bərabərhüquqlu vergitutmaya cəlb etmək. Azərbaycan hökuməti vergi sistemində geniş spektrli islahatlara başlayarkən vergi yükünün artımı deyil, əksinə, azaldılması istiqamətini seçdi və bu, həm sosial ədalət, həm də iqtisadi nəzəriyyə prizmasından daha məqbul idi.

Sahibkarların böyük əksəriyyəti ədalətli, rəqabətli bir mühitdə çalışmaq niyyətindədir. Lakin biznesin müəyyən tərəddüdlərini hiss və müşahidə etmək mümkündür. Məhz bu səbəbdən, vergi qanunvericiliyinə edilmiş son dəyişikliklərdə aparılan islahatlara etimadı artırmaq üçün uzunmüddətli güzəştlər sistemi ilə möhkəmləndirdik. Xüsusilə, əmək münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişi sisteminin leqallaşdırılması məqsədilə verilmiş güzəştləri qeyd edilməlidir. Bu, kifayət qədər böyük güzəştlərdir və neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektorda əmək bazarının leqallaşması üçün əsaslı zəmin yaradıldı.

Təhlillər və müşahidələr onu göstərir ki, qeyri-neft sektorunun özəl bölməsində rəsmi əmək münasibətlərinin miqyası qeyri-rəsmi əmək münasibətləri ilə müqayisədə dəfələrlə kiçikdir. Qeyri-rəsmi əmək bazarının fəaliyyətindən ən çox zərər görən sıravi vətəndaşdır. Onlar faktiki olaraq sosial sığorta və pensiya təminatı sistemindən kənarda qalırlar.

Vergi islahatlarının qəbul edilməsi ilə yanaşı, istənilən nəticələri əldə etmək üçün hesab edilir ki. biznesin özünü tənzimləməsi də baş verməlidir. İndiyədək müəyyən sahələrdə aqressiv vergidənyayınma sxemlərindən geniş istifadə edilib ki, bu, yolverilməzdir. Artıq aydındır ki, Vergilər Nazirliyinin müasir rəqəmsal imkanları həmin sxemləri aşkara çıxararaq ləğv etməyə hazırdır. Bu gün vergi inzibatçılığının aktiv rəqəmsallaşdırılması prosesi davam edir. Vergi ödəyiciləri ilə münasibətlərdə birbaşa təmasın azaldılması məqsədilə ünsiyyətin rəqəmsallaşdırılması, vergi inzibatçılığında süni intellekt, bulud texnologiyaları, kibertəhlükəsizlik, böyük verilənlər bazasının təhlili və digər elementlərə keçid sürətləndirilib. Rəqəmsallaşma vergi inzibatçılığının effektivliyini artırır. Bu bizə yeni vergiləri tətbiq etmədən və ya onları artırmadan böyük sayda vergi ödəyicilərindən vergi toplamağa imkan verir.

İnnovativ texnologiyalar insan, biznes və dövlət arasında mövcud olan ənənəvi əlaqə üsullarını dağıdaraq, yeni biznes modelləri yaradır. Vergi orqanları çağırışlardan geri qalmamaq üçün öz rəqəmsal platformalarını yaratmağa məcburdur. Bu platformalar ətrafında vergi ödəyiciləri üçün iqtisadi mühit yaradılır. Vergi administrasiyasının rəqəmsal iqtisadiyyatın trendlərinə adaptasiyası vergi yığımlarını artırmağa və yaxşılaşdırmağa yardım edir. Vergi intizamının təmin edilməsi üçün direktiv və məcburi metodlar adekvat deyil. Məqsəd vergi ödəyicisinə öz fəaliyyətində cəmlənməyə və vergi öhdəliklərini yerinə yetirməkdə daha məsuliyyətli olmağa kömək etməkdir. Vergi administrasiyası sahibkaryönümlü yanaşma nümayiş etdirməyə hazırdır. Bu, kompleks fəaliyyətdir, vergi ödəyiciləri üçün komfortlu bir mühitin yaradılmasıdır. Bu siyasətin hədəfində hər şeydən öncə vergi ödəyicisi və vətəndaş məmnunluğu durur. Sahibkar vergi orqanı ilə təmas perspektivindən qorxmamalıdır.

2019-cu ilin büdcə-vergi siyasətinin əsas prioritetini muzdla çalışan işçilərin gəlirləri ilə bağlı islahatın həyata keçirilməsi təşkil edir. Bu islahatın əsasını neft-qaz sahəsində çalışmayan və özəl sektorunda fəaliyyət göstərən vergi ödəyicilərinin gəlir vergisinə güzəştin müəyyən edilməsi və məcburi dövlət sosial sığorta ayırmaları üzrə yükün işə götürən və işçi üzərinə düşən nisbətlərinin tənzimlənməsidir. Belə ki, aparılan islahat nəticəsində, ilk növbədə, vergi ödəyənlərin əsas hissəsinin vergi və məcburi sosial sığorta haqları ödənişləri üzrə yükün azaldılması, qeyri-rəsmi məşğulluğun azaldılması istiqamətində tədbirlərə yönəlmişdir. Aparılan islahatlara görə özəl sektorda çalışanların gəlir vergisi 8000 manatadək olduqda 100 %, 8000 manatdan yuxarı olduqda isə 44% vergi güzəşti tətbiq edilmişdir. Bundan başqa, bütün sahələrdə muzdla çalışanların gəlir vergisinə cəlb edilməyən hissəsi 173 manatdan 200 manatadək artırılmışdır.

İslahatın digər mühüm istiqaməti sosial sığorta haqlarının ödənilməsi üzrə işçilərin və işə götürənlərin üzərinə düşən yükün tənzimlənməsinə istiqamətlənmişdir. Belə ki, neft-qaz sahəsində çalışmayan və qeyri-dövlət sektora aid edilən işçilər gəlir vergiləri 200 manatadək olduqda 3%, 200 manatdan yuxarı olduqda 6 manat və 200 manatdan yuxarı olan hissənin 10 %-i, işə götürənlər isə 200 manatadək olduqda 22%, 200 manatdan yuxarı olduqda 44 manat və yuxarı olan hissəsinin 15%-i həcmində sosial sığorta haqları ödəyəcəkdir.

Təklif olunan islahatların tətbiqi nəticəsində dövlət büdcəsinə fiziki şəxslərdən daxil olan gəlir vergilərinin ümumi həcmində ilkin olaraq azalma müşahidə olunması proqnozlaşdırıl-

mışdır. Bununla yanaşı, növbəti dövrlərdə iqtisadi fəaliyyətin stimullaşdırılması, iş yerlərinin "kölgədən çıxması" və əmək haqlarının ödənməsinin şəffaflaşdırılması, həmçinin vergi inzibatçılığında tətbiq edilən yeniliklər sayəsində bu azalmanın artımla əvəz olunması və büdcəyə vergi daxilolmalarının mövcud səviyyəsini bərpa etməsi nəzərdə tutulmuşdur.

Aparılan islahatların ilkin dövrdə vergi daxilolmalarında azalma ilə nəticələnəcəyi ehtimal edilməsinə baxmayaq, Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə daxilolmalar kifayət qədər yüksək təmin olunmuşdur. Neft və qeyri-neft sektorundan daxil olan vergi ödənişləri də 2018-ci ilin rəqəmləri ilə müqayisədə 16,5% yüksək olmuşdur.

2019-cu ildə dövlət büdcəsi gəlirləri üzrə proqnozun 31.9 %-i Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən daxil olan gəlirlərin, 49.6%-i Azərbaycan Respublikası Dövlət Neft Fondundan transfertlərin, 15.1%-i Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tərəfindən daxil olan gəlirlərin, 3.4%-i digər gəlirlərin payına düşür.

Azərbaycanda vergi yükünün optimal səviyyədə olması qəbul ediləndir. Ölkəmizdə vergi yükünün səviyyəsi xarici ölkələrlə müqayisədə yüksək deyildir, buna görə də onun aşağı salınması məqbul hesab edilə bilməz.

Beləliklə, Azərbaycan Respublikasının vergi sistemində aparılan islahat və tədbirləri nəzərə alaraq, vergi yükünün optimallaşması üçün qarşıya aşağıdakı əsas məqsədlər qoyulmalıdır:

1. Vergi Məcəlləsinə əsasən Azərbaycan Respublikasının vergi sistemində tətbiq olunan vergi qanunvericiliyi və inzibatçılığını təkmilləşdirmək. Bu məqsədlə atılan addımlar ikiqat vergitutmanın aradan qaldırılması, vergidən yayınma hallarının azaldılması, vergi qanunvericiliyində mövcud qanunların gücləndirilməsi kimi istiqamətləri əhatə edə bilər.
2. İqtisadiyyatda tətbiq olunan vergi siyasətinin fasiləsiz inkişafını təmin etmək. Vergi siyasətində atılan adımlar ilk növbədə iqtisadiyyatın dirçəlməsinə yönəlməlidir. Azərbaycan Respublikasının vergi sistemində mövcud iqtisadi şəraitə uyğun olaraq mütəmadi olaraq dəyişikliklər öz əksini tapır. İqtisadi fəallığın artması məqsədilə vergi dərəcələrinin azaldılması heç də vergi daxilolmalarının azalması ilə nəticələnməməlidir. Düzgün qurulmuş və planlanmış vergi siyasəti üzrə vergi yükünün azaldılması qısamüddətli dövrdə vergi gəlirlərini azaltsa da, müəyyən dövr sonra onun artımı ilə nəticələnməlidir.
3. Optimal vergi yükünün təyin edilməsi ilə sahibkar və işçilərin fəaliyyətinin stimullaşdırılmasını təmin etmək. Nəzərə alsaq ki, neft sektorundan daxil olan gəlirlər daimi xarakter daşımır, neftin gəlirlilik dövründən maksimal dərəcədə faydalanmalı, iqtisadiyyatın digər sahələrinin stimullaşdırılması üçün şərait yaradılmalıdır.Bu məqsədlə, vergi dərəcələrinin azaldılması, aşağı gəlirli təbəqələrin maraqlarını güdməklə onlarda vergi ödənişlərinə həvəsin yaradılması, güzəştlərin tətbiq edilməsi, əmək haqlarında artımın təmin edilməsi kimi mühüm addımların atılmasına istiqamətlənmək lazımdır.

Beləliklə, dövlətin vergi siyasətinin təkmilləşdirilməsi tədbirləri üç istiqamətdə inkişaf etməlidir: dövlətə, işəgötürənə və işçiyə. Yalnız bu halda 2019-cu ildə tətbiq olunan vergi islahatlarından gözlənilən səmərəni əldə etmək olar.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı, 2018.
2. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu
3. Bulut C., Süleymanov E. Dövlət Maliyyəsi. Bakı: Qafqaz Universiteti. 2015, 333 s.
4. Həsənli M.X. Vergilər. Bakı, 1998.
5. Musayev F.A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı: Bestpack, 2014, 183 s.
6. Paşayev Z. Ş. Fiskal siyasət və onun səmərəliliyinin qiymətləndirilməsi. Bakı, 2009
7. Rzayev İ.M. (2008). Beynəlxalq vergitutmada ofşor mexanizmlərin tətbiqi. Bakı, İqtisad Universiteti, 215 s.
8. Vergilər və vergitutma: Ali məktəblər üçün dərslik / F.Ə. Məmmədov və başqaları. Bakı: Çaşıoğlu, 2012, 512 s.
9. Vergilər və vergitutma: dərs vəsaiti / Y.A. Kəlbiyev, F.A. Musayev redaktəsi ilə. Bakı: Təfəkkür NPM, 2004, 400 s.
10. Deloitte. Azərbaycan vergi xəbərləri / Vergi Məcəlləsinə dəyişikliklər.
11. Həsənov R., Həsənli A., Fiskal tənzimləmənin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi / Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu: elmi-praktiki konfransın materialları. Şamaxı, 2015.
12. Quliyev Ş.B. Vergi yükünün iqtisadi artıma təsirinin qiymətləndirilməsi: I və II tip laffer nöqtələrinin tapılması // Azərbaycanın Vergi jurnalı, 3/2013, səh. 149-158.
13. Mehdiyev M.M. SAS (RAS) metodu və 2009-cu ilin xərc-buraxılış əmsallarının yenilənməsi.//İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun Elmi Əsərlər Toplusu. IX buraxılış. 2009.
14. Musayev A.F., Qarayev İ.Ə. "Sosial siyasət və iqtisadi inkişaf" Azərbaycanın vergi jurnalı 2013 № 1.
15. Musayev F.A. Vergi siyasətinin perspektiv inkişaf istiqamətləri / Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu: elmi-praktiki konfransın materialları. Şamaxı, 2015.
16. Rzayev İ. M. Regionların davamlı sosial-iqtisadi inkişafında müasir vergi siyasətinin strateji istiqamətləri. Azərbaycanın vergi xəbərləri 7 saylı 2009-cu il tarixli.
17. Rzayev P.Q. Vergi yükünün optimallaşdırılmasının nəzəri əsaslarına bir baxış // Azərbaycanın Vergi Jurnalı, 5/2012, səh. 99-116.
18. Bağdınlı İ. Halil. Vergi yükü ve vergi rekabeti.
19. Laffer Arthur. The Laffer curve: Past, Present, and Future [Електроннийресурс]: Режимдоступу: http://www.heritage.org/research/Taxes/bg1765.cfrn. Алиев Б.Х. Налоги и налогообложение. Учебник Москва, 2007.
20. Sandmo, A.Optimal Taxation: An Introduction to the Literature //Journal of Public Economics, 1976, p. 37-54.
21. http://www.maliyye.gov.az/
22. http://www.taxes.gov.az/
23. https://oxu.az/economy/232522

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2019. Volume 3, Number 1* *Pages 62-68*

*UOT:338.45*

# NEFT YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİNİN İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**YUSİFZADƏ Pərvanə**

PAŞA Sığorta ASC

*PYusifzade@pasha-insurance.az*

**XÜLASƏ**

20 ilə yaxındır ki, Azərbaycanda xarici şirkətlərin iştirakı ilə neft-qaz yataqlarının işlənməsi həyata keçirilir. Onlarla razılaşma hasil olunan məhsulun bölgüsünə əsaslanır. Bununla yanaşı, hazırkı vaxtadək hasilatın pay bölgüsü haqqında sazişdən (HPBS) istifadə etməklə neft yataqlarının birgə işlənməsinin iqtisadi mexanizmlərinin elmi təhlili yerinə yetirilməmişdir.

Azərbaycanda hasilat payı bölgüsü haqqında sazişi (HBPS) tənzimləyən vahid qanun yoxdur ki, ona uyğun olaraq karbohidrogen ehtiyatlarının və digər təbii sərvətlərin işlənməsini və hasilatını həyata keçirmək mümkün olsun. Bunun nəticəsində Azərbaycan və xarici podratçı şirkətlər arasında imzalanan HPBS-nin şərtləri əhəmiyyətli dərəcədə fərqlənir və bu, hər bir ayrıca götürülən halda vergi mütəxəssislərinin və yerli auditorların mövcud bilik və təcrübələrinin tətbiqini çətinləşdirir. Beynəlxalq auditor şirkətlərinin təcrübəsi ona dəlalət edir ki, qanunun olmaması natəmiz maliyyə uçotu metodlarının tətbiqi üçün şərait yaradır.

**Açar sözlər:** neft-qaz yataqlarının istismarı, valyuta gəlirləri, renta, differensial renta.

## IMPROVEMENT DIRECTIONS OF ECONOMICAL MECHANISMS OF JOINT DEVELOPMENT OF OIL FIELDS

**ABSTRACT**

For over 20 years, oil and gas fields are being developed in Azerbaijan with the participation of foreign companies. The agreement with them is based on the distribution of the product derived. At the same time, no scientific analysis of the economic mechanisms for the joint development of oil fields using the PSA (PSA) has been implemented.

There is no single law governing the Production Sharing Agreement (HBPS) in Azerbaijan so that it will be able to develop and produce hydrocarbon reserves and other natural resources. As a result, the terms of the HPBS signed between Azerbaijan and foreign contracting companies vary considerably, and this makes it difficult for tax experts and local auditors to apply existing knowledge and experience in their separate cases. The experience of international auditing companies suggests that the lack of law creates conditions for the application of false financial reporting methods.

**Key words:** exploitation of oil and gas fields, currency revenues, rent, differential rent.

## НАПРАВЛЕНИЕ СОВЕРШЕНСТВОВАНИЙ ЭКОНОМИЧЕСКИХ МЕХАНИЗМОВ СОВМЕСТНОЙ РАЗРАБОТКИ НЕФТЯНЫХ МЕСТОРОЖДЕНИЙ

**РЕЗЮМЕ**

Уже более 20 лет в Азербайджане разрабатываются нефтяные и газовые месторождения с участием иностранных компаний. Соглашение с ними основано на распространении производного продукта. В то же время, научный анализ экономических механизмов совместной разработки нефтяных месторождений с использованием СРП (СРП) не проводился.

В Азербайджане нет единого закона, регулирующего Соглашение о разделе продукции (HBPS), чтобы он мог разрабатывать и добывать запасы углеводородов и другие природные ресурсы. В результате условия HPBS, подписанные между Азербайджаном и иностранными подрядными компаниями, значительно различаются, и это затрудняет для налоговых экспертов и местных аудиторов применение существующих знаний и опыта в их отдельных случаях. Опыт международных аудиторских компаний показывает, что отсутствие закона создает условия для применения ложных методов финансовой отчетности.

**Ключевые слова:** эксплуатация нефтяных и газовых месторождений, валютные доходы, рента, дифференциальная рента.

## Giriş

Dövlət valyuta gəlirlərinin əsas mənbələrindən biri olaraq Azərbaycanın neft sənayesi milli iqtisadiyyatın elə bir hissəsinə çevrilib ki, respublika hökuməti bazar iqtisadiyyatı şəraitində ümidlərini onun inkişafına bağlayıb. Bu sahənin cəlbediciliyi əsasən kifayət qədər karbohidrogen ehtiyatlarının olması, bazarın həcmi və onun artım təmayülləri, ərz və tələb səviyyəsi, gəlirliliyin orta bazar norması, yüksək ixtisaslı kadr ehtiyat və s. kimi amillərlə müəyyən edildi. Layihəyə iri kapital qoyuluşu, yüksək sərmayə riski, təbii-geoloji amillərdən və dünya bazarı konyunkturasından asılılığı nəzərdə tutan bu sahənin özünəməxsusluğu xarici şirkətlərin iştirakı ilə birgə sahibkarlıq fəaliyyətinin məqsədəuyğunluğunu şərtləndirir. Lakin sərmayə qoyuluşu həmişə müəyyən risklə müşayiət olunur: siyasi, texniki, iqtisadi və s. Bununla əlaqədar olaraq xarici sərmayədar üçün hər cür şərait yaradılmalıdır və bu şərait həm siyasi sabitliklə, həm də hüquq normalarının qəbul edilməsi ilə əlaqədar olmalıdır. Birgə sahibkarlıq fəaliyyətinin inkişafı bu sahəyə aid olan iqtisadiyyat elminin yeni mövzuları ilə əlaqədardır. Azərbaycanda birgə sahibkarlıq fəaliyyətinin təşkil edilməsinin nəzəriyyəsi və təcrübəsi faktiki olaraq müstəqillik illərində əmələ gəlib. Buna görə də elmi mövzulara, neft-qaz hasilatı sahəsində birgə sahibkarlıq fəaliyyətinin təşkil edilməsi və idarə olunması mövzusuna müraciət kifayət qədər aktualdır.

### Tədqiqat işinin metodu.

Tədqiqat əsnasında aşağıdakı iqtisadi təhlil üsulları istifadə olunurdu: müqayisə, statistik qruplaşdırma, ehtimallar nəzəriyyəsi, analitik üsul, mücərrəd məntiqi mühakimələr, elmi ümumiləşdirmələr. İllüstrasiya materialları neft-qaz hasil edən müəssisələrin faktiki göstəriciləri əsasında tərtib və təqdim olunurdu.

### Tədqiqat işinin müzakirəsi

Neft sənayesində rentanın əmələ gəlməsinin əsasını istehsal qüvvələrinin hazırkı səviyyəsində cəmiyyətin istifadə edə bildiyi neft ehtiyatlarının məhdudluğu təşkil edir.

Neft sənayesində rentanın əmələ gəlməsinin əsasını istehsal qüvvələrinin hazırkı səviyyəsində cəmiyyətin istifadə edə bildiyi neft ehtiyatlarının məhdudluğu təşkil edir. Həcm etibarilə kifayət qədər əhəmiyyətli və yataqlar üzrə qeyri-bərabər şəkildə bölüşdürülən renta əmələ gəlir və o, xaricdə yeraltı sərvətlərin sahibi qismində çıxış edən dövlətin gəliri kimi müxtəlif formalarda, tam və ya qismən tutulur. Renta ödənişi təbii sərvət istifadəçisi olan ödəyicilərin dövlət mülkiyyətinə aid olan təbii sərvətlərdən istifadə etmək hüquqlarını əldə etməsinin şərtidir. Qeyd olunur ki, diferensial renta həmin sərvətlərin təsnif edilməsi şəraitində, daha yüksək məhsuldarlıq əsnasında (qeyri-dəyişkən ərz şəraitində) yataqlardan istifadə nəticəsində əldə olunan gəlirdir. Sənayenin hasilat istiqamətlərində birinci və ikinci formalı diferensial renta əmələ gəlir. Diferensial renta iki formada təzahür edir: I diferensial renta, onun əmələ gəlməsini sahənin məhsuldarlıq (neft hasilatı əsnasında neft-qaz ehtiyatlarının həcmi) üzrə fərqi və yerləşdiyi yer şərtləndirir, habelə II diferensial renta, onun əmələ gəlməsini yatağın işlənməsinə sərf edilən əlavə istehsal xərclərinin (lay təzyiqlərinin qorunub saxlanmasına, layların neft məhsuldarlığının yüksəldilməsinin ikinci və üçüncü dərəcəli üsullarının tətbiq edilməsinə və s. çəkilən xərclər) səmərəsi üzrə fərqlər şərtləndirir.

Sərmayədarlarla neft-qaz yataqlarının işlənməsi haqqında neft müqavilələri imzalanarkən diferensial renta müəyyən edilməlidir. Xarici ölkələrin təcrübəsindən göründüyü kimi, I

və II diferensial renta dövlətin təbii sərvət yataqlarının işlənməsindən əldə etdiyi gəlirin əsas mənbələrindən biridir. Qeyd etmək lazımdır ki, bütün neft müqavilələrində bu və ya digər həcmdə I və II diferensial renta nəzərdə tutulmuşdur. I diferensial renta hər akr üzrə ayırmalar formasında müqavilələrə daxil edilmişdir, II diferensial renta isə müqavilənin əhatə etdiyi ərazidə yeraltı sərvətlərdən istifadə hüququnun əldə edilməsi üçün mükafat şəklində və mənfəətli neft şəklində, əmtəə formasında, ümumi gəlirin bir hissəsi kimi dövlətin gəlirlərinə daxil edilir.

Aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, miqdar etibarilə diferensial renta sahə üzrə orta xərcin və daha məhsuldar sahələrdə əldə olunan fərdi məhsul xərcinin fərqinə bərabərdir. Məsələn, "Azneft" istehsalat birliyi üzrə çıxarılan neftin 1 tonu üçün orta sahə xərci 329 manat, "Bibiheybətneft" neft-qaz hasilatı idarəsi üzrə isə çıxarılan neftin 1 tonu üçün xərc 179 manat təşkil edir. Məhz bu göstəricilər arasındakı 150 manatlıq fərq diferensial rentanın miqdarla ifadəsidir. Birgə işlənən yataqlarda əmələ gələn diferensial renta Azərbaycan dövlətinin neft yataqları üzərində mülkiyyət hüququnun həyata keçirilməsi vasitəsini təşkil edir. Bununla yanaşı, xarici əməliyyat şirkətləri ilə imzalanmış neft-qaz kəşfiyyatı və hasilatı haqqında müqavilələrdə məhsul bölməsi nəzərdə tutulur. Dövlətin payı mənfəətli neft formasında müəyyən edilir və o, hər sazişdə fərqli olur və təmiz mənfəət məbləğinin ümumi xərc məbləğinə nisbətindən (rentabellik (R) əmsalı), akr üzrə ödənişlərdən, tranzit haqqından, bir dəfəlik ödənişlərdən (mükafat) və s. asılı olur.

Diferensial rentanın əmələ gəlməsi və onun məbləğinə təsir göstərən amillər 1-ci sxemdə göstərilir

Sxem 1.

| | | | | |
|---|---|---|---|---|
| Həddən artıq mənfəət mənbəyi | Hansı ki, həddən artıq mənfəətin əldə edilməsini qısa müddətli edir | Hansı ki, həddən artıq mənfəətin əldə edilməsini daimi edir (təsərrüfat işləri yer üstündə həyata keçirilərkən) | Bunun nəticəsində həddən artıq mənfəət torpaq rentasının əsasını təşkil edir | Torpaq rentasının miqdarla ifadəsi |
| Fərdi əmək məhsuldarlığı orta sahələr arası səviyyədən yüksəkdir | Sahə daxili rəqabət | Təsərrüfat obyekti kimi torpaq üzərində inhisar hüququ | Diferensial renta | orta sahələr arası istehsal xərclər çıxılsın fərdi istehsal xərcləri |

Hazırkı şəraitdə yataq sahibi əksər hallarda kapital xərclərdə, təsərrüfat qərarlarının qəbul edilməsində iştirak edir, məhsulda pay şəklində, mənfəətdə pay şəklində renta alır. Bu cür təcrübə Azərbaycan Respublikasında da tətbiq olunur.

Hazırda neft-qaz layihələrinin texniki-iqtisadi qiymətləndirilməsinə dair ayrıca tərtib olunmuş rəsmi sənəd yoxdur. Bununla əlaqədar olaraq aşağıda biz "Neft yatağının kəşfiyyatı və işlənməsi layihəsinin texniki-iqtisadi qiymətləndirməsinə" dair blok-sxem təklif etmişik. Bu sxemdə layihə qiymətləndirməsinin texnoloji ardıcıllığı nəzərdə tutulur. O, layihənin texniki (geoloji tədqiqatların nəticələrinin analizi), tələb olunan xərcləri hesablamaqla axtarış-kəşfiyyat işlərini, neft-qaz ehtiyatının qiymətləndirməsini, neft-qaz vermə imkanının müəyyən edilməsini, məhsul hasilatı sxemlərini və yataqların işlənməsi variantlarının iqtisadi səmərəsinin aşkarlanmasını əhatə edir.

Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə sərmayə layihələrinin səmərəsini qiymətləndirmək üçün əsasən aşağıdakı meyarlar istifadə olunur:

1) xalis cari dəyər (NPV),
2) daxili mənfəətlilik norması (gəlirlilik, rentabellik) (IRR),
3) mənfəətlilik indeksi (PI),
4) güzəştli maya çıxarma müddəti (DPP).

"Neft yatağının kəşfiyyatı və işlənməsi layihəsinin texniki-iqtisadi qiymətləndirməsi"nin blok-sxemi

Sxem 2.




Azərbaycanda hasilat payı bölgüsü haqqında sazişi (HBPS) tənzimləyən vahid qanun yoxdur ki, ona uyğun olaraq karbohidrogen ehtiyatlarının və digər təbii sərvətlərin işlənməsini və hasilatını həyata keçirmək mümkün olsun. Bunun nəticəsində Azərbaycan və xarici podratçı şirkətlər arasında imzalanan HPBS-nin şərtləri əhəmiyyətli dərəcədə fərqlənir və bu, hər bir ayrıca götürülən halda vergi mütəxəssislərinin və yerli auditorların mövcud bilik və təcrübələrinin tətbiqini çətinləşdirir. Beynəlxalq auditor şirkətlərinin təcrübəsi ona dəlalət edir ki, qanunun olmaması natəmiz maliyyə uçotu metodlarının tətbiqi üçün şərait yaradır.

Digər neft ölkələrinin təcrübəsini nəzərə alaraq, iş əsnasında lisenziyaların verilməsinin (sərmayədarların yeraltı sərvətlərdən istifadə hüququnu həyata keçirməsinə icazə verilməsi) hərraclar vasitəsilə həyata keçirilməsinin və verilən konkret sahədə təbii sərvətlərdən istifadə üçün I rentanı nəzərə alaraq lisenziyaların qiymətinin təyin edilməsinin məqsədəuyğunluğu əsaslandırılmışdır.

Ölkədə sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsində əhəmiyyətli rol oynayan amillərdən biri sahibkarlıq fəaliyyətinin bəzi növlərinin lisenziyalaşdırılmasıdır. Yeraltı sərvətlər haqqında 13.02.1998-ci il tarixli qanuna uyğun olaraq, yeraltı sərvət istifadəçilərinin hüquq və öhdəlikləri onlara təyin edilmiş qaydada xüsusi icazənin (lisenziya) verildiyi andan başlanır. Buna baxmayaraq, bu qanunun bəzi müddəaları, o cümlədən yeraltı sərvətlərin xüsusi icazə, yəni lisenziyalaşdırma vasitəsilə istifadəyə verilməsi tətbiq olunmur.

HPBS-nin lisenziyalaşdırmadan fərqi ondan ibarətdir ki, HPBS hasil edilən neft və qazın ümumi miqdarının bir hissəsi üzərində hüququ nəzərdə tutur. HPBS daha geniş parametrlər (maliyyə və qeyri-maliyyə) çeşidi təklif edir və bunların köməyi ilə dövlət podratçının fəaliyyətinə təsir göstərə bilir. Bu parametrlərə HPBS-nin müddətlərini, mənfəətli neftə qoyulan əlavə vergiləri, podratçının üzərinə qoyulan ixrac rüsumlarını və ixrac vergilərini aid etmək olar. Bütün bunlar bir yerdə daha çox çeviklik təmin edir və iqtisadi vəziyyətin dəyişməsinə daha yaxşı uyğunlaşmağa imkan verir. Lisenziya daha məhdud miqdarda parametr nəzərdə tutur və onlar yalnız maliyyə səciyyəsi daşıyır (neft yataqlarının işlənməsi üçün icarə haqqı, təmiz mənfəət payı, ümumi gəlirdən pay, həddindən yüksək mənfəətə qoyulan vergi və xüsusi neft vergiləri). Təcrübədə lisenziyalaşdırmanın bu cür xüsusiyyəti hasilatın bölgüsü parametrlərini lay məhsuldarlığından asılı vəziyyətə salır. Bu saziş forması adətən layın məhsuldarlığı yüksəldikcə dövlətin gəlirinin faiz nisbətinin artmasını nəzərdə tutur.

Bazar iqtisadiyyatlı ölkələrdə əsas fondların amortizasiya ayırması xüsusi fondda – amortizasiya fondunda toplanır. Bu vəsaitlərin təyinatı üzrə istifadəsi ölkə hökuməti tərəfindən ciddi surətdə nəzarətdə saxlanır. Onlar yalnız əsas kapitala sərmayə kimi istifadə oluna bilər. Amortizasiya fondu vəsaitlərinin başqa məqsədlərə sərf edilməsi üçün şirkətlər hökumətdən xüsusi icazə almalıdır. Eyni zamanda amortizasiyaların bu hissəsi vergi qoyma obyektinə çevrilir. Amortizasiya ayırmalarının sərmayələrin maliyyələşdirilməsinə yönəldilən bir hissəsi vergidən azad olunur və bu, sərmayə üçün vergi imtiyazı hesab olunur. Yaponiyada sərmayələrin demək olar ki yarısı, Almaniyada 60 – 65 faizi, ABŞ-da 65 – 70 faizi amortizasiya fondu vəsaitlərinin hesabına maliyyələşdirilir. Azərbaycanda bazar iqtisadiyyatına keçidlə eyni vaxtda amortizasiya ayırmalarının istifadəsinə dövlət nəzarəti ləğv edildi. Bununla da müəssisələrə imkan verildi ki, onlar amortizasiya ayırmalarını öz istəklərinə uyğun olaraq, yəni əsas kapitala sərmayə qoyuluşuna aid olmayan məqsədlərin maliyyələşdirilməsinə sərf etsinlər. Bundan əlavə, hazırda amortizasiya ayırmaları müəssisənin vergi qoyma bazasının istismar edilməsi üçün istifadə olunan mühüm vasitələrdən biridir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, amortizasiya ayırmalarından istifadə məsələlərini beynəlxalq standartlara uyğunlaşdırmaq lazımdır və Respublikanın Dövlət Statistika Komitəsi Azərbaycanın Milli Hesablar Sistemini işləyib hazırlayarkən məhz bu cür etmişdir. İş orasındadır ki, hələ 2002-ci ildə "Azərbaycanın Milli Hesablar Sistemi" Respublikanın Dövlət Statistika Komitəsi tərəfindən işlənib hazırlandı, Ədliyyə, İqtisadi inkişaf və Maliyyə nazirlikləri ilə razılaşdırıldı və təsdiqləndi. Rəsmi norma təyin edici sənəd kimi bu sənəddə nəzərdə tutulmuşdur ki, amortizasiya ayırmaları şirkətlərin (müəssisələrin) ümumi mənfəətinə daxil edilsin. Bundan əlavə, Respublika Nazirlər kabinetinin qərarına uyğun olaraq hər il İqtisadi İnkişaf Nazirliyi tərəfindən ölkənin "Ümumi maliyyə büdcəsi" işlənib hazırlanır və büdcə sənədlərinin içində Milli Məclisə təqdim olunur. Bu zaman amortizasiya ayırmaları təsərrüfat subyektlərinin ümumi mənfəətinə daxil edilir. Bu məsələnin həm də amortizasiya

ayırmalarının yalnız kapital xərclərinin maliyyələşdirilməsinə sərf edilməsini nəzərdə tutmayan ölkənin neft yataqlarının birgə işlənməsi haqqında müqavilələrə birbaşa aidiyyəti var. Amortizasiya ayırmalarını neftin maya dəyərinə daxil etməklə mənfəət vergisinin bazası azaldılır. Bu azaldılmış bazadan istismar və kapital xərcləri çıxılır və bununla da mənfəətli neftin həcmi azaldılır. Beynəlxalq standartlardan fərqli olaraq, Azərbaycanda neft-qaz hasilatında, o cümlədən HPBS əsasında işləyən müəssisələrdə amortizasiya ayırmaları istehsal xərclərinin tərkibinə daxil edilir. Belə bir fakta diqqət yetirmək lazımdır ki, illik amortizasiya ayırmalarının məbləği təxminən 3 milyard manat təşkil edir, 2014-cü ildə isə onun həcminin təxminən 5 milyard manat olacağı proqnozlaşdırılmışdır. Bu vəsaitlərin hamısının sərmayə məqsədləri üçün istifadəsi əsas kapitala daxili sərmayələrin 40%-ini maliyyələşdirməsinin artmasına imkan verərdi.

## Nəticə

Tədqiqat işi nin təhlili aşağıdakı nəticələrə gəlməyimizə səbəb olmuşdur:

- neft sənayesinin özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla, differensial rentanın dövlət gəliri kimi formalaşmasının nəzəri cəhətləri ümumiləşdirilməli;
- neft yataqlarının kəşfiyyatı və işlənməsi sahəsində birgə müəssisələrin itkisiz fəaliyyətinin planlaşdırılmasına dair blok-sxem işlənib hazırlanmalı;
- yataqların işlənib hazırlanmasının ən yaxşı variantının seçilməsinə dair bir necə hesablama variantı təklif olunmalı
- iqtisadi tənzimləmə üsulları (pul-kredit, valyuta, vergi, qiymət və xarici ticarət siyasəti), xarici və birgə müəssisələrin yaradılmasının təşkilati formaları (təşkilati quruluşlar və xarici kapitalın cəlb edilməsinə göstərilən köməyin forması), sərmayə infrastrukturu (hərracların, sərgilərin, müsabiqələrin, sərmayədarlar və bəhrələnən tərəflərin forumlarının keçirilməsi), xarici sərmayələrin mühafizəsi (Azərbaycanın sərmayələrin sığortalanması haqqında beynəlxalq sazişlərə qoşulması, sığorta agentliyinin yaradılması), hüquqi normalar sistemini (milli-hüquqi tənzimləmə) nəzərdə tutan və yataqların birgə işlənməsinin iqtisaditəşkilati-hüquqi mexanizmlərinin təkmilləşdirilməsinə aid olan təkliflər işlənib hazırlanmışdır; təbii sərvətlərdən istifadə üçün vergi qoyulmasının təkmilləşdirilməsinə, yəni yataqların işlənməsinin mərhələsini nəzərə alaraq mədən vergisinin dərəcələndirilməsinə, habelə ətraf mühitin çirkləndirilməsi üçün xüsusi verginin tətbiq edilməsinə dair tədbirlər həyata keçirilməli;
- Azərbaycanın neft sənayesi sahəsində imzalanan keçmiş müqavilələrdə təsbit olunan "yerli bazarın neftinin" qeydiyyatını nəzərdə tutan, vergi qoyulmasını nəzərə alan, birgə müəssisələrdə mənfəətli hasilat həcminin müəyyən edilməsinə aid olan yeni metodik yanaşma müəyyən olunmalı və praktikaya tətbiq olunmalı.

### ƏDƏBIYYAT SIYAHISI


1. Birgə müəssisələrdə neft hasilatının itkisiz həcminin müəyyən edilməsi.// AMEA İqtisadiyyat İnstitutu "Elmi əsərlər toplusu", Bakı, 2009,№3, s.243-249.
2. Iqtisadi tədqiqatlar və neftqazçıxarmada istehsal səmərəliliyi məsələləri. //AMEA İqtisadiyyat İnstitutu "Elmi əsərlər toplusu", Bakı, 2009, №3, s. 237-242.
3. Neft-qaz hasilatı sahəsində sərmayə layihələrinin iqtisadi səmərəsinin qiymətləndirilməsinin göstəriciləri. //AMEA İqtisadiyyat İnstitutu "Elmi əsərlər toplusu", Bakı, 2010,№1, s.266-272.
4. Neft yataqlarının birgə işlənməsinin iqtisadi-təşkilati-hüquqi mexanizmlərinin təkmilləşdirilməsi. //Moskva, "Neft, qaz və biznes", № 6 2011, səh. 43 – 47.

5. Xarici sərmayələrin təşkilati-hüquqi cəhətləri və xüsusiyyətləri. //Azərbaycan neft təsərrüfatı, Bakı, 2011, №12 səh. 52-60.
6. Neft-qaz hasilatı üzrə məhsulun bölgüsü haqqında sazişin icrası əsnasında qərarın qəbul edilməsi. AMEA İqtisadiyyat İnstitutu "Iqtisadiyyat" (xəbərlər), Bakı, № 2, 2011, s.112-117
7. Respublikanın neft sənayesində yeniliklər. //AMEA Elmi İnnovasiya Mərkəzi "Beynəlxalq Elmi-Praktiki Konfransın materialları" Bakı- "Elm" 2011, s.111-112
8. Neft sənayesində sərmayələr və vergiqoyma sisteminin təkmilləşdirilməsi.// "KazNİPİmunayqaz" SC, "Beynəlxalq elmi-təcrübi konfransın materialları", Aktau, 2013, 2-ci hissə, səh. 509-511

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2019. Volume 3, Number 1* *Pages 69-75*

*UOT: 338.47*

# RABİTƏ XİDMƏTLƏRİ BAZARININ KOMPLEKS TƏDQİQATI PROBLEMLƏRİ

**HƏŞİMOVA A.Ç.**

Azərbaycan Dövlət İqtisad Universiteti

**XÜLASƏ**

Məqalədə, rabitə sahəsində bazar münasibətlərinin formalaşması və inkişafı prosesi tədqiq olunur. İnfrastruktur sahəsi olan rabitənin spesifik xarakteristikaları, o cümlədən, yaradılan son məhsulun xüsusiyyətləri ilə, onun istehsalı zamanı texnoloji proseslərin təşkili ilə, sahənin digər əlamətləri ilə şərtləndirilən xüsusiyyətlər müəllifin xüsusi diqqətini cəlb etmişlər. Rabitə bazarının marketinq tədqiqatlarına metodik yanaşmalar səciyyələndirilir.

**Açar sözlər**: rabitə bazarı, bazar tənzimləyiciləri, marketinq fəaliyyəti, bazarın seqmentləşməsi, kvantifikasiya.

**ПРОБЛЕМЫ КОМПЛЕКСНОГО ИССЛЕДОВАНИЯ РЫНКА УСЛУГ СВЯЗИ**

**РЕЗЮМЕ**

В статье проведено исследование процесса формирования и развития рыночных отношений в отрасли связи. Особое внимание автором уделено **специфическим характеристикам рынка связи,** обусловленным особенностями создаваемого конечного продукта, организации технологических процессов его производства и другими чертами отрасли связи, как отрасли инфраструктуры. Характеризуются методические подходы к маркетинговым исследованиям рынка связи.

**Ключевые слова**: рынок связи, регуляторы рынка, маркетинговая деятельность, сегментация рынка, квантификация.

**PROBLEMS OF A COMPLEX RESEARCH OF THE MARKET OF COMMUNICATION SERVICES**

**ABSTRACT**

In article the research of process of formation and development of the market relations in branch of communication is conducted. Special attention is paid by the author to the specific characteristics of the market of communication caused by features of the created final product, the organization of technological processes for its production and other features of the communications industry as a branch of an infrastructure industry. Methodical approaches to market researches of the market of communication are characterized.

**Keywords:** communication market, market regulators, marketing activity, market segmentation, quantification.

## Giriş

Əmtəə-pul münasibətləri şəraitində təkrar istehsal prosesinin mühüm fazasında istehsal olunmuş əmtəə və xidmət öz alıcısını tapır, bununla da özünün nə dərəcədə əhəmiyyətli olmasını təsdiqləyir-mübadilə bazarda baş verir. Qeyd etmək lazımdır ki, rabitə sahəsində bazar münasibətlərinin formalaşması və inkişafı prosesinin istehsalın və xidmətlərin istehlakının spesifikasından asılı olaraq bir sıra mühüm xüsusiyyətləri vardır. Həmin xüsusiyyətlər rabitə xidmətləri bazarı tədqiq olunarkən mütləq nəzərə alınmalıdır ki, onların əsasında rabitə sahəsinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri, üsul və mexanizmləri müəyyənləşdirilir **[8, 9, 12]**.

Praktiki baxımından rabitə xidmətləri bazarı rabitə xidmətlərinin satıldığı xarici mühit kimi xarakterizə edilə bilər. Burada operatorlar özlərinin kommersiya səylərini həyata keçirir, xidmətləri sataraq müvafiq gəlir əldə edirlər, abonentlər xidmətləri satın alaraq müxtəlif informasiyanın qəbulu və göndərilməsi ilə bağlı öz tələbatlarını təmin edirlər.

Rabitə bazarı istənilən əmtəə bazarı kimi bir sıra mühüm sosial-iqtisadi funksiyaları yerinə yetirir: [8,9,12]: o, birbaşa və əks rabitə əlaqələri vasitəsi ilə istehsal və istehlak arasında birləşdirici halqa rolunu oynayır; alqı-satqı əməliyyatı aktları zamanı yaranan xidmətlərin ictimai cəhətdən nə qədər faydalı olması müəyyənləşir; bazar real olaraq onların dəyərini ictimai zəruri əmək məsrəflərinə əsasən müəyyənləşdirir və onlara konkret operatorlarla fərdi məsrəfləri korrelyasiya etməyə imkan yaradır. Araşdırılan bazar üçün istehsal edilən ümumi xidmət növləri, ərazini əhatə etməsi, rəqabət səviyyəsi və digər əlamətlərinə görə təsnifatını aparırlar.

Deyilənlərlə yanaşı qeyd etmək lazımdır ki, telekommunikasiya bazarının spesifik xüsusiyyətləri vardır, həmin xüsusiyyətlər son məhsulun yaradılması, həmin məhsulun istehsalının təşkil edilməsinin texnoloji xüsusiyyətləri və bütünlükdə rabitənin infrastruktur sahəsi kimi digər xüsusiyyətlərindən asılıdır.

Belə bir vəziyyət isə öz növbəsində rabitə bazarının vəziyyəti və inkişafı ilə bağlı spesifik araşdırma üsullarının tətbiq edilməsini, rabitə sferasında əmək məhsuldarlığının yüksəldilməsi, yüksək keyfiyyətləri olan şəxsi və ictimai tələbatların tam olaraq təmin olunması üçün bazar tənzimləyicilərindən daha səmərəli və tam istifadə olunmasını tələb edir [1-4].

Geniş məzmunda rabitə bazarının araşdırılması problemi marketinq araşdırmalarının bir hissəsidir, tərkibinə aşağıdakılar daxildir:

1) Bazar proseslərinin və bazar faktorlarının bazar elementlərinə (tələb, təklif) təsirinin öyrənilməsi, onların qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi;

2) Həmin problemdən irəli gələn bazar elementlərinin vəziyyətinin qiymətləndiriməsi;

3) Bazar proseslərinin və bazar elementlərinin proqnozlaşdırılması [9,12,13].

Bu vəzifələrin həlli tələb və təklifin real həcmi, strukturu, onların tarazlıq səviyyəsi haqqında real təsəvvürlər əldə etməyə, bazar mexanizmlərinin fəaliyyətinin səbəb-nəticə əlaqələrini və gələcək vəziyyətini müəyyənləşdirməyə imkan yaradır.

Tələb və təklifin ən vacib tərkib hissələri olduğu rabitə bazarının tədqiqinə məqsədli yanaşma zamanı bu proses – həmin bazarın idarə olunmasına dair elmi cəhətdən əsaslandırılmış tövsiyələri formalaşdırmaq imkanı verən informasiyanın alınması, emalı və təhlilindən ibarətdir.

Rabitə bazarının araşdırılması metodologiyasının tətbiqi əhəmiyyəti – bazarın və müxtəlif istehlakçı qruplarının tələblərinin tam ödənilməsi ilə eyni zamanda maksimal iqtisadi mənfəətin əldə edilməsinə xidmət edən satiş fəaliyyətinin hazırlanması və həyata keçirilməsi üçün zəruri olan, bazar prosesinin bütün tərkib hissələrinin dinamikası, keyfiyyət dəyişiklikləri və inkişaf meylləri barədə informasiyanın alınması və məqsədyönlü təhlil edilməsi üçün operator-şirkətlərin alətlər toplusu ilə təmin edilməsindən ibarətdir.

Rabitə bazarının daha ümumi formada araşdırılmasına bir-biri ilə qarşılıqlı əlaqədə olan istiqamətlər daxildir: onların kəmiyyəti, tələbatları, tələb motivləri, ənənəvi və yeni xidmətlərə tələbinin müəyyənləşdirilməsi baxımından istehlakçı bazarının təhlili; xidmətlərin nomenklaturası, istehlakçı tələblərinin keyfiyyət parametrləri və xüsusiyyətlərinə uyğunluğunun müəyyənləşdirilməsi, xidmətlərin mühüm silsilələrinin qiymətləndirilməsi baxımından əhəmiyyəti; istehlak səviyyəsinin nəzərə alınmaqla tələbin tədqiqi, bazar konyunkturasının inkişaf təmayüllərinə təsir edən amillərin müəyyənləşdirərək qiymətləndirilməsi (şəkil 1).

Bazarın öyrənilməsi ilə bağlı marketinq fəaliyyətinin qeyd edilən istiqamətləri bir-biri ilə sıx bağlıdır, sistemli təhlillərin aparılması tələb olunur. Burada bir istiqamətdə aparılan araşdırmaların nəticəsi digər araşdırmaların çıxış və istinad nöqtəsinə çevrilir. Eyni zamanda nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatında istehsal istehlakçıların konkret tələbatlarının təmin olunmasına tabe edilmişdir. Bu səbəbdən tələbin formalaşması və dinamikası, həmçinin sahənin və onun təsərrüfat subyektlərinin marketinq konsepsiyası əsasında araşdırılaraq strategiyanın hazırlanması bütünlükdə rabitə bazarının problemləri kompleksində mühüm yer tutur.

Tələb bazar iqtisadiyyatının fundamental anlayışıdır, pul imkanları ilə güclən-dirilmiş istehlakçıların konkret zaman ərzində, müəyyən həcmdə əmtəə və xidmətləri əldə etmək arzusudur. Rabitə xidmətlərinin alıcısı davranışının motivləri və maliyyə imkanları eyni olmaya da bilər, bu zaman bazarın seqmentləşdirilməsinə ehtiyac yaranır. Bunun üçün isə bütün istehlakçılardan bu və ya digər sövq edici motivlərə eyni cavab verən ayrı-ayrı istehlakçı qrupu xüsusi olaraq seçilir (müəyyən xidmət növlərinə, tariflərin dəyişilməsinə, servis xidmətinin səviyyəsinə münasibət və s.) [5-9].).




**Şəkil. 1.2.1** Rabitə bazarının kompleks araşdırılmasının əsas istiqamətləri

Bazarın seqmentləşdirilməsi təkcə potensial istehlakçıların kəmiyyətini müəyyənləşdirməyə imkan yaratmır, eyni zamanda onların xidmətlərinin yerini müəyyənləşdirməyə də imkan yaradır. Burada ən vacib məsələlər aşağıdakılardır: müştərinin cəlb edilməsi üçün hansı xüsusiyyətlər tələb olunur, həmin rabitə vasitələrindən daha intensiv istifadə edilməsi üçün nə etmək lazımdır kimi, bir sıra digər suallara cavab axtarılır.

İnfrastruktur sahəsi kimi rabitənin mühüm xüsusiyyətlərindən biri kimi rabitə xidmətlərinin istehlakının ümumi xarakter daşıması göstərilə bilər. Bu isə rabitə bazarını qlobal masştabda nəzərdən keçirməyə şərtləndirir. Həmin bazar ölkənin bütün əhalisini və ərazisini əhatə edir. Lakin, onların tip yaradan amillərin və bazar şəraitində davamlı əlaqələr üzərində qurulmuş çox ölçülü təsnifatını nəzərdə tutan istehlakçı tipologiyası baxımından, iki fərqli seqmentlər göstərilir: şəxsi (fərdi) istehlak qrupu (əhali) və ictimai istehsalın işgüzar sektoru ya seqmenti [9,12].

Yuxarıda qeyd edilən seqmentin tip yaradan amillərdən asılı olaraq hər birinə daxil olan istehlakçıların yarım seqmentləri (qruplar) xüsusilə göstərmək olar. Həmin amillər istehlakın xarakteri və intensivliyini, davranış motivlərini, xidmətlərin istehlak xüsusiyyətlərinə olan tələbi, xidmətlərin göstərilməsi qarşılığında maliyyə ödənişləri imkanlarını müəyyənləşdirir. Bütün bunlar sxematik olaraq şəkil 2-də göstərilmişdir.

İstehlak bazarının hər bir seqmenti və yarımseqmentinin tərkibində kəmiyyət etibarı ilə çox böyük sayda istifadəçilər vardır, bu isə öz növbəsində istehlakçıların araşdırılmasını çətinləşdirir, belə bir vəziyyət isə onlardan əsas qrupları formalaşdıranları, ən əsas olanı, konkret rabitə xidmətləri bazarındakı dominantları seçməyə məcbur edir (məqsədli yarımseqmentlər) [9].




**Şəkil. 2.** Rabitə xidmətləri istehlakçılarının tipologiyası

Pareto qanununa uyğun olaraq əsas istehlakçıların seçilməsi və onlarla fəal iş müəssisənin sabit gəlirini və onun müsbət dinamikasını təmin edir, tələbin proqnozlaşdırılması üzrə marketinq araşdırmalarına zaman və maliyyə məsrəflərini ixtisar edilir [14].

Statistik məlumatlar göstərir ki, XX əsrin 60-cı illərində Qərbi Avropa və Yaponiyada telekommunikasiya sektorunun ən iri istehlakçıları maddi istehsal sahəsi müəssisələri, xidmət, bölgü müəssisələri olmuşdur. Həmin müəssisələr 43%-dən 70%-nə qədər xidmətlərin istehlakçıları olmuşdur. 70-ci illərdən bu təmayül dəyişir, xüsusi istehlak sahəsinin sürətli inkişafı nəticəsində ictimai istehsal istehlakçılarının payı əhəmiyyətli dərəcədə azalır [9].

Azərbaycan Respublikasında bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması şəraiti üçün xarakterik olan xüsusiyyət istehlakçı strukturunda əks təmayülün müşahidə olunmasıdır. Bütün bunlar isə iqtisadiyyatda qeyri sabitliklə, əhalinin bir hissəsinin həyat səviyyəsinin pisləşməsi, bir çox sahələrdə istehsalın həcminin azalması ilə bağlıdır. Eyni zamanda bazar infrastrukturlarının sürətli inkişafı: birjalar, banklar, vasitəçi, turist, riyeltor və digər şirkətlər rabitə xidmətlərindən fəal surətdə istifadə edərək əsas rabitə xidmətlərinin mübadilə formasında istehlakının çəkisini "ictimai istehsal" seqmentinin istehlakçılarının xüsusi çəkisində artırırdı.

Deyilənlərlə yanaşı əhaliyə şəhərlərarası və beynəlxalq rabitə, İnternet, mobil rabitə xidmətləri göstərilməsinə görə əldə edilən gəlirlərin xüsusi çəkisi artmışdır. Bütün bunlar isə ondan xəbər verir ki, Azərbaycan Respublikasında iqtisadi artım istehlakçıların strukturunda inkişaf etmiş sənaye ölkələrindəki təmayüllərə uyğun tendensiyaları müşahidə etməyə səbəb olacaqdır.

İstehlakçılarla bağlı marketinq araşdırmalarının nəticələrinin təhlili və rabitə xidmətləri bazarının seqmentləşdirilməsi prosesini reallaşdırma mərhələləri və müvafiq istiqamətlər və məzmuna uyğun təşkil edilməsi tövsiyə olunur (cədvəl 1). İstehlakçı əlamətlərinə görə seqmentləşdirmə xidmətlər növünə uyğun həyata keçirilməlidir.

**Rabitə xidmətlərində marketinq araşdırmaları baxımından nomenklaturada mövcud olan mövqelərin differensiallaşdırılması tələb olunur.**

- **texnologiyaların eyni olmasına görə: yerli, şəhərlərarası, beynəlxalq rabitə xidmətləri;**
- **istifadəçi kateqoriyalarına görə: əhali, müəssisə və təşkilatlar;**
- **xidmət siniflərinə əsasən: əsas və əlavə;** texniki qurğuların mübadiləsi və təqdimatı formasında; **ictimai və müqavilə; kütləvi və fərdi; bir-birini tamamlayan və əvəz edən;**
- **xidmətin üstün istiqamətlərinə görə: adi və təcili;**
- **yenilik və həyati silsilə səviyyəsinə əsasən: baza (ənənəvi) və yeni.**

**Cədvəl 1.** Elektrorabitə xidmətlər istehlakçılarının marketinq araşdırmalarının istiqamətləri və məzmunu

| Tədqiqatın istiqamətləri | Tədqiqatın məzmunu |
|---|---|
| 1. Tədqiqat məqsədinin müəyyənləşdirilməsi | 1.1. Operator-şirkətlərə gəlirlərin 75-80%-ni təmin edən əsas istehlakçı qruplarının müəyyənləşdirilməsi |
| 2. Məlumatın toplanması konsepsiyasının işlənib hazirlanması | 2.1. Xidmət istehlakçılarının, ödəniş mübadiləsi şəklində təqdim olunan əhəli birdəfəlik müayinəsini keçirilməsi müddətinin (ay, həftə) təyin olunması<br>2.2. Texniki vasitələrin təqdim olunması şəklində müqavilələrin təhlili müddətinin təyin olunması<br>2.3. Daxili informasiya mənbələrinin müəyyənləşdirilməsi: xidmət istehlakçıları ilə müqavilə |
| 3. Məlumatın toplanması | 3.1. İnformasiya mərkəzlərinin müqavilə yaxud hesablama şöbələrində müayinə icraçılarının təyin olunması.<br>3.2. İnformasiya formalrının, rekvizitlər siyahısinin hazırlanması |
| 4.Tədqiqatın nəticələrinin təhlili | 4.1. Tipoloji əlamətlər üzrə seqmentləşdirmə<br>4.2. Başlıca istehlakçıların və əsas qrupların müəyyənləşdirilməsi |
| 5. Əldə edilmiş nəticələrin təqdimatı və tövsiyələrin işlənib hazırlanması | 5.1. Tələbin tədqiqi və proqnozlaşdırılması üzrə məqsədyönlü işin aparılması üçün, istehlakçıların cari və perspektiv strukturunun qiymətləndirilməsi işinin nəticələrinin formallaşdırılması |

**Mənbə:** Müəllf tərəfindən hazırlanmışdır

**Marketinq araşdırmalarına metodiki yanaşmalar rabitə xidmətlərinin fiziki məzmunundan, onların istehsalı və istehlakı xüsusiyyətlərindən asılı olaraq dəyişilir. Mübadilə formasındakı xidmətlərə mövsümü, aylıq, həftəlik, gündəlik qeyri bərabərlik xarakterikdir. Onun strukturu operator şirkətlər vasitəsi ilə yaradılan son istehlak effektinin kəmiyyət baxımından təhlil edilməsi üçün ilkin informasiyanı təqdim edir.**

**Texniki qurğular formasında xidmətlərin müəssisələrdə ilkin uçotu aparılmalı, ərizə və müqavilə şəklində qeyd olunmalıdır. Belə olan təqdirdə istehsalçı və istehlakçılar arasında daimi əlaqə vardır, həmin proses ərzində xidmətlərin araşdırılması və təhlil edilməsi vəzifələri həll olunur.**

**Xidmətlər nomenklaturasının genişlənməsi və onların keyfiyyətinin yüksəlməsini tələbin formalaşması və stimullaşdırılmasında ən mühüm faktorlardan biri hesab etmək lazımdır.**

Rabitə istehlakçılarının araşdırılması göstərir ki, tələbə təsir göstərən səbəb və amillər, məsələn informasiya mübadiləsinin operativliyi, qeyri qanuni müdaxilə və istifadə hallarında müdafiə, keyfiyyət və rabitə xidmətlərinin əl çatan olması istehlakçı seçiminə çox güclü təsir göstərir, ancaq dəyər amillərinə (istehlakçıların gəlirləri və tariflərə) görə sıralamalardan geri qalır [8,9,10].

Rabitə xidmətləri bazarının fərqli xüsusiyyətlərindən biri də xidmətlərin bir-birini əvəz etməsi və bir-birini tamamlamasıdır. Birinci halda bazarda yeni, keyfiyyət parametrləri yaxşılaşdırılmış xidmətlərin meydana gəlməsi ilə ənənəvi xidmətlərə tələb azalır. Tipik nümunə kimi elektron poçtun inkişaf etməsi ilə teleqraf və poçt vasitəsi ilə və digər telematik xidmətlər vasitəsi ilə informasiyanın ötürlməsinə olan tələblərin azalması göstərilə bilər. İkinci halda bir-birini tamamlayan xidmətlərin inkişafı tələbin fəallaşmasına səbəb olur, onun formalaşması və təmin olunmasında mühüm sahə amili kimi nəzərdən keçirilir.

Praktiki araşdırmalar göstərir ki, elektrik rabitə xidmətlərinə tələb çox saylı amillərin kompleks təsiri ilə bağlıdır. Həmin amilləri aşağıdakı qruplar üzrə birləşdirmək olar (cədvəl 2) [5,7,9,11,15]:

**Cədvəl 2.** Xidmətlərə olan tələbata təsir edən amillər

| Amillər qrupu | Bazar seqmenti (istehlakçılar) | |
|---|---|---|
| | Əhali | İşgüzar sektor |
| I. Xarici amillər<br>1 Sosial-demoqrafik | 1.1 Hər növ xidmətlərin istifadəçilərinin mütləq sayı<br>1.2. Yaşayış yeri<br>1.3 Təhsil səviyyəsi<br>1.4.Fəaliyyət növü<br>1.5 İşgüzar əlaqələri | 1.1 Hər növ xidmətlərin istifadəçilərinin mütləq sayı<br>1 2 Mülkiyyət növü<br>1.3 Fəaliyyət sferası<br>1.4 Filialların və xarici istehsalat əlaqələrinin mövcudluğu |
| 2 Davranış | 2.1 Ay ərzində elektron poçta daxil olan mesajların bir istehlakçıya düşən sayı<br>Rabitə seansının orta müddəti | 2.1 Ay ərzində elektron poçta daxil olan mesajların bir işləyənə düşən sayı<br>2.2 Rabitə seansının orta müddəti |
| 3 İqtisadi | *3.1.* Ailənin aylıq orta gəliri<br>3.2. Elektron poçt üçün ayrılan gəlirlərin xüsusi çəkisi (ailə gəlirlərinidən, %-lə) | 3.1 Müəssisənin elektron poçt xərcləri səviyyəsi (müəssisə gəlirlərindən, %-lə) |
| II. Daxili amillər<br>1. Rabitə növünün inkişaf səviyyəsi | 1.1 Modemlərin sayı<br>***1.2 ABTS-ə çıxışın olması*** | 1.1 Modemlərin sayı<br>***1.2 ABTS-ə çıxışın olması*** |
| 2. Xidmətlərin və müştəri xidmətinin keyfiyyəti | 2.1 Çağırış cəhdlərinin ümumi sayında məlumatın ötürülməsi ilə nəticələnən çağırışların faizi | 2.1 Çağırış cəhdlərinin ümumi sayında məlumatın ötürülməsi ilə nəticələnən çağırışların faizi |
| 3 Qarşılıqlı əvəzlənən və qarşılıqlı tamamlanan xidmətlərin təsirini nəzərə alan amillər | 3.1 Ümumi istifadə şəbəkəsində əhalinin 100 nəfərinə düşən telefon aparatlarının sayı<br>3.2 Qarşılıqlı əvəzlənən və qarşılıqlı tamamlanan xidmətlərin rabitə seanslarının bir dəqiqəsinin qiyməti | 3.1 Ümumi istifadə şəbəkəsində əhalinin 100 nəfərinə düşən telefon aparatlarının sayı<br>3.2 Faksların, abonent teleqrafı qurğularının sayı<br>3.3 Qarşılıqlı əvəzlənən və qarşılıqlı tamamlanan xidmətlərin rabitə seanslarının bir dəqiqəsinin qiyməti |
| 4 Tarifləri səciyyələndirən amillər | 4.1Elektron poçt mesajının göndərilməsinin 1 dəqiqəsinin qiyməti<br>4.2 Modemin qeydiyyata alınma qiyməti<br>4.3 Abunə haqqı | 4.1 Elektron poçt mesajının göndərilməsinin 1 dəqiqəsinin qiyməti<br>4.2 Modemin qeydiyyata alınma qiyməti<br>4.3 Abunə haqqı |

**Mənbə:** Müəllf tərəfindən hazırlanmışdır

Rəqabət xidmətinin istehlakı amillərin sayı müxtəlif zaman mərhələlərində, bazarın müəyyən istehlak seqmentində azala və yaxud çoxala bilər, eyni zamanda onların təsir səviyyəsi yüksələ və ya azala bilər. Burada eyni zamanda tələbə təsir göstərən amillərin kvantlaşdırılması[2] imkanları məhduddur. Ancaq ayrı-ayrı amillər kvantlaşdırıla bilər, onların təsir səviyyəsi müvafiq iqtisadi-riyazi və statistik üsullar vasitəsi ilə gələcəkdə qiymətləndirilə bilər [9, 13]. Bu səbəbdən də amillərin dəyərləndirilməsi zamanı daha mühüm olanını, xidmətlərin təklifini və istehlakçıların davranışını formalaşdıran istehlakçı və istehsalçı mühitini daha tam şəkildə xarakterizə edən əsas amillər seçilməlidir.

**ƏDƏBİYYAT**


1 Azərbaycan Respubliksının Konstitusiyası, Bakı, 1995

2 "Telekommunikasiya haqqında" AR Qanunu (2005il.)

3 "Azərbaycan respublikasında informasiya cəmiyyətinin inkişafına dair Miili Strateqiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"

4 «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri. AR Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı

5 Aras O.N., Süleymanov E. Azərbaycan İqtisadiyyatı. "Şərq-Qərb" mətbəəsi, Bakı. 2016,412 s.

6 Əliyev Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. Dərs vəsaiti. Bakı, "Təhsil", 2017,136s.

7. Rəhmanov F.P. Respublikada sosial siyasətin təkmilləşdirilməsi problemləri. Azerbaycan Dovlət İqtisad Universitetinin Elmi xəbərləri, cild 5, aprel- iyun 2017

8. Болданова Е. В. Рынок услуг связи: учеб. пособие / Е. В. Болданова. Иркутск : Изд-во БГУЭП, 2010. -232 с.

9. Голубицкая Е.А. Экономика связи: учебник для студентов вузов; - М.:ИРИАС, 2006.- 488с

10. Жигульская Г.М. Тарифы на услуги связи - проблемы регулирования. //Вестник связи, № 7, 2012

11. Каграманзаде А. Г. Этапы развития Телекоммуникации Азербайджана. Баку. «Элм». 2011. 726 с.

12. Клепиков С.А., Горбачев В.Л., Макаров В.В., Якубов И.В. Формирование рыночных отношений в телекоммуникациях/ТНаука Кубани/Краснодар.-2003.-№1.

13. Резникова Н.П. Маркетинг в телекоммуникациях. - М.: Эко-Трендз, 2012.

14. Рейман Л.Д. Совершенствование системы государственного регулирования отрасли телекоммуникаций. -СПб, 2008.

15. Фронтов В.В., Тихвинский В.О. Регулирование телекоммуникаций в России и странах СНГ: Учебное пособие для вузов. - М.: Горячая линия-Телеком, 2006. - 368 с.


[2] Amillərin təxmini kvantlaşdırılması - isethlakçıların gəlirləri, xidmətlərin tarifi, istehlakçıların demoqrafik xüsusiyyətləridir; qeyri kvantlaşdırılmış faktorlar- xidmətlərin həyati silsilələri, onun rəqabətqabiliyyətliliyi, ETT-nin elementləri

*2019. Volume 3, Number 1* *Pages 76-80*

*UOT: 338*

# DEVALVASİYANIN AZƏRBAYCANDA REAL SEKTORUN İNKİŞAFINA TƏSİRİ

**FÜZULİ ƏLİYEV, ÜZEYİR BAYRAMLI**
Bakı Mühəndislik Universiteti
Maliyyə kafedrası
*faliyev@beu.edu.az, uzeyir.bayramov.91@mail.ru*

**XÜLASƏ**

2015-ci ildə ölkəmizdə baş vermiş devalvasiya iqtisadiyyatın müxtəlif sahələrinə olduğu kimi, real sektorun inkişafına da təsir göstərmişdir. Bu təsirin öyrənilməsi, habelə ölkə iqtisadiyyatının davamlı inkişafının qorunması üçün bu təsirin öyrənilməsi və inkişaf strategiyasının müəyyənləşməsi əhəmiyyətlidir. Bu səbəbdən məqalədə əvvəlcə devalvasiyanın real sektora göstərdiyi təsir öyrənilmiş və daha sonra bu sektorun inkişafının təkmilləşdirilməsi yolları müzakirə edilmişdir. Məqalənin birinci hissəsində Azərbaycanın qeyri-neft və real sektorunun cari vəziyyəti və inkişaf potensialı təhlil edilmişdir. Daha sonra devalvasiyanın tikinti, geyim, qida və s. kimi sahələrə təsiri faktlarla araşdırılmışdır. Tədqiqatın sonunda real sektorun böhrandan çıxması və daha sürətlə inkişaf etməsi üçün həyata keçirilməli tədbirlər təklif edilmişdir.

**Açar sözlər:** devalvasiya, bank, real sektor, sahibkarlığın inkişafı

**THE IMPACT OF DEVALUATION ON DEVELOPMENT OF REAL SECTOR IN AZERBAIJAN**

**ABSTRACT**

The devaluation experienced in 2015 affected real economy as it did in other sides of economy in Azerbaijan. It is important to study this effect to determine development strategy of economy and to maintain sustainable development. Therefore, this paper first examines impact of devaluation on real sector, then discusses rapid development ways of real sector. For this purpose, in the first part of the paper we analyzed current situation and development potential of Azerbaijan's non-oil and real sector economy. Then we examined impact of devaluation on construction, textile, food and etc. sectors. At the end of paper, we summarized the situation and suggested some proposals for faster development of real sector.

**Key words**: devaluation, banking, real sector, entrepreneurship development

**ВЛИЯНИЕ ДЕВАЛЬВАЦИИ НА РАЗВИТИЕ РЕАЛЬНОГО СЕКТОРА В АЗЕРБАЙДЖАНЕ**

**РЕЗЮМЕ**

Произошедшая в 2015 году девальвация повлияла на реальную экономику, как и на другие стороны экономики в Азербайджане. Важно изучить этот эффект для определения стратегии развития экономики и поддержания устойчивого развития. Для этого в первой части статьи мы проанализировали текущую ситуацию и потенциал развития экономики ненефтяного и реального секторов Азербайджана. Затем мы рассмотрели влияние девальвации на строительный, текстильный, пищевой и др. секторы. В конце статьи мы суммировали ситуацию и предложили несколько предложений по более быстрому развитию реального сектора.

**Ключевые слова**: девальвация, банк, реальный сектор, развитие предпринимательства

## Giriş

**Devalvasiya,** milli valyutanın xarici valyuta ilə müqayisədə dəyərinin azalması olub, valyutanın məzənnəsinin artması mənasını verən revalvasiya termininin əksidir [2]. Devalvasiya çox müxtəlif yönləri ilə kompleks bir problemdir. Psixoloji, sosial, iqtisadi və siyasi faktorlar diqqətə alınaraq nəzərdən keçirilməlidir. Yəni devalvasiya bir pul sistemi olmayıb, cari pul sistemindəki valyutada psixoloji, sosial, iqtisadi və siyasi faktorların təsiriylə həyata keçi-

rilən iqtisadi bir əməliyyatdır[4;5]. Devalvasiyanı, meydana gətirəcəyi nəticələri əvvəldən müəyyən edilə bilən bir sistem olaraq qəbul etmək mümkün deyil.

Azərbaycanda 2015-ci ildə yaşanmış devalvasiya iqtisadiyyatın müxtəlif sahələrinə öz təsirini göstərmişdir. Həm bu təsirlərin tənzimlənməsi, həm də iqtisadiyyatın ümumi inkişafının təmin edilməsi üçün6 dekabr 2016-cı il tarixindəAzərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə *Strateji Yol Xəritəsi* qəbul edilmişdir. İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi ilə hər bir sahənin yaxın, orta və uzaq perspektivdə dəqiq inkişaf konturları müəyyən olunmuşdur. Artıq strateji yol xəritələrinin və ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafını ehtiva edən qərarların sürətlə icrası prosesi başlamışdır.

## Azərbaycanda real sektor və inkişafı

Real sektorun inkişafı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. "Standard & Poor`s" (S&P) beynəlxalq reytinq agentliyi 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul istehsalının (ÜDM) artımını 3,5% səviyyəsində olacağını proqnozlaşdırır. Agetliyin məlumatına əsasən, Azərbaycan iqtisadiyyatı ucuz neft dövrünə adaptasiyanı davam etdirir. Agentliyin mütəxəssisləri əlavə edirlər ki, 2018-ci ildə Azərbaycanda iqtisadiyyatı artımı bərpa etmişdir. Belə ki, mütəxəssislərin proqnozuna əsasən, gələn il ÜDM 2% (nominal həcm 44 mlrd. dollar), 2019-cu ildə 3,5% (47 mlrd. dollar), 2020-ci ildə 3,5% (48 mlrd. dollar) artacaq. S&P hesab edir ki, 2017-ci ildə Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcmi 5,5%, 2018-ci ildə 3,5%, 2019-cu ildə 2,5%, 2020-ci ildə isə 2,5% artacaq [6]. Mütəxəssislərin fikrincə, bu beynəlxalq qiymətləndirmə fonunda ölkə iqtisadiyyatının uğurulu inkişaf yolundan danışmaq mümkündür.

Ancaq keçən dövr ərzində baş vermiş qlobal iqtisadi böhran bir tək Azərbaycanı deyil, dünyanın bütün ölkələrini əhatə etmişdir. 2014-cü ilin ortalarından etibarən dünya bazarlarında neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi neft hasil edən ölkələrin iqtisadiyyatında böhranın daha da dərinləşməsinə səbəb olmuşdur. Azərbaycan hökumətinin böhrana qədərki dönəmdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində gördüyü tədbirlər nəticəsində ümumi daxili məhsulun həcmində qeyri-neft sektorunun payı 50%-dən 70% səviyyəsinə çatdırmaq mümkün olmşdur. Lakin iqtisadiyyatın real sektorundan ixracın kifayət qədər ola bilməməsi səbəbindən neftin qiymətləri kəskin aşağı düşdükdən sonra ölkənin maliyyə sistemində bəzi çətinliklər ortaya çıxmışdır.

2015-ci ildə milli valyutanın iki dəfəyə yaxın dəyər itirməsi ilə nəticələnən iki kəskin devalvasiya bank sistemində problemlərin yaşanmasına səbəb oldu. Bank sistemində yaranmış bu vəziyyət öz növbəsində iqtisadiyyatın normal şəkildə kreditləşdirilməsinə imkan vermədi. Yaranmış bu hal ölkədə real sektor da daxil olmaqla ümumi iqtisadiyyatın inkişafı üçün bəzi tədbirlərin həyata keirilməsini zəruri etdi. Çevik addımlar atılmaqla iqtisadi böhrandan mümkün qədər tez çıxmağın yolları müəyyənləşdirildi. Artıq 2015-ci ilin son aylarından başlayaraq bir-birinin ardınca ölkə iqtisadiyyatının real sektorunun və onun əsasını təşkil edən azad sahibkarlığın inkişafına geniş meydan açan çox ciddi qərarlar qəbul edilməyə başlandı.

## Devalvasiyanın real sektor təsir istiqamətləri

Azərbaycanda real sektora devalvasiyanın təsirini müşahidə etmək üçün Statistika Komitəsinin verdiyi bəzi məlumatlarına nəzər salaq.

**Cədvəl 1.** Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı (vahid)

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| **Bütün mülkiyyət növləri üzrə** | **2 514** | **2 527** | **2 534** | **2 583** | **2 561** |
| Dövlət mülkiyyəti | 562 | 564 | 560 | 577 | 573 |
| Qeyri-dövlət mülkiyyəti | 1 952 | 1 963 | 1 974 | 2 006 | 1 988 |
| xüsusi mülkiyyət | 1 731 | 1 730 | 1 717 | 1 752 | 1 734 |
| kollektiv mülkiyyət | - | - | - | - | - |
| birgə (qarışıq) mülkiyyət | 86 | 82 | 80 | 75 | 73 |
| xarici mülkiyyət | 135 | 151 | 177 | 179 | 181 |
| **Mədənçıxarma sənayesi** | **289** | **318** | **322** | **325** | **298** |
| **Emal sənayesi** | **1 795** | **1 764** | **1 762** | **1 778** | **1 775** |
| Qida məhsullarının istehsalı | 427 | 439 | 389 | 382 | 391 |
| Geyim istehsalı | 75 | 75 | 57 | 52 | 60 |
| Poliqrafiya fəaliyyəti | 140 | 142 | 147 | 157 | 140 |
| Kimya sənayesi | 73 | 70 | 72 | 69 | 75 |
| Rezin və plastmas məmulatların istehsalı | 93 | 89 | 95 | 98 | 92 |
| Tikinti materiallarının istehsalı | 220 | 209 | 230 | 239 | 224 |
| Maşınvə avadanlıqlardanbaşqahazırmetalməmulatlarınınistehsalı | 93 | 86 | 85 | 75 | 83 |
| Maşınvə avadanlıqlarınquraşdırılması və təmiri | 72 | 83 | 104 | 120 | 130 |

**Mənbə:** https://www.stat.gov.az/source/industry/

Cədvəl 1-ə əsasən demək olar ki, ölkədə devalvasiya sonrası bütün mülkiyyət növləri üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin sayında ciddi dəyişiklik baş verməmişdir. Bununla belə poliqrafiya fəaliyyəti, tikinti materiallarının istehsalı kimi sahələrdə azalma baş verdiyi halda geyim istehsalı, qida məhsullarının istehsalında artım baş vermişdir. Bu sahələrdən qida məhsullarının istehsalına devalvasiyanın təsirinin zəif olması dövlətin bu sahəyə göstərdiyi qayğı ilə izah edilə bilər.

Aqrar sektorun inkişafı və ərzaq məhsullarının istehsalının artırılması üçün yeni texnologiyaların və müasir texnikanın cəlb edilməsi həlledici əhəmiyyət kəsb edir. Lakin yeni texnologiyaların cəlb edilməsi, müasir kənd təsərrüfatı texnikalarının alınması böyük vəsaitlər tələb etdiyindən dövlətin dəstəyi olmadan bu sahədə dönüş yaratmaq mümkün olmazdı. Bunu nəzərə alaraq Azərbaycan prezidenti 2004-cü ildə "Aqrolizinq" ASC-nin yaradılması barədə sərəncam verib. "Aqrolizinq" ASC-yə mineral gübrələrin, pestisidlərin, texnoloji avadanlıqların, tinglərin, buğda toxumlarının, cins damazlıq heyvanların ölkəyə gətirilib istehsalçılara çatdırılması və digər funksiyalar həvalə edilib.

"Aqrolizinq" ASC dövlət büdcəsi hesabına alınmış kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlar fiziki və hüquqi şəxslərə dəyərinin 20 faizini qabaqcadan, qalan hissəsini isə 10 il müddətinə qədər (dəyərindən asılı olaraq) ödəmək şərti ilə lizinqə verir və ya lizinq yolu ilə satır. İndiyədək "Aqrolizinq" ASC xəttiylə 9452 ədəd müxtəlif markalı kənd təsərrüfatı texnikaları alınıb [6]. Bununla belə bu sahədə inkişafın təmin edilməsi üçün kənd təsərrüfatı işçilərinin banklarla əməkdaşlığına ehtiyac vardır. Beləliklə, devalvasiyadan sonra belə qida məhsullarının istehsalı ilə yanaşı bəzi sahədə artım, bəzilərində isə azalma baş vermişdir.

Bundan başqa devalvasiya nəticəsində məhsulların istehsalı zamanı müəssisələrin məhsul istehsalı üçün çəkdiyi xərclərdə də artım olmuşdur. Müəssisələr bu artımdan mənfi təsirlənməmək və xərc balansını qorumaq üçün digər xərclərdə azalma aparmışdır.

**Cədvəl 2. Məhsul istehsalına sərf edilmiş xərclərin strukturu, yekuna nisbətən, faizlə**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| **Cəmi xərclər** | **100** | **100** | **100** | **100** | **100** |
| material xərcləri | 47,9 | 45,9 | 47.4 | 46.2 | 49.0 |
| əsas fondların amortizasiyası | 13,2 | 11,9 | 13.1 | 13.1 | 11.0 |
| əməkhaqqı xərclərivə sosialehtiyaclaraayırmalar | 14,5 | 13,2 | 12.6 | 12.2 | 11.3 |
| sair xərclər | 24,4 | 29 | 26.9 | 28.5 | 28.7 |
| **Mədənçıxarma sənayesi** | **100** | **100** | **100** | **100** | **100** |
| material xərcləri | 42,6 | 45 | 37.9 | 35.4 | 42.1 |
| əməkhaqqı xərclərivə sosialehtiyaclaraayırmalar | 19,2 | 17,4 | 18.0 | 18.5 | 16.5 |
| **Emal sənayesi** | **100** | **100** | **100** | **100** | **100** |
| material xərcləri | 52,8 | 45,5 | 49.5 | 43.7 | 51.2 |
| əməkhaqqı xərclərivə sosialehtiyaclaraayırmalar | 10,8 | 9,4 | 9.4 | 10.1 | 7.3 |

**Mənbə:** https://www.stat.gov.az/source/industry/

Cədvəl 2-də verilmiş məhsul istehsalına sərf edilmiş xərclərin strukturuna əsasən material xərclərində artım baş vermişdir. Bu artım xüsusilə emal sənayesində görülür. Əmək haqqı xərcləri və sosial ehtiyaclara ayırmalarda isə azalma baş vermişdir. Bu, devalvasiyanın həm bu sektorda işləyənlərin gəlirlərinə və sosial ehtiyaclarına mənfi təsir etdiyini, buna ayrılan xərclərin azalmasını və nəticədə ümumi xərclərdə bütünlükdə artımın az olmasına səbəb olmuşdur.

## Nəticə və təkliflər

Hazırda ölkədə ən böyük problem ixtisaslaşmış bankların olmamasıdır. Ölkədə bankların hamısı universal banklar hesab olunur. Real sektorun, xüsusilə istehsalatın inkişafını stimullaşdıran amillərdən biri ixtisaslaşmış bankların yaradılmasıdır. Məsələn, Azərbaycanda aqrar bankların yaradılmasına çox böyük ehtiyac var. Maliyyə çatışmazlığından əziyyət çəkən sahələrdən biri də məhz kənd təsərrüfatı sahəsidir. Bundan əlavə, investisiya, ixracı stimullaşdıran banklar yaradıla bilər. Azərbaycanda bunun əvəzinə dövlət Sahibkarlığın İnkişafına Yardım Fondu, İnformasiya Texnologiyaları Fondu, Elm Fondu və sair bu kimi qurumlar təsis etdi. Bu fondlar ölkədə real sektorun kreditə olan tələbatını tam ödəyə bilməz.

Bu gün real sektorun inkişafında bankdan kənar problemlər həddən artıq çoxdur. İstehsalatda problemlər həllini tapmayınca, banklar bu sahəyə kredit ayırmağı riskli saya bilirlər. Əks halda, Sahibkarlığın İnkişafına Yardım Fondunun xətti ilə sahibkarlara kredit verməklə vəziyyəti düzəltmək mümkün olmayacaqdır. Mərkəzi Bank tərəfindən kommersiya banklarına ayrılan mərkəzləşdirilmiş kreditlərin də həcmi kəskin şəkildə artıb. Hazırda mərkəzləşdirilmiş kreditlərin həcmi 20 faizə qədər çatıb. Bu vəsait bankların sırf sağlamlaşdırılmasına yönələn kreditlərdir. Günümüzdə bankların xarici çıxış imkanları genişləndirilməlidir, ya da neft gəlirlərinin bir hissəsi ölkə iqtisadiyyatına yönəldilməlidir.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Azərbaycanda devalvasiya: səbəb və nəticələr- http://www.xalqqazeti.com/az/news/economy/66718-Dünyamalı VƏLİYEV,iqtisad üzrə elmlər doktoru,AMEA Şərqşünaslıq İnstitutuŞərq-Qərb şöbəsinin müdiri
2. Boyd, J. H., Levine, R., & Smith, B. D. (2001). The Impact of inflation on financial sector performance, Journal of Monetary Economics, 47(2), 221-248.
3. Devalvasiya və onun iqtisadiyyata təsiri- https://murtuzayevsahil.wordpress.com/2016/05/05/məqalə/
4. J.A.Frankel, "No Single Currency Regime Is Right For All Countries or at All Times", 1999, NBER Working Papers No 7338, http://www.nber.org/papers/w7338
5. Девальвация валюты: причины, понятие, последствия, https://www.sravni.ru/enciklopediya/info/devalvacija-valjuty-prichiny-ponjatie-posledstvija/
6. http://www.azerbaijans.com/content_1771_az.html
7. https://az.trend.az/azerbaijan/
8. https://www.stat.gov.az/source/industry/
9. https://president.az/articles/

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2019. Volume 3, Number 1* *Pages 81-86*

***UOT: 334.012.62/.64***

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İQTİSADİ İNKİŞAFA TƏSİRİ İLƏ BAĞLI MÜASİR YANAŞMALAR

**SAMİR ORUCOV**
ADA Universiteti
*sorujov@ada.edu.az*
Bakı / AZƏRBAYCAN

**HƏZİ EYNALOV**
Bakı Mühəndislik Universiteti
*heynalov@beu.edu.az*
Bakı / AZƏRBAYCAN

**XÜLASƏ**

KOS (Kiçik və Orta Sahib karlıq) və iqtisadi inkişaf arasında səbəbiyyət əlaqəsinin olub-olmaması son onilliklərdə həm iqtisadi elmi ədəbiyyatda, həm də ictimai müzakirələrdə qızğın müzakirə mövzusu olmuşdur. Bu gündə KOS və iqtisadi inkişaf arasında səbəbiyyət əlaqəsinin olub-olmaması mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Ədəbiyyatda KOS-un iqtisadi inkişafın hərəkət verici qüvvəsi olmasını önə sürən alimlər əsasən, sonuncunun rəqabəti və sahibkarlığı gücləndirməsi və dolayısı ilə iqtisadiyyatın səmərəliliyinə, innovasiyalara və produktivliyin artımına müsbət təsir etməsi, KOS-ların böyük firmalardan daha səmərəli olmasını və daha çox əməkintensiv olması məsələlərini əldə rəhbər tuturlar. KOS-un iqtisadi inkişafa müsbət təsir etməsini təkzib edən alimlər isə qeyd edirlər ki, böyük firmalar miqyas iqtisadiyyatından istifadə etmək imkanına malikdirlər, sonuncuların yaratdığı iş yerləri daha stabil və daha keyfiyyətlidir və ümumiyyətlə, firmaların ölçüsü tamamən ölkənin mövcud resursları tərəfindən müəyyən olunur. Bütün bu müzakirələr fonunda bir çox dövlət və beynəlxalq təşkilatlar KOS sektoruna maliyyə və sair yardımlar ayırmaqda davam edirlər. Azərbaycanda da KOS sektorunun inkişafı üçün bir çox addımlar atılmışdır və KOS və iqtisadi inkişaf arasında səbəbiyyət əlaqəsinin təyin edilməsi ölkə resurslarının düzgün istifadə edilməsi baxımından çox mühümdür.

**Açar sözlər:** Kiçik və orta sahibkarlıq, iqitsadi inkişaf, yanaşma.

**MODERN APPROACHES TO THE IMPACT OF SMALL AND MEDIUM-SIZED BUSINESSES ON ECONOMIC DEVELOPMENT**

**ABSTRACT**

The relationship between Small and Medium Enterprises (hereinafter referred to as SME) and economic growth has been centerpiece to both scientific and public debates for the last decades. Even today the existence of causal relationship between the two is an important issue. Scholars who emphasize SMEs as a main driver of economic growth rely on the fact that SMEs boost competition and entrepreneurship and as a result country take advantage of public externalities such as innovation, economy-wide efficiency and aggregate productivity growth. They further stress that SMEs are more efficient and more labor intensive than large firms. The scholars who deny the role of SMEs in economic growth point out that large firms have the possibility of using economies of scale, and workplaces created by them are more stable and of higher quality, and in general, the size of firms is totally determined by resource endowments of a country. Meanwhile, many countries and international organizations continue to aid SMEs in financial and other terms. Azerbaijan has also spent many efforts to improve SME sector and therefore, it is vitally important to identify causal relationship between SME and economic growth in order to use resources of the country in an efficient way.

**Keywords:**Small and Medium Enterprises, economic growth, approach.

**СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ВЛИЯНИЮ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ**

**РЕЗЮМЕ**

В последние десятилетия наличие или отсутствие причинной связи между малым и средним предпринимательством и экономическим развитием являлась темой широкого обсуждения как среди общест-

венности, так и в экономической научной литературе. На сегодняшний день наличие или отсутствие причинной связи между малым и средним предпринимательством и экономическим развитием все еще сохраняет свою актуальность и является важной задачей. Ученые, утверждающие, что малое и среднее предпринимательство является движущей силой экономического развития, руководствуются тем, что малое и среднее предпринимательство усиливает конкуренцию и следовательно оказывает положительное влияние на экономическую эффективность, инновации и рост производительности, а также выделяют значительную эффективность и трудоемкость малого и среднего предпринимательства. В свою очередь, ученые, отрицающие положительное влияние малого и среднего предпринимательства на экономическое развитие, утверждают, что крупные фирмы способны извлекать выгоду из эффекта масштаба в экономике. Более того, рабочие места, созданные крупными фирмами являются более стабильными, а размер фирмы, как правило, в значительной степени определяется ресурсами страны. На фоне всех этих обсуждений многие государственные и международные организации продолжают оказывать финансовую и другого рода помощь малому и среднему предпринимательству. В Азербайджане было предпринято много шагов для развития малого и среднего предпринимательства. Таким образом, выявление причинной связи между малым и средним предпринимательством и экономическим развитием является очень важным аспектом с точки зрения правильного использования ресурсов страны.

***Ключевые Слова: Малое и среднее предпринимательство***, экономическое развитие, подход.

## Giriş

Son onilliklərdə kiçik və orta sahibkarlıq (bundan sonra "KOS") və iqtisadi inkişaf arasında əlaqənin olub-olmaması elmi və ictimai müzakirələrin mühüm predmetlərindən birinə çevrilmişdir. İstər elmi ədəbiyyatda, istərsə də fərqli yerli və beynəlxalq təşkilatların ölkələrin iqtisadi inkişafının gələcək perspektivləri ilə bağlı məruzələrində son zamanlar KOS-un əhəmiyyəti vurğulanmaqdadır. Lakin, maraqlı məsələ bundan ibarətdir ki, KOS-ların iqtisadi inkişafa təsirinin olub-olmaması məsələsində fikirlər yekdil deyildir. Bundan əlavə, fərqli ölkələrin və fərqli beynəlxalq təşkilatların KOS-ların təsnifatı ilə bağlı meyarları da bir-birindən fərqlənir ki, bu da müxtəlif ölkələrin məlumatlarına əsaslanan KOS və iqtisadi inkişaf əlaqəsi ilə bağlı elmi araşdırmaların aparılmasında problem yaradır. Belə ki, bir ölkədə KOS kimi təyin olunan müəssisə digər ölkədə bu təsnifatdan kənarda ola bilər. Nəticədə ölkələrarası məlumatları özündə ehtiva edən KOS araşdırmaları və bu cür araşdırmalardan çıxarılan nəticələr inandırıcı olmurlar. Digər tərəfdən, KOS-ların fərqli ölkə və beynəlxalq təşkilatlar tərəfindən müəyyən olunan fərqli meyarları bu cür müəssisələrin maliyyə və sair yardımlara çıxışında problemlər yaradır. Bundan başqa, KOS sektorunun özünün inkişafı ilə bağlı fərqli yanaşmalar mövcuddur.

Azərbaycan post-Sovet ölkəsi olaraq son illərdə KOS sektorunun inkişafı ilə bağlı bir sıra işlər görmüşdür. Bu işlərin ilk növbədə KOS sektorunun özü üçün nə qədər effektiv olub-olmaması haqqında elmi araşdırmalar yoxdur. Bundan başqa, KOS sektorunun inkişafının iqtisadi inkişafa verdiyi töhfənin kəmiyyəti haqqında da araşdırmalar aparılmamışdır. Fikrimizcə, KOS sahəsinin inkişafı üçün son illərdə ayrılan resurslar fonunda qeyd olunan məsələlərin araşdırılması çox önəmlidir.

Cari məqalənin məqsədi KOS-un inkişafı ilə bağlı müasir yanaşmaları önə sürmək və bununla da, KOS və iqtisadi inkişaf arasında əlaqənin mövcud olub-olmamasının elmi araşdırılması və bu sektora ayrılan resursların bu günə qədər nə dərəcədə effektiv olduğunun öyrənilməsinə cığır açmaqdır. Çox təəssüf ki, bu günə qədər ölkəmiz üçün bu qədər əhəmiyyətli olan məsələ barədə yetərincə elmi araşdırma aparılmamışdır.

## Kiçik və orta sahibkarlığın iqtisadi inkişafa təsirinə dair nəzəri yanaşmalar

KOS haqqında elmi ədəbiyyatda xeyli araşdırmalar vardır. KOS-un iqtisadiyyat üçün əhəmiyyətini qeyd edən alimlər əsasən 3 önəmli mümkün təsirin məcmusuna istinad edirlər ki, Dünya Bankının da inkişaf etməkdə olan ölkələrdə olan KOS sektoruna yardımları qeyd edəcəyimiz mümkün təsirlərin məcmusuna söykənir:

1) KOS rəqabəti və sahibkarlığı gücləndirir və dolayısı ilə iqtisadiyyatın səmərəliliyinə, innovasiyalara və produktivliyin artımına müsbət təsir göstərir. Bu səbəbdən də KOS-a dövlət yardımı rəqabət və sahibkarlığın sosial mənfəətlərindən bəhrələnməyə imkan yaradır;
2) KOS-lar böyük firmalardan daha səmərəli işləyir, lakin maliyyə vasitələrinə çıxışın çətinliyi KOS-ların inkişafına maneə törədir. Buna görə də KOS-lara bilavasitə dövlətlərin maliyyə yardımı onların inkişafına gətirib çıxara bilər ki, bu da öz növbəsində məcmu halında iqtisadiyyatın inkişafına səbəb ola bilər;
3) KOS-lar daha çox əmək intensivdirlər və KOS-ların inkişafı işsizliyin aradan qaldırılmasında böyük rol oynaya bilər və nəticədə ölkədə yoxsulluğun azalması müşahidə oluna bilər. Bu səbəbdən də əslində KOS-ların subsidiyalaşdırılması yoxsulluğun aradan qaldırılma vasitələrində biri kimi görülə bilər [1].

Yuxarıda qeyd olunan fikirləri dəstəkləyən bir sıra elmi araşdırmalar aparılmışdır, lakin adətən bu araşdırmalar iqtisadi inkişaf və KOS-lar arasında əlaqənin reqressiv analizi zamanı iqtisadi inkişafa təsir edən digər amilləri nəzarətə götürməyi unutmuşlar və yaxud “sinxron səbəbiyyət” və “tərs səbəbiyyət” məsələlərini nəzərə almamışlar. Məsələ budur ki, bəzi faktorlar həm KOS-ların inkişafına həm də iqtisadi inkişafa eyni zamanda təsir edə bilər. Bu faktorları ədəbiyyatda adətən qlobal faktorlar adlandırırıq. Qlobal faktorların nəzərə alınmaması “saxta”reqressiv analizlərin meydana çıxmasına səbəb ola bilər. Bu cür reqressiyaların maraqlı nümunələri vardır [2]. Məsələn, Nikolas Keycin iştirak etdiyi filmlərin sayı ilə ABŞ-da su hovuzlarında boğulan adamların reqressiyası “statistik əhəmiyyətli” əlaqə verir. Halbuki, bu cür əlaqə gülməli və mənasızdır. Reqressiya tənlikləri əsasən korrelasiya əlaqəsini verir. Bu cür əlaqənin səbəbiyyət əlaqəsi olmasını isə iqtisadi olaraq və nəzəri olaraq əsaslandırmasaq tənliklər mənasız hala gəlmiş olur. Özümüz belə bir real situasiyanı düşünə bilərik: Fərz edək ki, ÜDM və dondurmanın rüblük satış məlumatları əlimizdə vardır. ÜDM-in dondurma satışına reqressiya tənliyini hesablasaq görərik ki, dondurma satışı artdıqca ÜDM artır və tərsinə (çox güman ki, aldığımız tənlikdə dondurmanın əmsalı statistik əhəmiyyətli olacaqdır). Belə nəticə çıxara bilərik ki, ölkənin inkişafı üçün daha çox dondurma istehsal etməliyik və ya daha çox dondurma yeməliyik. Lakin unutmamalıyıq ki, havanın temperaturunun artması dondurma satışını və onunla yanaşı digər məhsulların da istehlakını artırmışdır və nəticədə həm ÜDM, həm də dondurma istehlakı artmışdır. Reqressiv tənliyi nəzəriyyəyə əsaslanmadan şərh etməyə çalışsaq və havanın temperaturunu qlobal faktor kimi nəzərə almasaq belə nəticəyə gələ bilərik ki, dondurma yemək iqtisadi inkişafı gücləndirir.

## KOS sektorunun iqtisadi önəmini təkzib edən yanaşmalar və ümumi tendensiya

Həqiqətən də, ədəbiyyatda KOS-ların iqtisadi inkişafın səbəbkarı olmasını təkzib edən bir sıra fikirlər də mövcuddur. Bu fikirləri Bek, Demirgüc-Kunt və Levin (2005) 4 fərqli qrupa bölmüşdür[1,səh. 2]:

1) KOS-ların əksinə fikir yürüdən alimlər adətən böyük firmaların daha effektiv olmalarını, məxsusən, "miqyas iqtisadiyyatından"yararlandıqlarını və bu səbəbdən də araşdırma və inkişaf üçün daha çox maliyyə ayıra bildiklərini önə sürürlər ki, sonuncu da iqtisadiyyat üçün mühüm müsbət tendensiyalara gətirib çıxarır [3];
2) Digər qrup alimlər isə KOS-ların yaratdığı iş yerlərinin stabilliyi və keyfiyyətini şübhə altına alır və deyirlər ki, böyük sahibkarlıq subyektləri yoxsulluğun azaldılmasında daha çox rol oynayırlar çünki sonuncuların yaratdığı iş yerləri daha stabil və daha keyfiyyətlidir. Hətta bəzi araşdırmaçılar qeyd edirlər ki, KOS-lar nə iş yerlərinin yaradılması baxımından, nə də əmək intensiv olmaları baxımından böyük firmalardan üstündürlər. Bundan başqa elmi araşdırmalar göstərir ki, inkişaf etməmiş maliyyə və hüquq institutları sahibkarlıq subyektərinin inkişafına zərbə vurur və onların optimal ölçüdə böyüməsinə maneə törədir [4];
3) Digər tərəfdən, bəzi araşdırmalar sahibkarlıq subyektlərinin ölçüsünün iqtisadi inkişafın xarici(ekzogen) determinantı olması ideyasını tamamilə təkzib edirlər. Məsələ burasındadır ki, ölkələrin maddi resursları, institutları və texniki inkişaf səviyyəsi onların sənayesinin tərkibini və firmaların ölçüsünü təyin edən faktorlardır. Məsələn, bəzi ölkələrin mövcud resursları onlara müəyyən məhsulların böyük ölçülü subyektlər tərəfindən istehsalında müqayisəli üstünlük verə bilər, bəzi ölkələrdə isə tam tərsi ola bilər[5]. Bundan əlavə, sahibkarlıq subyektlərinin optimal ölçüsünün böyük olması onun xarici ticarətə daha açıq olması ilə də əlaqədar ola bilər[6];
4) KOS-ların səmərəliliyinə şübhə ifadə edən digər bir görüş isə KOS-ların iqtisadi inkişaf üçün əhəmiyyətini şübhə altına alır və daha çox ölkənin sahibkarlıq mühitinin iqtisadi inkişaf üçün mühüm olduğunu qabardırlar. Çünki, sahibkarlıq mühiti bütün ölçüdə olan firmaların qarşılaşdıqları bir reallıqdır. Bazarda giriş və çıxış maneələrinin az olması, təşəkkül tapmış əqli mülkiyyət hüquqları və müqavilələrin səmərəli icrası rəqabət üçün səmərəli mühitdir. Sonuncu görüş də KOS əleyhdarı olan digər görüşlər kimi KOS-ların subsidiyalaşdırılmasına qarşı çıxır [7].

Bek, Demirgüc-Kunt və Levin (2005)KOS-ların iqtisadi inkişaf üçün fərz edilən önəmlərini bir neçə ölkənin məlumat bazasını istifadə edərək yoxlamışlar. Sonuncu məqalənin empirik nəticələri aşağıdakı kimidir:

1) KOS və iqtisadi inkişaf arasında güclü pozitiv assosiyasiya vardır. Hətta iqtisadi inkişafa təsir etməsi güman olunan biznes mühiti dəyişənini nəzarətdə saxladıqda (Frisch-Waugh teoremində [8] olduğu kimi, sonuncu dəyişənin mümkün təsirini analizdən çıxardıqda) bu əlaqə öz statistik əhəmiyyətini itirmir;

2) KOS-ların inkişafı inkişaf etmiş iqtisadiyyatların xarakterik cəhəti olmasına baxmayaraq olkələrarası analiz zamanı KOS-ların uzunmüddətli inkişaf üçün hərəkətverici qüvvə olması öz təsdiqini tapmır. Çünki instrumental dəyişənin istifadəsi nəticəsində KOS və iqtisadi inkişaf əlaqəsinin statistik əhəmiyyəti itir;

3) KOS sektorunun iqtisadiyyatda ölçüsünün yoxsulluğun azaldılmasına təsiri empirik təsdiqini tapmamışdır. Məxsusən, KOS sektorunun iqtisadiyyatdakı ölçüsünün aşağıdakı göstəricilərlə əlaqəsi empirik isbat oluna bilməmişdir: i) əhalinin yoxsul təbəqəsinin gəlirləri ii) Gini əmsalı iii) Günə 1 dollardan az gəlirə yaşayan əhalinin faiz nisbəti iv) yoxsulluq kəsiri (adambaşına düşən ÜDM-in artımı nəzərə alınmaqla).

Bəzi alimlər isə KOS-un regionların iqtisadi inkişafı üçün mühüm hərəkətverici qüvvə olduğunu qeyd edirlər: "KOS istənilən cəmiyyət üçün sübhəsiz olaraq mühümdür, misal üçün Portuqaliyada sənaye fabriklərinin 98%-ni KOS-lar təşkil edir..." [8, səh. 2]. Ümumilikdə, ədəbiyyatda KOS-un iqtisadi inkişafın hərəkətverici qüvvəsi olub-olmaması haqqında fərqli fikirlər olsa da, əsas tendensiya KOS və iqtisadi inkişafın əlaqəsinin mühüm olduğunu təsdiq edir [10]–[12]. Məhz bu səbəbdəndir ki, bir sıra beynəlxalq təşkilatlar və ayrı-ayrı ölkələr KOS-un inkişafı üçün tədbirlər planı həyata keçirir. Məsələn,Yaponiyada KOS-a dövlət dəstəyinin arxasında aşağıdakı səbəblər dayanır [13]:

1) KOS-lar iqtisadi fəaliyyətdə böyük çəkiyə malikdirlər. Belə ki, Yaponiyanın istehsalat sektorunda fəaliyyət göstərən müəssisələrin 97.6%-i işçi sayı 100-dən az olan təşkilatlardır ki, onlar da yapon qanunvericiliyinə əsasən KOS kimi təsnif edilmişdir;

2) KOS-lar cəmiyyətdə stabilləşdirici funksiyanı yerinə yetirirlər, çünki bu cür müəssisələr insanların, məxsusən ixtisassız işçilərin əməyə cəlb olunmasına və beləliklə də gəlir bölgüsünə müsbət təsir göstərirlər;

3) KOS-lar bazaryönümlü iqtisadiyyatın dinamika mənbəyidir, çünki KOS-ların bazara daxil olma və bazardan çıxma tezliyi yüksəkdir. İqtisadi inkişaf, habelə sənaye infrastrukturunun təkmilləşdirilməsi səmərəsiz müəssisələrin daha səmərəli müəssisələrlə əvəz olunması prosesinin nəticəsidir və burada KOS-lar böyük rol oynayır;

4) KOS-lar böyük müəssisələr üçün xarici qaynaqdır və eksport yönümlü böyük müəssisələr üçün yardımcı mal və xidmətlərin tədarükündə iştirak edirlər. Bu da öz növbəsində böyük müəssisələrin resurslarının daha səmərəli istifadə olunmasına gətirib çıxarır və beləliklə də ümumi iqtisadiyyatda olan səmərəlilik səviyyəsi artır;

5) KOS-lar regionların iqtisadiyyatında böyük rol oynayırlar və bölgələrdə kənd təsərrüfatına aid olmayan iş yerlərinin açılmasında əvəzedilməz imkanlar yaradırlar [12, səh. 3].

KOS-lara göstərilən dəstəklə bağlı bir-birindən konseptual olaraq fərqlənən 2 yanaşma mövcuddur. Birinci yanaşma KOS-ların yeni iş yerlərinin açılması və gəlirin ədalətli bölgüsünü özündə ehtiva edən stabilləşdirmə funksiyasını əsas götürür və bu səbəbdən də böyük müəssisələrlə müqayisədə daha əlverişsiz mövqeyə malik olan KOS-ların dəstəklənməsini önə sürür. İkinci yanaşma isə KOS-ların sənaye infrastrukturunu gücləndirərək iqtisadi inkişafda əhəmiyyətli rol oynaması məsələsini qabardaraq böyümə potensialı olan KOS-lara yardım göstərilməsinin önəmini vurğulayır. KOS-lara dəstəyin arxasında hansı yanaşmanın (məqsədin) durmağı çox önəmli məsələdir və məhz bu faktor dəstək verilməsi önəmli olan KOS-ların spektrumunu təyin edir[13].

Bundan başqa, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi donor təşkilatları özəl sektora dövlət intervensiyasının əleyhinə olsalar da, KOS-lara dəstək göstərilməsini təqdir edirlər. Məsələn, Dünya Bankı, Amerikadaxili İnkişaf Bankı, Beynəlxalq İnkişaf üzrə Amerika Agentliyi (USAİD) KOS-lara dəstək məqsədilə xüsusi şöbələr yaratmışlar. Çox güman ki, sonuncu məsələ KOS-ların iqtisadi inkişaf və həyat səviyyəsinə müsbət təsirinin getdikcə daha çox qəbul edilməsi ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, adətən beynəlxalq donor təşkilatlarının KOS-lara olan dəstəyinin arxasında məhz birinci yanaşma, yəni onların sosial stabilliyə və yoxsulluğun azaldılmasına müsbət təsiri məsələsi dayanır[13, səh. 3].

## Nəticə

Azərbaycan nisbətən yeni müstəqillik qazanmış bir ölkə kimi KOS sektorunun inkişafı sahəsində xeyli işlər görmüşdür və hal-hazırda da, KOS sektoruna dəstək tədbiri davam etməkdə və genişləndirilməkdədir. Bütün bunları nəzərə alaraq, KOS və iqtisadi inkişaf arasında səbəbiyyət əlaqəsinin olub-olmamasının araşdırılması gələcək iqtisadi siyasətin istiqamətinin təyin edilməsi və ölkə resurslarının düzgün istifadə edilməsi baxımından çox mühümdür. Lakin, təəssüflər olsun ki, bu cür önəmli məsələlər haqqında elmi ədəbiyyatda yetərincə araşdırma mövcud deyildir.

Bu məqalədə KOS və iqtisadi inkişaf arasında əlaqənin olub-olmaması haqqında mövcud olan fərqli fikirləri əks etdirmişik. Qeyd edildiyi kimi, bəzi alimlər KOS və iqtisadi inkişaf əlaqəsinin mühümlüyünü vurğulayır, digərləri isə bunun əksinə fikir yürüdürlər. Maraqlı məsələ bundan ibarətdir ki, həm KOS-ların tərəfdarı, həm də əleyhdarı olan alimlərin əsaslandıqları səbəblər toplusu da bir-birindən fərqlənir. Bütün bu məsələləri qeyd etməkdə məqsədimiz KOS və iqtisadi inkişaf arasında əlaqənin mövcudluğunun hələ də təsdiqini tapmamasını göstərmək və bununla da, alimlərimizin diqqətini KOS sektoru ilə bağlı aparılan iqtisadi siyasətin elmi araşdırılmasına cəlb etməkdir.

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


[1] T. Beck, A. Demirguc-Kunt, and R. Levine, "SMEs, Growth, and Poverty," National Bureau of Economic Research, Working Paper 11224, Mar. 2005.

[2] "15 Insane Things That Correlate With Each Other." [Online]. Available: http://tylervigen.com/spurious-correlations. [Accessed: 31-Jul-2018].

[3] P. Pagano and F. Schivardi, "Firm Size Distribution and Growth*," *Scand. J. Econ.*, vol. 105, no. 2, pp. 255–274, Jun. 2003.

[4] D. R. Snodgrass and T. Biggs, *Industrialization and the small firm: patterns and policies*. San Francisco, Calif: International Center for Economic Growth and, 1996.

[5] J.-I. You, "Small firms in economic theory," *Camb. J. Econ.*, vol. 19, no. 3, pp. 441–462, 1995.

[6] D. W. Caves and L. R. Christensen, "The Relative Efficiency of Public and Private Firms in a Competitive Environment: The Case of Canadian Railroads," *J. Polit. Econ.*, vol. 88, no. 5, pp. 958–976, Oct. 1980.

[7] K. D. Edmiston, "The Role of Small and Large Businesses in Economic Development," *SSRN Electron. J.*, 2007.

[8] J. Chipman, *Advanced Econometric Theory*. Routledge, 2013.

[9] N. Duarte, "The role of smes for development: a literature review 'regions and fiscal federalism,'" European Regional Science Association, ersa04p39, Aug. 2004.

[10] OECD, "ENHANCING THE CONTRIBUTIONS OF SMEs IN A GLOBAL AND DIGITALISED ECONOMY," Jun. 2017.

[11] H. J. Wall and Y. Georgellis, "What makes a region entrepreneurial? Evidence from Britain," *Ann. Reg. Sci.*, vol. 34, no. 3, pp. 385–403, 2000.

[12] C. Boari, V. Odorici, and M. Zamarian, "Clusters and rivalry: does localization really matter?," *Scand. J. Manag.*, vol. 19, no. 4, pp. 467–489, Dec. 2003.

[13] "chapter3.pdf." [Online]. Available: https://www.jica.go.jp/jica-ri/IFIC_and_JBICI-Studies/english/publications/reports/study/topical/spd/pdf/chapter3.pdf. [Accessed: 16-Aug-2019].

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- ECONOMICS AND ADMINISTRATION
*2019. Volume 3, Number 1* *Pages 87-94*

*UOT: 338:37*

# EĞİTİMDE PROJE TABANLI ÖĞRENME YAKLAŞIMININ ÜNİVERSİTE-SANAYİ İŞBİRLİĞİNİN GELİŞMESİNDEKİ ROLÜ

**İSA QASIMOV, DOÇ. DR.,**
Bakü Mühendislik Üniversitesi,
*iqasimov@beu.edu.az*

**ENSAR LOKMANOĞLU, DR. ÖĞRETİM ÜYESİ,**
Recep Tayyip Erdogan Üniversitesi,
*ensar.lokmanoglu@erdogan.edu.tr*

**ÖZET**

Dünyada değişen ihtiyaçlara göre personel eğitimi ve bilimsel araştırmalarda başarılı ve katma değeri olan sonuçlara ulaşmanın yollarından biri de eğitim sürecinde proje temelli yaklaşım metodolojisinin uygulanmasıdır. Üniversite ve sanayi kuruluşları arasında iyi bir işbirliğinin her iki tarafın çıkarlarını tanımlayan ve tatmin eden, gerçekten kendi kendini düzenleyen ve motive edebilen, ayrıca geliştiren özelliklere sahip olması durumunda sürecin müsbet sonuçlar verebilme olasılığı vardır. Proje tabanlı ders zamanı araştırılan sorunlar sanayi kuruluşlarının çözemediği konular olduğu ve eğitim ve araştırmalar sonucunda kazanılan ürün veya hizmet yenilikçi ve katma değere sahip olduğu sürece verimli bir işbirliği oluşabilir. İşbirliğinin başlaması ve sürdürülebilir olmasını sağlamak iletişim faktörlerinin doğru değerlendirilmesi ve uygulanmasına bağlıdır. Bu araştırmada proje tabanlı eğitim uygulamasının üniversite-sanayi işbirliğinin gelişmesi açısından rölü incelenmekte ayrıca bu süreci etkileyen iletişim faktörleri ele alınmaktadır.

**Anahtar kelimler:** proje tabanlı eğitim, üniversite-sanayi işbirliği, rekabetçi, iletişim faktörleri

## THE ROLE OF PROGRESSİVE LEARNİNG APPROACH İN EDUCATİON İN THE DEVELOPMENT OF UNİVERSE-INDUSTRY PARTNERSHİP

**ABSTRACT**

One of the ways to achieve successful and value-added results in the field of personnel training and scientific research according to changing needs in the world is the implementation of project-based approach methodology in the education process. There is a possibility that the process will provide positive results if the cooperation between university and industrial organizations defines and satisfies the interests of the parties, is truly self-regulating and motivating, and has improving features. As long as project-based problems cannot be solved by industrial organizations and the product or service gained as a result of education and research is innovative and has added value, an efficient cooperation can be created. Ensuring that cooperation starts and is sustainable depends on the correct evaluation and implementation of communication factors. In this research, besides revealing the role of project-based education on the development of university-industry cooperation, the communication factors that affect this process are revealed.

**Key Words:** project based education, university-industry cooperation, competitive, communication factors.

## Giriş

Küreselleşmenin getirdiği hızlı değişimlerin yanı sıra, yüksek teknolojilerin üretim ve uygulamalarının etkileri de yenilikçi ve katma değer ifade eden yaklaşımlara ihtiyacı arttırmaktadır. Sosyal ve ekonomik piyasanın karşılaştığı (veya oluşturduğu) şartlar, bu süreci daha da güncelleştirmektedir. Bilgi toplumunun ihiyaçlarına uygun olarak sosyal, politik ve ekonomik süreçlerde rekabet gücünün sağlanması için durum veya sonuçların analiz edilmesine olan önem de artmaktadır.

Sanayi toplumunda üretim araçlarının üretimi daha fiili veya daha kârlı olarak kabul edilirken, bilgi toplumunda büyük bilgi tabanlarının oluşumu ve analizi ön plandadır. Sosyo-ekonomik gelişme ve değişimler, aynı zamanda dünya nüfusunun ihtiyaç ve taleplerini de değiştirmektedir. Bu ve buna benzer faktörler, olaylara ve süreçlere farklı ve katma değeri daha fazla olan yaklaşımları talep etmektedir.

Katma değer yaratan çalışmaların ve bunların sonuçlarının geliştirilmesi ve uygulanması, değişen talepler doğrultusunda bilgi ve beceri, hatta yeni meslek alanlarının meydana gelmesini gerektirir. Bu süreç bazı alanların daha güncel olmasını sağladığı gibi, bazı meslek alanlarına olan talebi ise azaltmaktadır. Değişiklikler yeni meslek alanlarına ihtiyaç oluşturmakla birlikte, varlığını devam ettiren bazı meslek alanlarının da değişmesine neden olmaktadır. Yüksek öğretim kurumlarında yürütülen personel eğitimi ve bilimsel araştırmalar, kamunun ve iş dünyasının ihtiyaçlarını karşılamak zorundadır. Endüstride otomasyon süreci çok büyük ihtiyaca dönüşmektedir. Bazı alanlarda otomosyon uygulaması daha etkili ve rekabetçi olduğundan robotlara olan talep artmaktadır.

Değişen ihtiyaçlara göre personel eğitimi ve bilimsel araştırmalarda başarılı ve katma değeri olan sonuçlara ulaşmanın yollarından biri de eğitim sürecinde proje temelli yaklaşım metodolojisinin uygulanmasıdır.

Üniversitelerin sürekliliği ve gelişiminde başlıca iki unsur (araştırma ve eğitim) rol oynadığı halde, bazı üniversitelerde yaklaşımın yalnız öğretim yönünde olması, eğitim müesseseleri ya da kuruluşlarının gelişmesi ve yenilenmesi sürecinde ciddi sorunlara neden olabilir. Diğer yandan, eğitim-öğretim süreci toplumun sorunlarına daha verimli çözümler getirmek ve geleceğe hesaplanmış katma değerler üretmek zorundadır. Aksi halde, eğitim sürecinin başaralı olması mümkün olmadığı gibi, bireylerin ve toplumun eğitimden beklentileri de yok olabilir veya önemli düzeyde azalabilir. Dolayısı ile, eğitim sürecinde yenilenme ve piyasa talepleri doğrultusunda değişimleri sağlamak için farklı uygulamalara ihtiyaç duyulmaktadır. Son dönemlerin en yaygın ve verimli sonuçları ile dikkat çeken yöntemlerden biri de eğitim-öğretimde proje temelli ders metodolojisidir.

Eğitim-öğretim sürecindeki "proje tabanlı ders" (veya proje tabanlı ders) yöntemi özellikle üniversitenin genel performansının; dolayısıyla iyi bir eğitim ile toplumda katma değer oluşturabilen insan kaynaklarının oluşumunu ve gelecekte bu potansiyelin araştırmaya dayalı gelişimini sağlamaktadır. Dolayısıyla, "proje tabanlı ders" yöntemi ile yapılan eğitim süreci, sadece öğretmenlerin bilgi ve becerilerinden ileri gelen yeteneklerin değil, aynı zamanda öğrencilerin bilgi ve becerilerinin fikir ileri sürme potansiyellerinin tanımı ve gelişimiyle de daha etkili kapsam alabilmektedir.

Öğrenenlerin hızla değişen talep-teklif kriterlerine uygun olarak, yeni yaklaşımlar üretmek ve uygulamak, ayrıca müfredat dışı faaliyetlerin de etkin kullanımını sağlanmak için "proje temelli ders" yöntemi güncel olarak kabul edilir. Proje tabanlı eğitim yöntemine dayalı organizasyonel yaklaşımlar, sadece öğretmenler açısından değil, aynı zamanda öğrencilerin performansının iyileştirilmesi açısından da olumlu bir etkiye sahiptir. Bu tip ders yönteminde proje uygulamaları, öğrencilerde konuya proje bazından yaklaşma ve problem çözme becerilerini geliştirmek maksadını da taşır. Her zaman yeni kullanıcılar ve müşteriler arayışında olan şirketler için de proje bazlı yöntemlerin uygulanması ile alınan sonuçlar, insan kaynaklarının geliştirilmesi, girişimci yaklaşımlar, rekabet gücünün arttırılması ve ekonomik büyümenin sağlanması açısından ilgi çekici olmaktadır. Proje tabanlı eğitim piyasası, sorunları

öğrenmek ve bu sorunlara dair çözüm arayışını sürdürmek zorundadır. Bu açıdan baktığımızda üniversite öğrencilerinin yenilikçi bakışları doğrultusunda önerilen çözümler bir taraftan öğrencilerin pratik gelişimini sağlamakla birlikte, diğer yandan var olan bazı sorunların daha verimli çözülebilmesi için iyi çözümler getirebilmektedir. Sonuçta, eğitim kurumları ile şirketler arasında kendi-kendini düzenleyen ve geliştiren bir işbirliğinin oluşturulması, böyle bir süreçle birlikte mezunların piyasa için beklenen düzeyde olmasına ve girişimciliğin daha yaygın bir hal almasına da vesile olabilir.

Üniversite ve sanayi kuruluşları arasında iyi bir işbirliğinin oluşması durumunda, her iki tarafın çıkarlarını tanımlayan ve tatmin eden, gerçekten kendi-kendini düzenleyen ve motive edebilen müspet sonuçlar verme olasılığı vardır. Proje tabanlı ders zamanı araştırılan sorunlar, sanayi kuruluşlarının çözemediği konular olduğu ve eğitim ile araştırmalar sonucunda kazanılan ürün veya hizmet yenilikçi ve katma değere sahip olduğu sürece verimli bir işbirliği oluşabilir. İlk bakışta farklı alanlarda çalışır gibi görünen akademisyen ve sanayicinin bir araya gelmeleri veya herhangi bir sorunun çözülmesi konusunda hemfikir olmaları çok önemlidir. Değer oluşturmak için daha fazla zamana ihtiyaç olduğunu kabullenmek sanayicilere kıyasla, akademisyenler tarafından daha kolay kabul edilebilir. Sanayici kısa sürede harcadığı yatırımın karşılığını fazlası ile almak isteyebilir. Bazen ise, piyasa şartları bunu zorunlu hale getirebilir. Bu veya bunun gibi durumlar akademisyenlerle sanayicilerin diyaloğunun başarısızlığına neden olabilir. Böylesi durumlarda iyi bir üniversite-sanayi işbirliği için tarafların çıkarları doğrultusunda kurulmasını sağlayan iletişim faktörleri değerlendirilmelidir. İşbirliğinin başlaması ve sürdürülebilir olması, iletişim faktörlerinin doğru değerlendirilmesi ve uygulanmasına bağlıdır.

Bu araştırmada proje tabanlı eğitim uyğulamasının üniversite-sanayi işbirliğinin gelişmesi açısından rolü öğrenilmekle birlikte, üniversitelerde gerçekleştirilen çalışmaların piyasa şartlarına uygun düzeye getirilmesi ve bu süreçte yer alan tarafların iletişim potansiyelinin daha verimli kullanılmasında karşılaşılan sorunlar ve etkiler araştırılacaktır. Araştırma, Türkiye Cumhuriyeti ve Azerbaycan Cümhuriyetinde konuyu ilgilendiren bazı kuruluşların örneğinde yürütülecektir. Araştırmanın sonuçları, üniversite ve sanayi kurumları ile aynı zamanda bu konuyla ilgili devlet ve sivil toplum kuruluşları için verimli bir bilgi kaynağı olabilir.

## Proje Tabanlı Eğitim Nedir ve Neden Önemlidir?

Katma değer oluşturma açısından baktığımızda, proje yapılan dersler eğitim sisteminin en üst hedeflerinden sayılabilir. Bu ders bağımsız çalışma, sorumluluk duygusu, birlikte çalışma ve eleştiri yeteneğini olabildiğince özgünleştirir. Tek tek öğrencilerin başarılarını değerlendirmelerini, organizasyon sorunlarını çözme yeteneklerini geliştirir (Ültanır, 2003).

Geleneksel eğitim biçimi yakın geçmişte en çok uygulanan yaklaşım olmasına rağmen, deneyimsel eğitim son yıllarda ortaya çıkan modern bir eğitim biçimidir. Deneyimsel eğitim bireyin öğrenme sürecine odaklanır ve bilginin elde edilmesi için bellek, yaratıcılık ve duyarlılık gibi öğrenci yeteneklerinin gelişmesini sağlar. (**Mulligan, cited in Boud et al., 1993**). Dersin hedeflerinin belirlenmesi konusunda çok ağır gereksinimler olmadan, "deneyimsel eğitimin, deneyimin öğrenme süreci boyunca oynadığı önemli rolün üzerinde durduğunu" söyleyebiliriz (**Dedouli, 2001: 1**). Bu şekilde, öğrenciler gözlem ve etkileşim yoluyla öğrenerek keşif ve deneylerden yararlanırken, aynı zamanda kişisel veya diğer sınıf arkadaşlarının ilgi alanlarından gerçek dünyayı (**Dedouli, 2001**) keşfederler (**Chrysafidis, 2006**). Böylece öğrenme, öznelliği ve duygusallığı ile karakterize olur. (**Matsaggouras, 2002**). Burada bahse-

dilen "deneyimsel öğrenme"yi sağlayan sistem, proje tabanlı ders yönteminin uygulanması ile daha verimli hale gelebilir (Douladeli, 2014, 1256-1260).

Proje tabanlı ders, temalara dayanan konu ve sorunun çözümü hesaplanarak organize edilen derstir. Proje tabanlı ders, üniversitelerde bilimsel araştırma ve öğretimin kalitesini iyileştirmek, aynı zamanda (üniversite-sanayi işbirliği yüksek olan) gelişmiş ülkelerin deneyiminden yararlanılması amacıyla uygulanan bir yöntemdir. Bu yöntem aşağıdakilerin oluşumunu teşvik eder.

a. Öğretmenlerle birlikte öğrencilerin de bireysel veya takım halinde fikir üretme yeteneğinin gelişimine dayalı eğitim stratejisi sağlar:

Projeye dayalı öğrenme yaklaşımı, uzun zamandır bilinen ve önerilen, öğrencileri motive eden, kalıcı ve hızlı öğrenme sürecini kolaylaştıran bir yöntemdir. Proje yöntemi ile öğretmenler sınıfta öğrencilere bireysel veya grup projelerinin nasıl başlatılacağını ve yönetileceğini öğreterek, onları toplumdaki yetişkin hayata hazırlayabilirler. Bireysel veya grup projeleri sayesinde, öğrenciler, araştırılabilir nitelikte çeşitli sorular sormayı, bu soruların çözümü için çeşitli bilgi kaynaklarını belirlemeyi, bu bilgi kaynaklarından veriler toplamayı, bu verileri değerlendirmeyi ve bir sonuca varmayı öğrenirler (Vatansever Bayraktar, 2015: 710).

b. "Kaos" veya "esnek" yaklaşımların uygulanması ve yönetimi, öğrencileri dersin konusuna daha etkili bağlayabilir:

Murat Polat "Beyin temelli öğrenmenin açılımı nedir?" adlı çalışmasında konuyu şu şekilde izah ediyor (2014: 267): "Öğrenme için en uygun durum, kabaca sahnedeki bir sanatçının ruh haline benzetilebilir. Sanatçı, sahnede kendisini rahat ve güvende hissederse en yüksek performansı gerçekleştirir. Bu rahatlık hissi 'rahat dikkatlilik hali' diye tanımlanır. İki şart (*rahatlık derecesi* ve *içsel motivasyon)* gerçekleştiğinde beyin en yüksek öğrenme performansına ulaşmış olur:"

"Kaos" veya "esnek" yaklaşımların uygulanması ve yönetimi yolu ile öğrenciler kendilerini derste daha rahat hisseder ve bununla birlikte kimse konu ile bağlı kendi doğru bildiği önerileri sunmaktan çekinmez. Kendi önerilerini ispat etme çabası ile konunun araştırılmasına çalışırken, derse daha iyi konsantre olabilirler. Bu durum hem farklı fikirlerin oluşmasını hem de değişik önerilerin bulunmasını sağlar.

*c. Hem derste, hem de dersten ayrı zamanlarda öğrenmeyi ve araştırmayı teşvik eden bir iletişim yaklaşımının oluşturulmasını sağlar:*

Projeye dayalı öğrenme; sınıf içerisinde kısa uygulamalar ile öğretmen merkezli dersler yerine uzun dönemli öğrenme etkinliklerini vurgulayan, disiplinler arası yaklaşımın önemli yer tuttuğu, öğrenci merkezli, gerçek yaşamın konu ve uygulamalarına dönük bir öğrenme yaklaşımıdır (Goldman'dan aktaran Kılıç, 2004………).

Geleneksel öğretim yöntemi ile proje tabanlı eğitim yöntemi arasında önemli farklılıklar olduğu kolayca anlaşılmaktadır. Geleneksel öğretimde, derslerden ve sınavlardan edinilen bilgileri değerlendiren bir sınav yaklaşımı vardır. Proje tabanlı öğretimde ise, öğretmenlerin daha objektif olmaları ve öğrencilerini daha iyi bir öğrenme sonucuna götürmeleri için son değerlendirmeye kadar, çok daha fazla değerlendirmeyle birlikte faaliyetler, çalıştaylar, laboratuvarlar ve araştırmalar da dahil olmak üzere birçok ayrı adım vardır. Ayrıca, proje tabanlı eğitim yönteminde öğretim tekniği aracılığıyla öğrenciler, eleştirel düşüncelerini, projeleri-

nin son teslimine ve sunumuna kadar öğretmenlerinin mentörlüğü ve işbirliği ile yapabilir, iletişim kurabilir ve değişik durumları kullanabilirler **(Thomas, 2000'de alıntılanan Mwangi, 2012**).

Proje, daha fazla öğrenmeye değer bir konunun derinlemesine araştırmasıdır. Soruşturma genellikle bir sınıf içindeki küçük bir grup çocuk tarafından, bazen bütün bir sınıf tarafından ve bazen de bireysel bir öğrenci tarafından üstlenilmektedir. Bir projenin en önemli özelliği, öğrencilerin, öğretmenlerin ya da öğrencilerle çalışan öğretmenin ortaya koyduğu bir konu hakkındaki sorulara cevap bulmaya odaklanmış bir araştırma çalışması olmasıdır. Bir projenin amacı, öğretmen tarafından yöneltilen sorulara doğru cevaplar aramaktan ziyade konu hakkında daha fazla bilgi edinmektir **(ED368509 1994-04-00 The Project Approach. ERIC Digest. ERIC Development Team www.eric.ed.gov, https://files.eric.ed.gov/fulltext/ED368509.pdf)**.

Proje tabanlı eğitimde, öğretmen öğrencilerine aynı zamanda iyi hir mentörlük de yapmaktadır. Bu durum ise öğrencileri de öğretmen kadar, hatta daha fazla çalışmaya motive edebilmekle birlikte, zamanın verimli kullanılması ve ek kaynakların oluşmasını da sağlamaktadır. Böylece, her bir senaryonun sonunda, öğretmenin bilgi ve becerilerine ek olarak bireyler (ya da gruplar) tarafından geliştirilen ve ortaya çıkarılan çözüm, katma değerin oluşturulmasına neden olabilir. Ortaya çıkan yeni fırsatar katma değer oluşturma potansiyeli vermekle birlikte öğrencilerin de yeni talepler doğrultusunda yetiştirilmesini sağlar. Unutulmamalıdır ki, bugünün öğrencileri yakın gelecekte piyasanın talep ve teklif şartlarını belirleyen bireyler olacaktır. Bu açıdan baktığımız zaman, geleceğe doğru geleceği belirleyenlerle birlikte yol almak daha verimli olacaktır.

## Üniversite-Sanayi İşbirliği Nedir ve Neden Önemlidir?

